Xalqın qəzeti!

# Xalq qəzeti

№ 125 (30241) 14 iyun 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Türkiyə–Azərbaycan birliyi xalqlarımız üçün, bölgə üçün, Türk dünyası üçün önəmlidir. Əminəm ki, gələcək illərdə bu birlik daha da güclənəcək və bizi yeni uğurlar, yeni qələbələr gözləyir. Türkiyə–Azərbaycan qardaşlıq əlaqələri qarşısında yeni imkanlar, yeni üfüqlər açılır.**

# Azərbaycan – Türkiyə: möhkəm təməllər, möhtəşəm əməllər

## Rəsmi qarşılanma mərasimi



**Azərbaycan Respublikası Prezidentinin dəvəti ilə ölkəmizdə dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyunun 13-də rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Türkiyə Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verdi.

*(ardı 2-ci səhifədə)*

## Prezidentlərin təkbətək görüşü



**İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.**

*AZƏRTAC*

## Haylar hay salır – erməni siyasi blindajı sülhün diplomatik cəbhəsinə qarşı



**Azərbaycan Prezidenti İlham Əliyev bu il mayın 25-də Moskvada Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasındakı çıxışı zamanı Ermənistanın baş naziri Nikol Paşinyanın həmin tədbirdə səsləndirdiyi iddialara cavab olaraq bildirmişdi:**

“Mən, əlbəttə, diskussiya açmaq istəmirəm. Lakin Ermənistana qarşı ərazi iddialarımızın olması barədə ittihamlar səsləndiyinə görə demək istəyirəm ki, bizim belə iddialarımız yoxdur. Mənim sözlərimdə ərazi iddialarının olmasını görmək üçün xüsusi canfəşanlıq etmək və ya güclü fantaziyaya malik olmaq lazımdır”.

*(ardı 7-ci səhifədə)*

## Vardanyanın “Qarabağ rekviyemi”

**Qarabağdakı separatçı rejimin “dövlət naziri” kimi oyuncaq post tutmuş, hazırda isə ictimai hərəkat yaradaraq, Rusiyanın müəyyən dairələrindən aldığı “direktivlərin” icrası ilə məşğul olan Ruben Vardanyan şəxsi “Telegram” kanalında özünün yarımçıq fəlsəfiliyə köklənmiş baxışlarını paylaşıb. Bəribaşdan bildirək ki, Vardanyanın fikirləri sabiq sovet kinemotoqrafının populyar ekran əsərlərindən sayılan “Brilyant əl” filmindəki “mən qorxaq deyiləm, amma qorxuram” frazasını xatırladır.**



Bəli, Vardanyan qorxmağa başlayıb və belə görünür, qurduğu avantüra çəmbərindən çıxmaq üçün bəhanələr axtarışındadır. Ancaq bu yerdə qorxan itin hürməsi deyimi də yada düşür. Şimaldakı ağalarından aldığı yeni “direktivləri” qorxaraq icra edir.

Ruben yazır ki, son vaxtlar Qarabağdakı durumla bağlı alternativlərin olmamasına dair fikirlər eşidir: “Bu gün bizim guya qeyri-qanuni keçid məntəqəsindən istifadə etməkdən başqa alternativimiz yoxdur. Sabah bəlkə daha bir “qırmızı xətti” keçmək üçün alternativimiz olmayacaq. Xoşbəxtlikdən “Artsax”da belə düşünənlər çox deyil. Tariximiz göstərdi ki, həyatda həmişə alternativlər var, sadəcə, onlardan yararlanmaq çox vaxt asan olmur. Bu, zəhmət, konsolidasiya, fədakarlıq tələb edir. Ancaq yalnız bu yolla onların bizə hörmət etmələrini və bizimlə hesablaşmalarını təmin edə bilərik”.

*(ardı 8-ci səhifədə)*

## İrəvan, guya, Zəngəzur dəhlizinə nəzarətçi arayır




**“Əgər Azərbaycan kommunikasiyalara nəzarətin Rusiya tərəfinə verilməsini arzulayırsa, onda Ermənistan da nəzarətin üçüncü tərəfə verilməsini istəyə bilər”.**

Hayastan parlamentinin spikeri Alen Simonyan mediaya belə bir bəyanatla çıxış edib. Təkcə Cənubi Qafqazdakı subyektlərin deyil, Avropa və okeanın o tayındakı böyük güclərin də maraq dairəsində olan Zəngəzur dəhlizinə nəzarət məsələsi son vaxtlar müzakirəyə çıxarılan ən aktual mövzuya çevrilib. Bu da təsadüfi deyil. Bu dəhliz sadəcə yükdaşımaların yeni marşrutu olmaqdan savayı, həm də böyük qazanc gətirəcək obyektə çevrilməyə iddialıdır. Bizim üçün isə məsələnin ən önəmli tərəfi odur ki, Zəngəzur dəhlizi Naxçıvana rahat gediş-gəlişi təmin edəcək, üstəlik Türkiyə ilə aramızdakı quru yolla məsafəni 38 kilometr qısaldacaq. Deməli, qitələrarası əlaqənin mühüm halqası kimi dəhlizin qardaş Türkiyə üçün də önəmi çox böyükdür.

*(ardı 8-ci səhifədə)*

## Ölkəmiz 179 dövlətlə ticarət əməliyyatları aparıb



Səhifə ⇨ 10

## Uğursuzluqdan diplomatik başgicəllənmə

Səhifə ⇨ 7

## 3 ayda regionlara 4,7 milyard manat investisiya qoyulub



Səhifə ⇨ 10

## Türkiyə Qarabağın bərpasında Azərbaycanın yanındadır




Səhifə ⇨ 10

## İsveç Ali Məhkəməsi “Qurani-Kərim”in yandırılmasına qarşı deyil

Səhifə ⇨ 14

# Rəsmi qarşılanma mərasimi



(əvvəli 1-ci səhifədə)

Türkiyə Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndi.

Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Azərbaycan nümayəndə heyəti Türkiyə Prezidentinə, Türkiyə nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

***AZƏRTAC***

# Geniş tərkibdə görüş



**İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşü keçirilib.**

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı salamlayan Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

– Sizin dövlət səfəriniz bizi çox məmnun edir. Şadam ki, prezident seçkilərindən qısa müddət sonra Siz Azərbaycana səfər edirsiniz. Bir daha Sizi qələbə münasibətilə təbrik etmək istəyirəm. Sizə yeni uğurlar arzulayıram. Əminəm ki, növbəti illərdə də bizim dostluğumuz, qardaşlığımız hər zaman olduğu kimi yüksək səviyyədə olacaqdır.

Biz bu gün Sizinlə artıq təkbətək görüş əsnasında bir çox məsələləri müzakirə etdik. İndi heyətlər çərçivəsində də bunun davamı olacaq. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı - bu, beynəlxalq amildir, sabitlik, inkişaf və təhlükəsizlik amilidir. Prezident seçkilərində türk xalqının Sizə göstərdiyi inam bir daha Sizin uzun illər ərzində Türkiyə xalqına göstərdiyiniz xidmətlərə verilən yüksək qiymətdir. Siz bilirsiniz ki, Sizi Azərbaycanda çox sevirlər. Siz bizim əziz qonağımızsınız.

Mən yeni hökumət üzvlərini də ürəkdən təbrik etmək istəyirəm. Bir çoxlarını tanıyıram. Dünən artıq bizim nazirlər və digər yüksək səviyyəli rəsmilər bir arada olmuşlar, bu gün də bu təmaslar davam edir. Hər zaman olduğu kimi, bizim görüşlərimiz həm görülən işlərə yekun vurur, eyni zamanda, növbəti illərdə görüləcək işlərlə bağlı yol xəritəsi cızır. Əminəm ki, bu səfərdə də belə olacaq. Bir daha xoş gəlmisiniz.

***

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dedi:**

– Hörmətli cənab Prezident, əziz Qardaşım.

Hörmətli heyət üzvləri.

Sizləri öz adımdan, heyətim adından ən səmimi hisslərimlə salamlayıram. Millətimizin iradəsi ilə yenidən prezident seçildikdən sonra hər zamankı adətimiz üzrə əvvəlcə Şimali Kipri ziyarət etdik, sonra da dərhal Bakıya gələrək Sizinlə bir arada olduq. Göstərdiyiniz qonaqpərvərliyə görə şəxsən öz adımdan və heyətim adından səmimi təşəkkürlərimi xüsusilə ifadə edirəm.

Türkiyə–Azərbaycan qardaşlığı bütün dünyada qibtə ilə izlənilir. Bunun son örnəyini Türkiyədə baş verən zəlzələ fəlakəti zamanı gördük. Azərbaycan hökuməti və xalqı dərdimizi öz dərdi kimi bölüşdü və dərhal zəlzələ bölgəsinə heyət göndərdilər. Ürəyi bizimlə döyünən hər bir Azərbaycan vətəndaşına yenə şəxsən öz adımdan və millətim adından minnətdaram.

Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksəltdiyimiz əlaqələrimizi bütün sahələrdə inkişaf etdirməkdə qərarlıyıq. Şuşadakı baş konsulluğumuzu istədiyiniz vaxt açmağa hazırıq. Hakan bəy, bu məsələdə də heç gecikdirmədən, inşallah, Şuşadakı baş konsulluğumuz hər an açıla bilərsə, bu təbii ki, yenə başda Ermənistan olmaqla bütün dünyaya ayrı bir mesaj olacaqdır.

Maarif Vəqfimiz Azərbaycan qurumlarının dəstəyi ilə təhsil-tədris sahəsində fəaliyyətini davam etdirir. İnşallah, gələn il məktəbimizin yeni təhsil korpusunu istifadəyə verməyi planlaşdırırıq.

Əziz qardaşımla təkbətək görüşümüzdə xüsusilə Xəzərdən keçən Orta Dəhliz və bu xüsusda Bakı-Tbilisi-Qars dəmir yolu xəttini də bir an əvvəl müzakirə etməyimizdə fayda var.

***AZƏRTAC***

# Azərbaycan və Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**



## Prezident İlham Əliyevin bəyanatı

– Əziz Qardaşım, hörmətli Cümhurbaşqanı.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, əziz Qardaşım, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana, Vətəninizə xoş gəlmisiniz.

Sizi Cümhurbaşqanı seçkilərində qazandığınız qələbə münasibətilə bir daha təbrik etmək istəyirəm. Şadam ki, bu qələbədən iki həftə sonra Siz Azərbaycana dövlət səfərinə gəlmisiniz.

Seçkilərdə Sizin qələbəniz 20 ildən çox müddət ərzində apardığınız siyasətin Türkiyə xalqı tərəfindən yüksək qiymətləndirilməsinin təzahürüdür. Sizin liderliyinizlə qardaş Türkiyə böyük və şərəfli yol keçmişdir, dünya çapında böyük güc mərkəzinə çevrilmişdir. İstər xarici siyasət sahəsində, istər daxili siyasət sahəsində fəaliyyətiniz Türkiyə xalqı tərəfindən yüksək qiymətləndirilir. Sizin qələbəniz Azərbaycan xalqını da çox mutlu etmişdir.

Əminəm ki, bu seçkilərdən sonra Türkiyə-Azərbaycan qardaşlıq əlaqələri qarşısında yeni imkanlar, yeni üfüqlər açılır. Bu gün biz Sizinlə həm görülmüş işlərə yekun vurduq, eyni zamanda, növbəti illərdə görüləcək işlər haqqında geniş fikir mübadiləsi apardıq. Həm təkbətək görüş zamanı, həm də heyətlərin iştirakı ilə apardığımız danışıqlar bir daha bizim ortaq niyyətimizi ifadə edir. Yəni, əldə edilmiş bütün uğurların təməlində Türkiyə və Azərbaycan arasında olan qardaşlıq əlaqələri dayanır.

İki gündən sonra biz Şuşa Bəyannaməsinin ikinci ildönümünü qeyd edəcəyik. Şuşa Bəyannaməsi tarixi anlaşmadır. Bu anlaşma nəticəsində Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. Əslində, faktiki olaraq, biz uzun illər müttəfiqlər kimi fəaliyyət göstərirdik, ancaq Şuşa Bəyannaməsi bunu rəsmi sənədə çevirdi. Bu sənədin Şuşada imzalanması təbii ki, rəmzi xarakter daşıyır. Çünki Şuşa Qarabağın tacıdır və Şuşanın işğaldan azad olunması İkinci Qarabağ müharibəsinə son nöqtəni qoymuşdur. Fürsətdən istifadə edərək, Azərbaycan xalqı adından Sizə və qardaş Türkiyəyə İkinci Qarabağ savaşı dönəmində bizə göstərdiyiniz qardaşlıq dəstəyinə, mənəvi və siyasi dəstəyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Təbii ki, bizim gələcək işbirliyi proqramımız bu gün müzakirə olunan məsələlər arasındadır. Bütün sahələrdə konkret proqramlar əsasında işlər gedir. İlk növbədə, Türkiyə və Azərbaycan bundan sonra da xarici siyasət sahəsində vahid mövqedən çıxış edəcəklər. Bizim xarici siyasətlə əlaqədar apardığımız birgə fəaliyyət bölgə üçün də çox böyük önəm daşıyır. O cümlədən bölgənin inkişafı, sabitliyi və təhlükəsizliyi nöqteyi-nəzərindən Türkiyə-Azərbaycan birliyi amili çox önəmlidir.

Bu gün, eyni zamanda, müdafiə və müdafiə sənayesi sahələrində gələcək planlar haqqında danışdıq. Məmnuniyyətlə qeyd olundu ki, bu il 16 birgə hərbi təlim keçiriləcəkdir, onlardan 6-sı artıq keçirilmişdir. Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz bunu indi əyani şəkildə görürük. Bu dəstəyə görə də Sizə özəlliklə təşəkkürümü bildirmək istəyirəm.

Bugünkü dünyada güc amili ön plana çıxır. Əfsuslar olsun ki, beynəlxalq hüquq çalışmır. Biz bunu 30 illik işğal dönəmində görmüşdük və aparılan müzakirələr, danışıqlar heç bir nəticəyə gətirib çıxarmadı, nəticəyə gətirib çıxaran bizim gücümüz oldu. Ona görə bundan sonra da birgə fəaliyyət istiqamətində aparılacaq işlər bizim gücümüzü həm bölgədə, həm dünyada daha da artıracaq.

Məmnunluq hissi ilə qeyd etdik ki, ticarət dövriyyəsi sürətlə artır və artıq 6 milyard dollara yaxınlaşıbdır və gələcəkdə daha da artacaq. Çünki birgə həyata keçirəcəyimiz layihələr bunu təmin edəcək, xüsusilə enerji sahəsində. Azərbaycandan Türkiyəyə təbii qazın ixracı artmaqdadır, ildən-ilə artır və bu gün biz razılığa gəldik ki, bundan sonra da artacaq. Bununla paralel olaraq, Türkiyə ərazisindən Avropa ölkələrinə Azərbaycanın qaz ixracı artmaqdadır, buna da böyük tələbat var. Enerji sahəsində bizim işimiz təbii qaz məsələsi ilə məhdudlaşmır. Biz bu gün yenilənən, yəni, bərpaolunan enerji növləri üzrə əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Biz bu gün həm qaz, həm neft, həm neft məhsulları, neft-kimya məhsulları, elektrik enerjisi sahələrində fəal əməkdaşlıq edirik.

Təbii ki, hər dəfə görüşəndə biz nəqliyyat məsələlərini də geniş müzakirə edirik. İndiki geosiyasi şəraitdə Orta Dəhlizin önəmi daha da artır. Azərbaycan ərazisindən, yəni, Xəzər dənizi ilə daşınan yüklərin həcmi ildən-ilə artmaqdadır və daha da artacaq. Ona görə biz Azərbaycanda nəqliyyat və logistika imkanlarımızı genişləndiririk. Bakı Dəniz Limanının imkanlarını 25 milyon tona genişləndiririk. Dəmir yolu, gəmiqayırma zavodu və digər nəqliyyat infrastrukturu ən müasir səviyyəyə gətirilir.

Biz, eyni zamanda, Zəngəzur dəhlizinin tezliklə açılması haqqında fikir mübadiləsi apardıq, bu məsələni müzakirə etdik. Zəngəzur dəhlizinin açılması qaçılmazdır, nə qədər tez olsa, o qədər yaxşıdır. Hər halda biz bu istiqamətdə səylərimizi artıracağıq. Bu dəhlizin açılması bütün ölkələr üçün yeni imkanlar açacaq və bölgədə işbirliyi məsələlərinə də müsbət təsir göstərəcək.

Müzakirə olunan məsələlərdən biri də təhsil sahəsi ilə bağlıdır. Türkiyə-Azərbaycan birgə universitetinin yaradılması istiqamətində danışıqlar indi son mərhələdədir. Biz çox ümid edirik ki, yaxın aylarda bu məsələ də öz həllini tapacaq və bizim qardaşlıq münasibətlərimizə daha bir töhfə veriləcəkdir.

Bir sözlə, qeyd etdiyim bütün bu və digər məsələlərlə, - çünki gündəliyimiz kifayət qədər genişdir, - bağlı fikir birliyi, vəhdət, mövqe birliyi var, belə də olmalıdır. Türkiyə-Azərbaycan birliyi xalqlarımız üçün, bölgə üçün, Türk dünyası üçün önəmlidir. Əminəm ki, gələcək illərdə bu birlik daha da güclənəcək və bizi yeni uğurlar, yeni qələbələr gözləyir.

Əziz qardaşım, gəldiyinizə görə bir daha təşəkkür edirəm. Vətəninizə xoş gəlmisiniz!

***

Sonra Türkiyə Prezidenti bəyanatla çıxış etdi.

## Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı

– Hörmətli cənab Prezident, əziz Qardaşım.

Əvvəlcə, hörmətli mətbuat nümayəndələrinə bir daha bildirirəm ki, Prezident üsul-idarəsinin ikinci dönəmində 86 faizlik iştirak səviyyəsi ilə keçirilən budəfəki seçki dünyada müstəsna deyə biləcəyimiz bir seçki olmuşdur. Bu seçkidən də millətimin iradəsi ilə qalib çıxmaq, yenidən ilk səfərimizi Şimali Kiprə və həmin gün Bakıya gələrək burada gerçəkləşdirmək bizi son dərəcə məmnun etmişdir. Biz öz evimizdəyik və indi burada mətbuata bəyanatla çıxış edirik.

İlham qardaşım, nazirlərin bu gün qarşılıqlı keçirdiyi iclasları olduqca gözəl bir şəkildə ümumiləşdirdi. Bununla yanaşı, hansı sahələrdə nələr etdik, nələri edirik, təkbətək görüşdə də bunları ətraflı müzakirə etdik. Prezident Əliyev bunları da ümumiləşdirdi və heyətlər arasındakı görüş barədə də ətraflı məlumat verdi.

Türkiyə və Azərbaycan iki qardaş ölkədir. “Bir millət, iki dövlət” düşüncəsi ilə bu günə qədər addımladıq. İndiyə qədər addımladığımız bu yolda bundan sonra da qərarlı şəkildə yolumuza davam edəcəyik. Burada bir məsələni də bildirmək istəyirəm. Xüsusilə səlahiyyətlərimin icrasına başlama mərasimində İlham qardaşımın xanımı ilə birlikdə iştirakı dünyaya və Türkiyəyə bir mesajdır. Buna görə mən də eyni qaydada xanımımla birlikdə bu səfərə gəlmişəm. Bu səfərlər aramızdakı münasibətlərin nə qədər inkişaf etməsinin ən gözəl ifadəsidir. Bunları təkcə bu gün etdik? Xeyr. Biz bunları daim – Baş nazir olduğumdan bəri, Prezidentliyi təhvil aldığımdan bəri yaşadıq, yaşayırıq və Rəbbim ömür verdikcə də yaşamaqda davam edəcəyik.

Əziz qardaşım İlham Əliyevə və azərbaycanlı qardaşlarımıza göstərdikləri bu qonaqpərvərliyə görə də şəxsən öz adımdan və heyətim adından çox təşəkkür edirəm. Hazırda atdığımız və atacağımız addımlardan biri də Türkiyə-Azərbaycan Universiteti məsələsidir. Bu məsələ ilə əlaqədar Ali Təhsil İdarəsinin sədri öz həmkarı ilə bu məsələni bu gün nəzərdən keçiriblər. Qanuni prosedurun vacibliyini isə İlham qardaşım ifadə etdi. Bu məsələni də tez bir zamanda həyata keçirərək, İnşallah, Türkiyə ilə Azərbaycan arasında belə bir universitetin qurulmasına nail olacağıq. Beləliklə, azərbaycanlı gənclərimiz Türkiyəyə rahatlıqla gələ biləcəkləri kimi, türk gəncləri də eyni qaydada Azərbaycandakı universitetdə oxumaq şansı əldə edəcəklər.

Bununla yanaşı, ən vacib məsələlərdən biri də məlum olduğu kimi, enerjidir. Enerji sahəsində istər TANAP, istərsə də TAP ilə bağlı illərdən bəri görülən işlər var. Bu işlərin təfərrüatlarını da nazirlərimiz öz aralarında müzakirə etdilər. Həmçinin bununla bağlı bundan sonrakı dövrdə görəcəyimiz işlər müzakirə olundu. Avropa enerji sahəsində, xüsusilə Türkiyə vasitəsilə alacağı qaz məsələsində çox narahatdır. Buna görə davamlı xahişlər edirlər. Bu məsələ ilə əlaqədar biz üzərimizə düşən işi görürük və bundan sonra da həyata keçirməkdə davam edəcəyik.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan və Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər



(əvvəli 2-ci səhifədə)

Bütün bunlarla yanaşı, müdafiə sənayesi sahəsində atılacaq addımlar da böyük əhəmiyyət kəsb edir. Bu sahədə atacağımız addımlarla birlikdə bu işin müdafiə sənayesi hissəsi ilə yanaşı, təhsil məsələsində də üzərimizə düşən vəzifələr var. Bu vəzifələri bu günə qədər necə yerinə yetirmişiksə, bundan sonra da eyni qaydada həyata keçirməkdə davam edəcəyik.

Ən mühüm məsələlərdən biri də xüsusilə hazırda özəl sektorumuzun burada atdığı addımlardır. Şirkətlərimiz kənd təsərrüfatı, heyvandarlıq sahələrində müştərək fəaliyyəti uğurla həyata keçirirlər. Bununla yanaşı, nəqliyyat sahəsində türk podratçı firmaları həqiqətən də Azərbaycanda uğurlu infrastruktur layihələrini həyata keçirirlər. Bu, bizi xüsusilə məmnun edir.

Şuşa Bəyannaməsinin müddəalarını da, İnşallah, bundan sonra da uğurla həyata keçirməyi davam etdirməkdə qərarlıyıq və bu məsələdə güzəştə getməyəcəyik.

Üzərində ən çox çalışdığımız və həssaslıq göstərdiyimiz Zəngəzur dəhlizi məsələsini, İnşallah, sürətlə həll etməyimiz bizə iki mühüm imkanı qazandıracaq. İstər avtomobil yolu, istərsə dəmir yolu ilə bağlı atılacaq addımlar sayəsində buradan İğdıra, Naxçıvana yolun açılması ilə Türkiyənin Naxçıvanla əlaqəsi daha güclü olacaq. Bu əlaqələrin yaradılması Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin daha da güclənməsinə imkan verəcək. Çünki yol mədəniyyətdir. Əgər yolunuz varsa, mədənisiniz. Yolunuz varsa, mədəniyyətə çatmısınız. Əgər yol yoxdursa, heç bir şey yoxdur. Hazırda Azərbaycanın, xüsusilə müharibələrdən sonra infrastrukturla bağlı böyük həssaslıq göstərdiyi ən əhəmiyyətli məsələ yollardır. Bundan əvvəlki səfərimdə də gördüm, bütün tunellər, viaduklar Azərbaycanın Qarabağ müharibələrindən - istər Birinci, istərsə İkinci Qarabağ müharibəsindən sonra necə inkişaf etdiyini ən gözəl şəkildə ortaya qoyur. Biz bunları bilavasitə gördükcə iftixar hissi keçiririk. İyirmi il əvvəlki Bakını düşünürəm və hazırda da Qarabağı düşünürəm. Otuz il ərzində Minsk qrupu vaxt uzatdı və bunun nəticəsini yaşayırıq. Vaxtı çox uzatdılar, addım atmağa imkan vermədilər. Bax, öz göbəyinizi özünüz kəssəniz, addım atarsınız. Sağ olsun, İlham qardaşım bunu bacardı. Millət olaraq bunu bacardınız və indi də bu səviyyəyə gəldiniz. Deməli, məsələ odur ki, qətiyyətli olduğun zaman, inandığın zaman istədiyinə nail olmaq mümkündür. Azərbaycan da bu nəticəyə nail oldu.

Əlbəttə, indi qarşımızda atılacaq bəzi addımlar var. İnşallah, bu addımları da uğurla atdıqca Azərbaycan mövcud əhalisi ilə təbii ki, daha da irəli gedəcək. Mənim əhali ilə bağlı planımı, proqramımı bilirsiniz, ən azı üç deyirdim. Amma Azərbaycanda bu, ən azı beş olmalıdır. Elədirmi, qardaşım?

**Prezident İlham Əliyev:** Çalışacağıq.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Ən azı beş olmalıdır. Hazırda əhali 12 milyondur?

**Prezident İlham Əliyev:** Hələ 11 milyona çatmayıb, 10 milyonun üstündədir, amma, İnşallah, yaxın zamanda çatacaq.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Çatacaq, İnşallah. Yəni, bunu bacarmaq lazımdır. Buna nail olanda Azərbaycan daha güclü olacaq. Çünki əhali hər bir ölkənin gücüdür, həmin ölkənin gələcəklə bağlı paradiqmalarını dəyişdirir. Bu inamla, Türkiyə-Azərbaycan qardaşlığı və "Bir millət, iki dövlət" anlayışı ilə gələcəyə doğru addımlayacağıq. Aramızdakı Preferensial Ticarət Sazişindən tutmuş digər sahələrdə atacağımız addımlarla, İnşallah, Türkiyə-Azərbaycan qardaşlığını daha yüksək səviyyəyə çatdıracağıq. Çox təşəkkür edirəm.

***AZƏRTAC***

# Prezidentlərin birgə işçi naharı



**İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanım Əminə Ərdoğan ilə birgə işçi nahar ediblər.**

***AZƏRTAC***

# Prezidentlər Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə dövlət səfərində olan Türkiyə espublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 13-də Hərbi Hava Qüvvələrinin yeni Mərkəzi Komanda Məntəqəsinin açılışında iştirak ediblər.**

***AZƏRTAC***

# Ulu öndər Heydər Əliyevin məzarını ziyarət



**Azərbaycan Respublikasında dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 13-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə əklil qoyub.**

Ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim, alim Tamerlan Əliyevin məzarları üstünə də gül dəstələri qoyulub.

***AZƏRTAC***

# Şəhidlərin xatirəsi ehtiramla yad olunub



**Azərbaycan Respublikasında dövlət səfərində olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 13-də Şəhidlər xiyabanını ziyarət edib.**

Burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Rəcəb Tayyib Ərdoğan "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Sonra Türkiyə Prezidenti Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklil qoydu, şəhidlik kitabəsinin üstünə gül dəstələri düzdü.

Ali qonaq Xatirə kitabına ürək sözlərini yazdı.

***AZƏRTAC***

# Azərbaycanın və Türkiyənin birinci xanımları İçərişəhərdə olublar

**İyunun 13-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan Bakıda dünya mədəni irsi abidələrindən sayılan İçərişəhərdə olublar.**



Qonaqlar gəzintiyə dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Qız qalası ilə tanışlıqdan başlayıblar. Türkiyə Respublikasının birinci xanımına bu qədim abidənin tarixi barədə ətraflı məlumat verilib.

Daha sonra qonaqlar UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, burada aparılan təmir-bərpa və abadlıq işləri barədə məlumatlandırılıblar.



İçərişəhərdə qədim tarixi-mədəni abidələrdən biri olan "Hacı Bani" hamamı və İçərişəhər Ənənəvi İncəsənət Mərkəzi ilə tanışlıq qonaqlarda xoş təəssürat doğurub.

Sonda qonaqlara xatirə hədiyyələri təqdim edilib.

***AZƏRTAC***

# Türkiyə Prezidentinin Azərbaycana dövlət səfəri başa çatıb





**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına dövlət səfəri iyunun 13-də başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Rəcəb Tayyib Ərdoğanı dövlətimizin başçısı İlham Əliyev yola saldı.

***AZƏRTAC***

# İtaliya Respublikasının Prezidenti Zati-aliləri cənab Sercio Mattarellaya

**Hörmətli cənab Prezident,**

İtaliya Respublikası Nazirlər Şurasının keçmiş Sədri, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim Silvio Berluskoninin vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Silvio Berluskoninin Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında və genişlənməsində böyük töhfəsi var idi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün İtaliya xalqına dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 iyun 2023-cü il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident.**

İcazə verin, Vyetnam dövləti və xalqı adından Sizə və bütün Azərbaycan xalqına milli bayramınız - Müstəqillik Gününün 105-ci ildönümü münasibətilə ən səmimi təbriklərimi çatdırım.

Vyetnam Azərbaycanda həyat səviyyəsinin yüksəldilməsi, ölkənin inkişafı və beynəlxalq mövqeyinin möhkəmlənməsi istiqamətində xalqınızın əldə etdiyi nailiyyətləri həmişə maraqla izləyir və onlarla fəxr edir.

Vyetnam ilə Azərbaycanın regionda və beynəlxalq arenada mövqelərinin möhkəmlənməsinə kömək edən ənənəvi dostluğun, çoxtərəfli əməkdaşlığın müsbət inkişafına çox şadam.

Əminəm ki, Vyetnamla Azərbaycan bu əsasda ölkələrimizin və xalqlarımızın tərəqqisi, rifahı, bütün dünyada sülh və inkişaf naminə gələcəkdə də müxtəlif sahələrdə əməkdaşlığı genişləndirəcəkdir.

Azərbaycan Respublikasına tərəqqi, xalqınıza isə xoşbəxtlik və əmin-amanlıq diləyirəm.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, səadət və ali fəaliyyətinizdə böyük uğurlar arzu edirəm.

**Hörmətlə,**

***Vo Van TXIONQ,***
***Vyetnam Sosialist Respublikasının Prezidenti***

# Ceyhun Bayramov və Hakan Fidan QDİƏT XİN Şurasının iclasına qoşulublar



**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanla birlikdə iyunun 13-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Xarici İşlər Nazirləri Şurasının videokonfrans formatında 46-cı iclasında iştirak edib.**

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, QDİƏT-in fəaliyyətdə olan sədri, Serbiya Respublikası Baş nazirinin birinci müavini və xarici işlər naziri İvica Daçiçin sədrliyi ilə keçirilən iclasda çıxış edən nazir Ceyhun Bayramov tədbir iştirakçılarına Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işləri, Azərbaycan tərəfindən regionda sülhün təmin edilməsi istiqamətində səyləri barədə ətraflı məlumat verib.

Nazir işğaldan azad edilmiş ərazilərdə yaşıl enerji zonasının yaradılmasının, ölkəmizin təşəbbüskarı və iştirakçısı olduğunu beynəlxalq nəqliyyat-kommunikasiya bağlantılarının, habelə Zəngəzur dəhlizinin yaradılmasının müsbət təsirlərini diqqətə çatdırıb. Avropaya qaz ixracı və bu istiqamətdə imzalanan sazişlərin əhəmiyyəti vurğulanıb.

Azərbaycanın QDİƏT-in Mədəniyyət, Turizm, İKT, İnstitusional İslahatlar və Yaxşı İdarəçilik, eləcə də Kiçik və Orta Müəssisələr üzrə İşçi Qruplarında əlaqələndirici-ölkə rolunu həyata keçirdiyi qeyd edilib.

Ölkəmizin, eyni zamanda, 2023-cü ilin iyulun 1-dən etibarən 2 il müddətinə QDİƏT-in Enerji üzrə İşçi Qrupunda ölkə-əlaqələndiriciliyi funksiyasını da öz üzərinə götürdüyü bildirilib.

İclasın sonunda yekun protokol və bir sıra vacib qərarlar qəbul olunub, sədrlik Serbiyadan Türkiyə Respublikasına təhvil verilib.

# Birinci xanımlar Bakıdakı DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə tanış olublar





**İyunun 13-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan Bakıdakı DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin fəaliyyəti ilə tanış olublar.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev qonaqlara Mərkəz haqqında məlumat verib.

Bildirilib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi həssas əhali qruplarından olan şəxslər, o cümlədən şəhid ailəsi üzvləri, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və onların övladları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, aztəminatlı ailələr və əlilliyi olan şəxslər sırasından istedadlı şəxslərin yaradıcılıq potensialının, digər bacarıqlarının ortaya çıxarılmasına və inkişafına kömək etmək, onlara sosial-psixoloji dəstək göstərməkdir. Təxminən ilyarım əvvəl yaradılan Mərkəzdə hazırda 14 istiqamət üzrə 180-dən çox benefisiarın təlim aldığı diqqətə çatdırılıb.

Qonaqlar Mərkəzdəki audio-səsyazma, floristika və landşaft dizaynı, metal və ağac üzərində oyma, xalçaçılıq, toxuma və tikmə, keramika, musiqi, təsviri sənət studiyalarında keçirilən təlimlərlə, o cümlədən kitabxana ilə tanış olublar.

Azərbaycan və Türkiyənin birinci xanımları Mərkəzin təlimçiləri və təlim alanlarının, inklüziv kamera orkestrinin ifasında musiqi nömrələrini dinləyib, benefisiarların əl işlərindən ibarət sərgi ilə tanış olub, onlarla şəkil çəkdiriblər.

Sonda qonaqlara hədiyyələr təqdim olunub.

***AZƏRTAC***

# Birinci vitse-prezident Mehriban Əliyeva Türkiyənin birinci xanımı Əminə Ərdoğan ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan ilə bağlı paylaşım edib.**

Əminə Ərdoğan ilə birgə fotosunu paylaşan Mehriban xanım Əliyeva qeyd edib: "Əziz bacım Əminə Ərdoğanı Bakıda görməyimə şadam! Azərbaycan və Türkiyə daim bir-birinin yanındadır. Bizim birliyimiz, bizim gücümüz məhz bundadır! Uca Tanrı xalqlarımızı qorusun!".

# XİN Ermənistana cavab verdi

**Ermənistan Xarici İşlər Nazirliyinin hərbi təxribatlara görə məsuliyyəti riyakarcasına Azərbaycanın üzərinə atması, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə zidd olaraq, suveren ərazimiz olan Qarabağ bölgəsinə beynəlxalq missiya göndərilməsini təşviq etməsi, daxili işlərimizə qarışması, bu ölkənin beynəlxalq öhdəliklərinə heç bir önəm vermədiyini bir daha nümayiş etdirir.**

Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Ermənistan XİN-in ölkəmizin əleyhinə bəyanatına dair şərhində əksini tapıb.

Bildirilib ki, həm işğal dövründə, həm də münaqişənin həllindən sonra sülhün bərqərar olunması istiqamətində danışıqlar prosesinə maneçilik törətmək məqsədilə Ermənistanın mütəmadi əsasda Azərbaycana qarşı hərbi-siyasi təxribatlar törətdiyi hər kəsə məlumdur. Məhz bu təxribatçı addımlar nəticəsində 30 ilə yaxın müddətdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğalına son qoyulması istiqamətində diplomatik səylər uğursuzluğa düçar olub.

"Hazırda Ermənistan tərəfinin postmünaqişə dövründə ərazilərimizdən erməni silahlı qüvvələrini tam olaraq çıxarmayaraq öhdəliyini icra etməməsi Azərbaycanın təhlükəsizliyi üçün əsas təhdid mənbəyidir. Bununla yanaşı, beynəlxalq səviyyədə təsdiq olunmuş bütün danılmaz faktlara baxmayaraq, işğal dövründə olduğu kimi, indi də Azərbaycan ərazisində mövcud olan qüvvələrin Ermənistana məxsusluğunun danılması, Ermənistanın faktları necə saxtalaşdırdığının göstəricisidir. Sərhədyanı bölgədə törədilən təxribatlarla yanaşı, ərazimizdə mövcud olan bu birləşmələr Azərbaycanın yenidənqurma işlərinə və məcburi köçkünlərin öz torpaqlarına təhlükəsiz geri qayıdışına maneədir və bütün erməni silahlı birləşmələr Azərbaycan ərazisindən dərhal çıxarılmalıdır.

Sülh yaradılması səylərinə maneçilik törədilməsi, saxta və yalançı bəyanatlar verilməsi əvəzinə, Ermənistandan Azərbaycanın Qarabağ bölgəsi daxil ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə əməldə riayət etməsi tələb olunur", – deyə Azərbaycan XİN-in şərhində vurğulanıb.

# “SSRİ rəhbərliyində Heydər Əliyev kimi xalq arasında sevilən ikinci dövlət xadimi yox idi”

## Bu gerçəyi ölkədən kənarda yaşayan azərbaycanlılar daha aydın görürdülər



**“Xalq qəzeti”nin “Heydər Əliyev xatirələr işığında” layihəsinin növbəti qonağı Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevdir. Bu müsahibədə Sovet İttifaqı məkanında ötən əsrin 60-70-ci illərinin gənclərinin Heydər Əliyev fenomeninə baxışı və epoxanın liderinin ictimai-siyasi fəaliyyətinin yetişməkdə olan yeni nəslə, xüsusilə dövlətçilikdə mühüm rol oynayan hüquqşünas kadrlara təsirindən söhbət açmışıq.**

***– Kamran müəllim, Heydər Əliyev şəxsiyyəti və fenomeni ilə ilk dəfə nə vaxt qarşılaşmısınız? Ümumiyyətlə, xalqımızın ümummilli lideri haqqında diqqətinizi ilk çəkən nə olub?***

– Əvvəla, qəzetinizin istər sovet dövrü Azərbaycanının, istər müstəqil Azərbaycanın həyatında müstəsna xidmətləri olan ümummilli lider Heydər Əliyev irsinin tədqiqinə xidmət edən belə bir layihə ilə çıxış etməsini, artıq xalqımızın çox qiymətli milli-mənəvi dəyərinə çevrilmiş ulu öndərin irsinə böyük töhfə kimi dəyərləndirirəm. Çünki bu elə bir dəyərli irsdir ki, o uzun illər müstəqil dövlətçiliyimizin keşiyində duracaq, onun inkişafına xidmət edəcək nəsillərin formalaşmasında çox böyük rol oynayacaq.

Qaldı Heydər Əliyev fenomeni ilə ilk tanışlığıma, bu tanışlıq özümü dərk edəndən bugünə qədər davam etməkdədir. Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin miqyası o qədər geniş və zəngindir ki, onu hələ uzun illər öyrənəcək və heyrət edəcəyik.

Hələ Gəncədə orta məktəbdə oxuduğum dönəmdə, ötən əsrin 70-ci illərinin sonu, 80-ci illərinin əvvəllərində daim valideynlərimin, yaxın çevrəmizi təşkil edən insanların respublika rəhbəri kimi Heydər Əliyevin cəmiyyətdə, gündəlik həyatda yaratdığı canlanma, inkişaf və tərəqqi naminə atılan addımları barədə söhbətləri, onun haqqında yaranan əfsanələr diqqətimi cəlb etməyə bilməzdi. Tək mən yox, dövrün bütün gənc nəsli Heydər Əliyevin xüsusilə ölkədə qanunçuluğun və ədalətin bərpası, milli irsimizin dirçəldilməsi və qorunması, ədəbiyyatımızın, incəsənətimizin inkişafı, tariximizin öyrənilməsi, ali təhsil məktəblərində ədalətli imtahan qəbulu kampaniyalarını daim diqqətdə saxlaması bir çox sahələrdə həyata keçirdiyi işlər haqqında dolaşan heyrətamiz söhbətlərdən qürur hissi keçirirdi.

Məhz ulu öndərin rəhbərliyi illərində respublikamızın qabaqcıllar sırasında hər il SSRİ-nin Keçici Qırmızı Bayrağına layiq görülməsi ilə bağlı təntənəli yığıncaqlarda, rayonlarda təşkil edilən məhsul bayramlarındakı iştirakı, bölgələrə səfərləri, respublikamiqyaslı tədbirlərdə doğma Azərbaycan dilində sərrast və məntiqli çıxışları, istər qarşısında çıxış etdiyi auditoriya, istərsə də bizim kimi televiziya izləyiciləri tərəfindən xüsusi maraqla dinlənilirdi. Onun bölgələrə, o cümlədən mənim böyüyüb boya-başa çatdığım Gəncəyə səfərləri, respublikamızın ikinci böyük şəhərinə olan diqqəti və qayğısı, xüsusilə tarixi və mənəvi abidələrimizin – Nizami Gəncəvinin məqbərəsinin, onlarla məscid və mədrəsənin bərpa olunması şəhər sakinləri tərəfindən böyük rəğbət və sevinclə qarşılanırdı. Dövlət rəhbərinin Gəncədə iştirak etdiyi tədbirlərdən birində tarixi şəxsiyyəti görmək mənə də nəsib olmuş, qeyri-adi zəkaya malik liderimizin cəsarətli və qətiyyətli çıxışı, tədbir iştirakçılarını heyran qoyan Azərbaycan dilində qeyri-adi natiqlik bacarığı diqqətimi ilk çəkən xüsusiyyətlərindən olmuş, həmin anlar yeniyetmə kimi məndə dərin və unudulmaz təəssüratlar yaratmışdı.

***– Siz ali hüquq təhsilinizi də, hüquqşünaslıq sahəsində aspirantura təhsilinizi də Rusiya Federasiyasında almısınız. Həmin illərdə Heydər Əliyevin SSRİ rəhbərlərindən biri kimi 1982-1987-ci illərdə bu ölkədə fəaliyyəti ilə bağlı yaşadığınız mühitdə hansısa bir söhbətin, xoş bir xatirənin şahidi olmuşdunuzmu? Onun haqqında eşitdiyiniz fikirlər sizdə hansı hisslər doğururdu?***

– Heydər Əliyevin Moskva dövrü fəaliyyətinin təkcə məndə yox, həmin illərdə Rusiyada yaşayan bütün azərbaycanlılarda yaratdığı hissləri Azərbaycanda olan insanlar yaşaya bilməzdi. Ulu öndərin SSRİ rəhbərliyinin yüksək postda təmsil olunması, xüsusilə Rusiyada yaşayan millətimizin nümayəndələrində çox fərqli bir assosiasiya yaradırdı. Təsəvvür edin, o nəhəng Sovet İttifaqında hara gedirdiksə, Azərbaycandan olduğumuzu biləndə dərhal “Heydər Əliyevin yerlisisiniz” deyə xüsusi bir hörmətlə diqqət göstərirdilər. Təbii ki, bu bizi qürurlandırmaya bilməzdi.

Həmin vaxtadək artıq İttifaq səviyyəsində böyük nüfuza və xüsusi siyasi çəkiyə malik Heydər Əliyevin 22 noyabr 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü seçilməsi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildikdən sonra Sovetlər Birliyinin 12 nazirlik və 20 komitəsinin onun bilavasitə nəzarətində olması, Nazirlər Sovetinin Operativ Məsələlər Komissiyasına rəhbərlik, əlbəttə onun şəxsiyyətinin miqyasını göstərən bir fakt idi. Əminliklə deyə bilərik ki, Heydər Əliyev hələ Azərbaycan KP MK-nın birinci katibi işlədiyi illərdə öz fəaliyyəti və nüfuzu ilə respublikanın çərçivəsindən çıxmışdı.

Konkret bir fakta diqqət çəkmək istərdim. Ümummilli liderin hələ respublika rəhbəri olduğu vaxtlarda “Literaturnaya qazeta”nın 18 noyabr 1981-ci il tarixli sayında onun “Qoy ədalət zəfər çalsın” adlı müsahibəsi dərc edildi. Bu müsahibə nəinki qəzetin oxucuları, həmçinin SSRİ-də həmin dövr üçün hüquqşünas alimlər və tələbələr tərəfindən də maraqla qarşılanmış, görkəmli siyasətçiyə xüsusi rəğbət qazandırmışdır. Çünki Heydər Əliyev bu müsahibəsində ədalət mühakiməsinin həmçinin hüquq-mühafizə orqanları işçilərinin vəzifələrinin nədən ibarət olduğunu elə dərindən və mükəmməl təhlil edir ki, adam heyran qalır. Müsahibədə deyirdi ki, hüquq-mühafizə orqanlarına geniş səlahiyyətlər verilib, amma onlar unutmamalıdırlar ki, insan taleyini həll edirlər. Ona görə də hüquqşünas kadrların hazırlığı universitet dövründən bu kriteriyalar əsasında aparılmalıdır.

Tale elə gətirmişdi ki, həmin illərdə mən Rusiyada universitetdə hüquq fakültəsində təhsil alırdım və bizim müəllim-professor heyəti bu müsahibəyə çox tez-tez müraciət edir, müzakirələr açırdılar. Sevinirdim ki, məhz azərbaycanlı olduğumu bilib tez-tez Heydər Əliyevlə bağlı mənə suallar verir, onun şəxsiyyəti, fəaliyyəti haqqında daha çox məlumat almaq istəyirdilər.

Ulu öndər artıq Moskvada çalışanda, əlbəttə, əslən azərbaycanlı müsəlman bir dövlət xadiminin nəhəng imperiyada belə yüksək mənsəbə yüksəlməsi onun həmvətənləri, xüsusən ölkə xaricində olanlar üçün son dərəcə qürurverici hadisə idi. Bundan sonra ittifaqın elə bir guşəsi yox idi ki, Heydər Əliyev şəxsiyyəti, onun fenomenal keyfiyyətləri ilə maraqlanmasınlar. Ulu öndərə iki aspektdən böyük maraq var idi. Birinci, SSRİ-nin dövlət rəhbərlərindən biri kimi, ikinci xarizmatik bir şəxsiyyət kimi. Çünki Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışmağa başlayandan az bir müddət sonra onun nüfuzu sürətlə artırdı. Siyasi Büroda, SSRİ rəhbərliyində onun kimi xalq arasında sevilən ikinci bir rəhbər şəxs yox idi. Bu gerçəyi biz daha aydın görürdük.

Bu böyük insanın, böyük dövlət rəhbərinin Vətəni Azərbaycana sevgisinə bələd olan bir tələbə kimi mən də həmin dövrdə artıq SSRİ xalqlarının sevimlisinə çevrilmiş Heydər Əliyevin siyasi karyerasını çox böyük maraq və sevgi ilə izləyir, bir azərbaycanlı kimi onun sovet cəmiyyətinin ən vacib sahələrində yorulmaz fəaliyyətini, əldə etdiyi nailiyyətləri böyük fəxrlə qarşılayırdım.

İrkutsk Dövlət Universitetində təhsil aldığım 1982-1987-ci illəri xatırlayarkən professor-müəllim heyətinin, digər tələbə yoldaşlarımın da zəngin dövlətçilik təcrübəsinə malik böyük siyasət ustasının gördüyü işlərin, keçirdiyi görüşlərin və Sovet İttifaqı adından nümayəndə heyətlərinin rəhbəri kimi xarici ölkələrə səfərlərinin böyük maraqla qarşılandığını, müzakirələrə səbəb olduğunu sevinclə müşahidə edirdim.

Şərqi Sibirdə təhsil aldığım dövrə təsadüf etdiyi üçün yaxşı xatirimdədir ki, Heydər Əliyev Sovet İttifaqı üçün həm iqtisadi, həm də hərbi-strateji əhəmiyyət daşıyan və miqyasına görə dünyada analoqu olmayan Baykal-Amur Magistralının (BAM) tikintisi üzrə yüksək səviyyəli komissiyaya rəhbərlik edirdi. 1984-cü ildə ulu öndər tikinti aparılan bölgələrə səfərlər edirdi. Maraqlıdır ki, bütün səfərlərində BAM-da çalışan azərbaycanlılarla ayrıca görüşür, onların sosial-məişət problemləri ilə yaxından maraqlanırdı. Onun bu görüşləri ətraf bölgələrdə yaşayan həmvətənlərimizdə böyük ruh yüksəkliyinə səbəb olurdu.

Bu yerdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu yaxınlarda Heydər Əliyevin 100 illiyi ilə bağlı Şuşada səsləndirdiyi bir fikri yada salmaq istəyirəm. Cənab Prezident qeyd etdi ki, ümummilli liderin adı, şəxsiyyəti SSRİ-nin müxtəlif regionlarında yaşayan bütün azərbaycanlılar üçün bir çətir idi. Bunu Vətəndən kənarda təhsil alan bir azərbaycanlı kimi mən də həmişə hiss etmişəm. Hətta Heydər Əliyev Qorbaçovun təzyiqlərindən sonra öz vəzifəsindən istefa verəndən sonra belə onun nüfuzu, onun şəxsiyyətinə olan ehtiram daim bizə himayədarlıq edib.



Mən 1987-90-cı illərdə Rusiyada prokurorluq orqanlarında müstəntiq vəzifəsində çalışmışam. 1990-93-cü illərdə də Moskvada aspirantura təhsili almışam. Bütün bu illər ərzində ulu öndərin adı, şəxsiyyəti və nüfuzu mənə dəstək olub və mən bundan daim qürur duymuşam.

***– Azərbaycan prokurorluq orqanlarında fəaliyyətə, yəqin ki, Heydər Əliyevin artıq müstəqil respublikaya rəhbərlik etdiyi illərdə başlamısınız. Ulu öndərin müstəqil Azərbaycanın hüquqi dövlət quruculuğu strategiyasında prokurorluq orqanları qarşısında qoyduğu vəzifələrin icrası gənc hüquqşünas Kamran Əliyev üçün nə qədər əhəmiyyətli görünürdü ki, Vətənə dönüb bu işlərdə iştirakını vacib saydı?***

– 1990-93-cü illər Azərbaycanın çox ağır, taleyinin həll olunduğu günlər idi. Həmin illərdə, demək olar ki, dövlət institutları anarxiyaya təslim olmuşdu, ölkə xaosa sürüklənirdi. Azərbaycan müstəqilliyini itirmək təhlükəsi qarşısında idi. Təbii ki, mən kənarda yaşasam da, Vətənimdə baş verən bütün prosesləri ürək ağrısı ilə izləyirdim. Açıq etiraf edim ki, “nədən Heydər Əliyevi hakimiyyətə dəvət etmirlər” fikri düşüncəmi məşğul edən ən aktual suala çevrilmişdi. Axı o insanın bütün ömrü bu ölkənin inkişafına, qurulmasına, rifahının yüksəlişinə xidmətdə və Azərbaycanı ən yaxşı şəkildə idarə etməkdə keçmişdi. Mənim kimi düşünən yüz minlərlə, milyonlarla azərbaycanlı var idi. Biz Moskvada bunu öz dostlarımız və diaspor nümayəndələri arasında çox müzakirə edirdik.

Məhz həmin gün, 15 iyun 1993-cü ildə sanki Allah ona üz tutan insanların səsini eşitdi. Nə yaxşı ki, Heydər Əliyev öz xalqının xahişini qəbul edib doğma Azərbaycanını xilas etməyə razılıq verdi. Bunu ona görə deyirəm ki, Heydər Əliyev hakimiyyətdən gedəndən sonra ona qarşı çox böyük ədalətsizliklər olmuşdu. Azərbaycanın o zamankı rəhbərliyi hətta ona məxsus olan mənzili belə əlindən almış və əşyalarını boşaltmışdı. Azərbaycanı qurub-yaradan insana qarşı bundan böyük ədalətsizlik ola bilərdimi? Amma Heydər Əliyev bu ədalətsizliyi unutdu və Azərbaycanı xilas etmək üçün hakimiyyətə qayıtdı.

Ona görə də Heydər Əliyev Bakıya gələndə xalq artıq gördü ki, Azərbaycana dövlət qayıtdı, Azərbaycana dövlətçilik, dövlət atributları qayıtdı və Azərbaycana lider, dövləti yetərincə idarə edəcək şəxsiyyət qayıtdı. Xalqın gələcəyə inamı, ümidi də özünə qayıtdı. Əlbəttə heç kim bilmirdi ki, dövləti və dövlətçiliyi necə, hansı yolla xilas etmək olacaq? Azərbaycanın müstəqilliyini hansı vasitələrlə qorumaq mümkün olacaq? Amma xalq bir şeyi bilirdi ki, bütün bu sualların cavabını Heydər Əliyev tapacaq. Zaman da bu etimadı, inamı təsdiqlədi.

Təbii ki, mən də bir azərbaycanlı gənc hüquqşünas kimi istəyirdim gəlib, qürur duyduğum insanın rəhbərliyi altında öz ölkəmin dövlətçiliyinin möhkəmlənməsində yaxından iştirak edim. Ona görə də 1993-cü ildə mən Rusiya Federasiyası Prokurorluğundan köçürülmə qaydasında Azərbaycan Respublikası Prokurorluğu orqanlarına işə qəbul olundum və xidməti fəaliyyətimi burada davam etdirməyə başladım. 1990-93-cü illərdə ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, müstəqilliyin itirilməsi təhlükəsi, vətəndaş qarşıdurması meyillərinin güclənməsi, xaos və anarxiyanın tüğyan etməsi fonunda prokurorluqda da rəhbərliyin tez-tez dəyişməsi qurumun fəaliyyətinə öz mənfi təsirini göstərməyə bilməzdi.

90-cı illərin ortalarından Baş Prokurorluğun Ağır Cinayətlərə Dair işlər üzrə istintaq idarəsində müstəntiq kimi fəaliyyət göstərdiyim zaman ölkədəki hərc-mərcliyin, itaətsizliyin, daxili çəkişmələrin alətinə çevrilmiş, ayrı-ayrı qrupların nəzarətində olan cinayətkar dəstələrin qanunsuz əməlləri ilə bağlı apardığım cinayət işlərinin istintaqı zamanı bir daha müdrik dövlət xadiminin prokurorluğa olan diqqət və qayğısının, aktual cinayət işlərinin istintaqı ilə yaxından maraqlanmasının və dəstəyinin şahidi oldum.

***– 2007-ci ildə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi vəzifəsinə təyin olunmusunuz. Elə bilirəm ki, bu təyinatdan sonra ola bilməzdi ki, siz Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərliyə başladığı gündən bir ay sonra avqust plenumunda qəbul etdiyi respublikada korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri haqqında qərarı ilə maraqlanmayasınız. Zaman fərqi olsa da, dövlətçilik üçün təhlükəli olan bu bəla ilə Heydər Əliyevin o vaxt qarşıya qoyduğu vəzifələr müstəqillik illərində qarşıda duran vəzifələrdən çox fərqlənirmi?***

– Bütün dövrlərdə və istənilən quruluşda korrupsiyanın mahiyyəti eynidir: dövlət institutlarının səmərəsiz fəaliyyəti, rüşvətxorluq, vətəndaşların hüquqlarının pozulması. Maraqlıdır ki, 60-cı illərin sonu, – 70-ci illərin əvvəllərində Sovet İttifaqı miqyasında korrupsiyaya qarşı mübarizə terminini gündəmə gətirən ilk dövlət adamı Heydər Əliyev olub. Ona qədər SSRİ-də kimsə bunu nəinki açıq bəyan etmirdi, heç dilə belə gətirmirdi. Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçiləndən cəmi iki ay sonra – 1969-cu il avqustun 5-də keçirilmiş plenumda Azərbaycanda və Sovet İttifaqında korrupsiya var və iqtisadiyyatda, idarəetmədə belə neqativ halların aradan qaldırılması yollarına dair proqramını bəyan etmişdir. Həmin dövrdən də Azərbaycanda korrupsiyaya qarşı mübarizə başlamışdı.

Respublikamızda korrupsiyaya qarşı mübarizə gücləndikcə, korrupsiya üçün meydan daraldıqca, bu cinayətlərin qarşısı sürətlə alındıqca Azərbaycanda iqtisadi inkişaf başladı. Respublikaya sosial-iqtisadi tərəqqi gəldi, insanlar daha ədalətli cəmiyyətdə yaşamağa başladılar, qanunçuluq möhkəmləndi.

Burada bir incə məqamı qeyd edim ki, ulu öndər dünyada hələ sonralar sosial bəla hesab ediləcək korrupsiyanın onilliklər öncə fəsadlarını görmüşdür. Baxın, Heydər Əliyev korrupsiya ilə mübarizəyə 1969-cu ildə başlayır, amma BMT yalnız 2003-cü il oktyabrın 31-də Korrupsiyaya qarşı Konvensiya (UNCAC) qəbul edir. Buradan görürük ki, XXI əsrdə korrupsiya bəşəriyyətin qarşısında duran ən ağır problemlərdən biridir. Korrupsiya XIX əsrin müstəmləkə siyasəti, XX əsrin “soyuq müharibə” problemi ilə bərabər tutulur. Aydın görünür ki, Heydər Əliyev nə qədər uzaqgörən bir dövlət xadimi, fenomen şəxsiyyət olub.

Əslində korrupsiyaya qarşı mübarizənin mahiyyəti eyni olsa da, müxtəlif cəmiyyətlərdə, müxtəlif formasiyalarda onun metod və vasitələri dəyişir. Amma sovet dövründən, Heydər Əliyevin proqram xarakterli o zamankı qərarından sonra Azərbaycanda korrupsiyaya qarşı mübarizə təcrübəsi formalaşmışdı və bu da müstəqillik dönəmində bizim hüquq-mühafizə orqanlarına korrupsiyaya qarşı mübarizə siyasətini kifayət qədər uğurlu aparmağa imkan yaratdı.

Qeyd etdiyiniz 1969-cu ilin avqust plenumunun sənədləri ilə tanış olan bir hüquqşünas kimi qətiyyətlə deyə bilərəm ki, Heydər Əliyevin çıxışında sovet təbliğat maşını tərəfindən formalaşdırılan yanlış təsəvvürün tamam əksi vurğulanmışdı və mövcud problemlər konkret şəkildə önə çəkilərək dövlət idarəçiliyi sistemində formalaşmış regionçuluq, bürokratiya və korrupsiya kimi neqativ tendensiyaların yolverilməzliyi diqqətə çatdırılmışdı.

1993-cü il iyunun 15-də Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra da sovetlər dönəmində başlatdığı korrupsiya və rüşvətxorluğa qarşı mübarizəni eyni əzm və qətiyyətlə davam etdirilməsini fəaliyyətinin prioritet istiqaməti kimi müəyyənləşdirmişdir. Ulu öndər bunu Azərbaycan Respublikası Prokurorluq orqanlarının 80 illiyinə həsr olunmuş təntənəli yığıncaqda söylədiyi nitqində belə qeyd edir: “Bu gün bizim qarşımızda duran vəzifələrdən biri ölkəmizdə korrupsiya ilə, rüşvətxorluqla mübarizəni gücləndirmək və korrupsiya, rüşvətxorluq hallarının aradan qaldırılmasına nail olmaqdan ibarətdir. Bu mübarizə yeni bir mübarizə deyildir. Bu, keçmiş dövrlərdə də aparılmışdır”.

***– Kamran müəllim, bu gün Heydər Əliyevin milli təhlükəsizlik orqanlarının milliləşdirilməsindən çox danışılır, amma araşdırmalar göstərir ki, respublikamıza rəhbərlik etdiyi 14 illik sovet dönəmində ulu öndər Azərbaycanın prokurorluq, ümumiyyətlə, hüquq-mühafizə orqanlarında işləyəcək milli kadrların hazırlanması və dövlətçilik üçün vacib olan bu orqanın milliləşdirilməsində də müstəsna rol oynayıb. Necə bilirsiniz, bu fikrimdə mən nə qədər haqlıyam?***

– Əlbəttə, ulu öndərin milli təhlükəsizlik orqanlarının milliləşdirilməsi faktı ona görə tez-tez xatırlanır ki, o məhz həmin qurumda fəaliyyətə başlamış, uzun müddət bu qurumda səmərəli fəaliyyət göstərmiş və bu quruma rəhbərlik etmişdir. Ona görə bu, haqlı olaraq xüsusi vurğulanır. Amma sizin o fikrinizlə də razıyam ki, Heydər Əliyev yalnız milli təhlükəsizlik orqanları üçün deyil, Azərbaycanın bütün dövlət qurumları, iqtisadi-texniki, ictimai-siyasi sahələri, eləcə də hüquq-mühafizə orqanları və onun tərkib hissəsi olan prokurorluq orqanları üçün milli mütəxəssislərin hazırlanmasında və peşəkarların yetişməsində müstəsna rol oynamışdır. Məsələn, onun hakimiyyətə gəldiyi dövrə qədər olan 1950-60-cı illərə və hakimiyyətdə olduğu 1969-80-ci illərə nəzər salanda aydın görürük ki, prokurorluq orqanlarında milliləşmə necə böyük sürətlə getmişdir.

Ümumiyyətlə, bu böyük siyasət ustadının spesifik idarəçilik metodunun üstün cəhətlərindən biri məhz kadr seçimində sosial ədalətsizliyin aradan qaldırılması - daha çox yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellektual səviyyəsi və yüksək biliyi ilə fərqlənən milli gənclərə üstünlük verilməsi olmuşdur. 1970-ci illərin əvvəllərindən etibarən Heydər Əliyevin peşəkar hüquqşünas kadrların hazırlanması işinin keyfiyyətini birbaşa nəzarətə götürməsi bunu bir daha təsdiqləyir. Məsələn, həmin illərdə azərbaycanlı gənclərin İttifaqın tanınmış və nüfuzlu ali məktəblərinin hüqüq fakültələrinə təhsil almağa göndərilməsi bunun bariz nümunəsidir.

Həmin illərdə xalqın alqışına layiq olan digər bir məsələ isə ulu öndərin təşəbbüsü ilə respublikadakı ali məktəblərin hüquq fakültəsinə qəbulla bağlı aparılan islahat nəticəsində sadə ailələrdən olan bilikli və istedadlı gənclərin hüquqşünas ixtisasına yiyələnməsinin önə çəkilməsidir. Məsələ bununla da bitməmiş və daha savadlı, hazırlıqlı hüquqşünas məzunlar hüquq-mühafizə sistemində, o cümlədən prokurorluq orqanlarında işə qəbul edilmiş və yüksək vəzifələrə irəli çəkilmişlər.

Sovet dönəmində milli prokurorluq orqanlarında işləməsəm də, Vətənə qayıtdıqdan sonra həmin dövrdə çalışmış həmkarlarımla söhbətlərdə böyük şəxsiyyətin tapşırığı ilə milli kadrların öncül təhsil müəssisələrinə göndərilməsindən, onların ixtisaslarının və peşəkarlıqlarının artırılmasından, Azərbaycanda hüquq elminin inkişafı naminə çoxsaylı elmi-praktik konfransların, o cümlədən beynəlxalq tədbirlərin keçirilməsinə böyük diqqət yetirdiyini çox eşitmişəm.

Sonralar ümummilli lider həmin hüquqşünasların müstəqil dövlətçiliyimizə ləyaqətlə xidmət etməsi faktına münasibətini bildirərək deyirdi: “1960, 1970, 1980-ci illərdə Azərbaycanda milli prokuror kadrları hazırlandı, yetişdi və bu gün Azərbaycan prokurorluğunun əsasını təşkil edən kadrlar yüksək peşəkarlığa, hüquqi təhsilə malik olan və öz vəzifələrini yerinə yetirə bilən kadrlardan ibarətdir. Bunlar hamısı bir gündə, bir ildə hazırlana bilməzdi. Azərbaycanda prokurorluq orqanları on illər ərzində təşkil olunmuş, formalaşmış, inkişaf etmiş və bugünkü yüksək peşəkar səviyyəyə çatmışdır”. Heydər Əliyev bu sözləri ilə əslində hələ o zamanlar hüquq sistemində prokurorluğun dövlətçilik üçün nə qədər böyük əhəmiyyətə malik olmasını və onun bu sahəyə xüsusi diqqət göstərdiyini nümayiş etdirir.

**(ardı növbəti sayımızda)**

***Söhbəti qələmə aldı:***
***İlqar RÜSTƏMOV, “Xalq qəzeti”***

# “Qayıdış”ı alqışlayan həmkarımız

**30 il əvvəl jurnalist Rəhman Orxan təsisçisi və baş redaktoru olduğu "Bakinets" qəzetinin iyun nömrəsinin ilk səhifəsini xalqımızın təkidi ilə Bakıya gələn ümummilli lider Heydər Əliyevə həsr etmişdi. O zaman baş verənləri Rəhman müəllim öz xatirələrində qələmə almışdır. Həmin qeydləri oxuculara təqdim edirik:**


БАКИНЕЦ
ОН ВЕРНУЛСЯ!!.
ИКИД ОДУР—
ҺӘР ӘЗАБА ГАТЛАНА,
ИКИД ОДУР—
АТДАН ДУШӘ, АТЛАНА!.

– Bir redaktor kimi məmnun idim ki, dahi rəhbərin neçə-neçə foto-müxbirdən soraqlaşıb tapdığım dağ əzəmətli, vüqarlı bir şəklini tapıb səhifəyə qoya bilmiş və demək istədiklərimi qısa da olsa, vermişdim.

“Azərbaycan” nəşriyyatının 3-cü mərtəbəsinə çatıb əlimdəki bağlama ilə iş otağıma tərəf gedərkən birdən kimsə arxadan məni səslədi: "Rəhman, səni Heydər Əliyev axtarır". Mənsə bunu qəzetimdə Heydər Əliyevə həsr olunmuş səhifəyə görə edilən bir xoş eyham, razılıq kimi qəbul edib əhəmiyyət vermək istəmədim. Nəhayət, "Vışka"nın o vaxtkı məsul katibi Tofiq Ağayev kabinetindən çıxaraq inandırıcı səslə dedi ki, Rəhman, tez "Bakı" qəzetinə, Ağa müəllimə zəng elə, səni axtarırlar.

İstər-istəməz narahat olmağa başladım: "Bəlkə, qəzetdə hansısa fikir, söz düzgün verilməyib, siyasi naşılıq olub?". Odur ki, cəld "Bakı"–"Baku" qəzetlərinin baş redaktoru Ağa Hüseynova zəng etdim. Ağa müəllim dedi ki, Milli Məclisdən zəng eləyiblər, Heydər Əliyev səni görmək istəyir. Tez qəzetdən nüsxələr də götürüb düş aşağı, mənim maşınımla təcili gedirik Milli Məclisə.

Parlament binasında "Nyu-York Tayms" və "Vaşinqton Post" qəzetlərinin Azərbaycan üzrə xüsusi müxbiri Tomas Qoltsla rastlaşdım və onu ölkəmizə rəğbəti olan bir jurnalist kimi tanıdığımdan qəzetin bir nüsxəsini ona bağışladım. (Səhəri gün Tomas hər iki Amerika qəzetində "Bakinets" qəzeti bolşevik lideri Heydər Əliyevin hakimiyyətə gəlişini sevinclə, alqışlarla qarşıladı" başlıqlı məqalə vermişdi).

O vaxtlar Milli Məclisin Mətbuat xidmətinin rəhbəri olan mərhum yazıçı-publisist Aqşin Babayev də bizi intizarla gözləyirmiş: "Rəhman, görüm, qəzetdə nə vermisən ki, Heydər müəllim səhərdən neçə dəfə səni soruşub?" – dedi, qəzeti alıb baxdı və gülə-gülə məlumat verməyə tələsdi...

Həmin gün Heydər Əliyevin iş qrafiki çox gərgin olduğuna görə görüş baş tutmadı. Mənə bir-iki günə gələrsən, – dedilər. Mənsə təvazökarlıqdan getmədim. Amma həmin gündən sonra ulu öndərin tapşırığı ilə "Bakinets" qəzetinin redaktoru kimi bütün mühüm respublika tədbirlərinə dəvət olundum.

Azərbaycanın görkəmli kino-rejissoru, ulu öndər haqqında ilk sənədli filmlərin müəllifi olmuş mərhum Davud İmanov bir müddət sonra mənə bildirmişdi ki, həmin gün parlamentin sədri Heydər Əliyevlə görüşübmüş. Onun dediyinə görə, Heydər Əliyev qəzetin ilk səhifəsində **“O qayıtdı!”** manşetinə verilən şəklin altında iri hərflərlə yazılmış **"İgid odur hər əzaba qatlana, igid odur atdan düşə, atlana!.."** atalar misalını oxuduqda xalqın onu bu cür sevib dəyərləndirməsindən, ona güvənməsindən təsirlənib kövrəlmişdi. Həmin an da köməkçisinə təcili olaraq "Bakinets"in redaktorunu yanına dəvət etməyi tapşırmışdı...

Qanlı-qadalı 1988–91-ci illərdə öz həmfikir dostlarımla birgə şəxsən Heydər Əliyevə, onun Azərbaycan rəhbəri təyin edilməsi üçün Kreml bosslarından olan Yeqor Liqaçova və digərlərinə göndərdiyimiz teleqramları (surətləri saxlanılır) Qurtuluş Günü ərəfəsində şəxsi arxivimdən çıxarıb bir daha baxdım. Teleqramlardan birində yazmışdıq: **"Azərbaycanımızın böyük və müdrik oğlu Heydər bəy! Xalqımızın bu ağır və dəhşətli günlərində yeganə ümidimiz yenə də Sizədir. Bu çətin dövrdə Vətənimizin və onun gözüyaşlı övladlarının dadına tələsin! Doğma Azərbaycanımızı, onun göz bəbəyi olan Qarabağımızı xilas edəcək yeganə bir adam varsa, o da Sizsiniz. Möhkəm inanırıq ki, respublikamıza rəhbərlik etsəniz, ermənilər çox qısa bir vaxtda rədd olub Qarabağdan gedəcəklər. Xalq Sizi gözləyir, Heydər bəy! Xalq Sizi istəyir, irəli durun!**

***Hörmətlə: Ucal Qasımzadə, Rəhman Məmmədov və başqaları. Sumqayıt şəhəri"***

Yaxşı ki, o, qayıtdı. Xalqımıza QURTULUŞ və NİCAT gətirdi. Fəxr edirəm ki, görkəmli akademik, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun elmi məsləhətçisi, SSRİ-nin Kosmik Uçuşlar üzrə Dövlət Komissiyasının sədri, general-leytenant Kərim Kərimov və SSRİ Dövlət Plan Komitəsinin sədri Nikolay Baybakovun redaksiya heyətinin fəxri üzvü olduqları "Bakinets" zamanında ulu öndərə sevgi və sayğılarını ifadə edib”.

**P.S:** Düşmənlərimizin ideoloji təbiğatına qarşı mübarizə məqsədilə 1992-ci ildə yaradılmış "Bakinets" qəzeti 18 min tirajla çıxır, yalnız Azərbaycanda deyil, Rusiya, Ukrayna, Belorusiya, Moldova, Baltikyanı ölkələr, Gürcüstan, hətta Bolqarıstan və İsraildə yayılırdı. Ermənilər "Новое время" jurnalında bu qəzetin əleyhinə böyük bir məqalə də dərc etdirmişdilər. Bir neçə il çıxan qəzetin yayımına "Azərbaycan Hava Yolları" təmənnasız köməklik göstərmişdi.

***Rəhman ORXAN,***
***Əməkdar jurnalist***

# Göyçayda “Milli dövlətçiliyimizin xilaskarı” mövzusunda tədbir



**Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatında 15 İyun – Milli Qurtuluş Günü münasibətilə “Milli dövlətçiliyimizin xilaskarı” mövzusunda tədbir keçirilib. Tədbirdə şəhid ailələrinin üzvləri, Vətən müharibəsi əlilləri və iştirakçıları da iştirak ediblər.**

YAP Göyçay rayon təşkilatının sədri Sahib Şükürov qeyd edib ki, 1993-cü ildə respublikada həyatın bütün sahələri iflic olmuşdu. Hərbi, iqtisadi böhran hökm sürürdü. Dövlət əmlakının mənimsənilməsi kütləvi xarakter daşıyırdı. Azərbaycan xalqı xilasını yalnız Heydər Əliyevin simasında görürdü. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə gələcək taleyini özü həll etmək niyyətində idi.

Sonra Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, Milli Məclisin deputatları Məzahir Əfəndiyev və Elman Nəsirli, iqtisad elmləri doktoru, professor İrşad Kərimli, Ulaşlı Şıxlı kənd tam orta məktəbinin direktoru Aynur Mahmudova çıxış edərək Qurtuluş Gününün Azərbaycanın tarixində dönüş nöqtəsi olduğunu qeyd ediblər.

Bildirilib ki, Prezident İlham Əliyevin ulu öndərin siyasi kursunu uğurla davam etdirməsi və zənginləşdirməsi sayəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib. Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər də ulu öndər Heydər Əliyevin siyasi kursunun uğurlu davamının məntiqi nəticəsi olduğu vurğulanıb.

Sonda ümummilli lider Heydər Əliyevə həsr olunmuş “Qurtuluş Günü Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsdir” adlı videoçarx nümayiş olunub.

***İlqar HƏSƏNOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

# Heydər Əliyev və müstəqil dövlətdə iqtisadi islahatlar



**Azərbaycanın müstəqilliyinin ilk illərində ölkədə hökm sürən xaos, siyasi böhran Ermənistanın qəsbkarlıq siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması və bunun nəticəsində 1 milyondan artıq soydaşımızın doğma yurd-yuvasından didərgin düşməsi respublikada sosial-iqtisadi böhranı daha da dərinləşdirmişdi. Belə bir şəraitdə iqtisadiyyat da idarəolunmaz vəziyyətə düşmüşdü. Yeni dövrün tələblərinə uyğun iqtisadiyyatın qurulmaması, müəssisələr arasında mövcud əlaqələrin pozulması, ölkənin siyasi-iqtisadi və informasiya blokadasına alınması nəticəsində ötən əsrin 90-cı illərinin əvvəllərində ümumi daxili məhsulun, sənaye istehsalının, xarici ticarət dövriyyəsinin həcmi azalmış, inflyasiya idarəolunmaz səviyyəyə çatmışdı. İstehsal sahələrinin sıradan çıxması ilə işsizlik səviyyəsi artmış, əhalinin sosial şəraiti ağırlaşmışdı.**

Azərbaycanın gələcək taleyinin müəyyənləşdiyi belə bir ağır zamanda bütün həyatını xalqına həsr edən Heydər Əliyev hakimiyyətə qayıdışı ilə böyük xilaskar missiyasını yerinə yetirdi. Bununla da xalqımızın itirilmiş inamı özünə qaytarıldı, respublikanın yeni inkişaf dövrünün əsası qoyuldu, vətəndaş müharibəsinin qarşısı alındı, atəşkəsə nail olundu.

Ümummilli liderimizin yenidən hakimiyyətə qayıtması ilə bütün sahələrdə olduğu kimi, iqtisadi həyatda da taleyüklü dəyişikliklərin əsası qoyuldu. Azərbaycan dövlətini hərc-mərclikdən xilas edən dahi şəxsiyyət respublikanın iqtisadi yüksəlişi üçün kompleks tədbirlər həyata keçirməyə başladı. Ulu öndərin rəhbərliyi ilə qısa müddətdə bazar iqtisadiyyatının formalaşması üçün qanunvericilik bazası yaradıldı, mühüm dövlət proqramları qəbul edildi, institusional islahatlar aparıldı, mülkiyyət münasibətlərində əsaslı dəyişikliklərə başlanılması üçün önəmli addımlar atıldı

O dövrdə ulu öndər tərəfindən müəyyənləşdirilən strategiyanın əsasını iqtisadiyyatın tərəqqisinə, mövcud resurslardan səmərəli istifadəyə, dünya iqtisadiyyatına inteqrasiyaya və nəticə etibarilə vətəndaşların rifah halının yüksəldilməsinə hesablanan sosialyönümlü bazar iqtisadiyyatının yaradılması təşkil edirdi. Ona görə də dahi rəhbər tərəfindən başlanan irimiqyaslı iqtisadi islahatlar nəticəsində ölkədə maliyyə vəziyyəti getdikcə sabitləşdi, iqtisadiyyata investisiyalar cəlb olundu, xalqın həyat səviyyəsi yaxşılaşdı.

Onu da qeyd edək ki, həmin vaxt respublikada islahatların reallaşdırılması üçün, ilk növbədə, qanunvericilik bazasının formalaşdırılmasına zəruri ehtiyac duyulurdu. Bu məqsədlə dahi şəxsiyyətin rəhbərliyi ilə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul olundu, 100-dən çox fərman və sərəncam imzalandı, 30-a yaxın dövlət proqramı təsdiq edildi. Ümumilikdə 1993-2003-cü illərdə 1715 qanun və qərardan 975-i ümummilli lider Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında parlamentə təqdim olundu.

Ulu öndərin iqtisadiyyatın hərtərəfli inkişafı məqsədilə neft amilindən məharətlə istifadə etməsi, 1994-cü ilin sentyabrında “Əsrin müqaviləsi”nin imzalanmasına nail olması dahi şəxsiyyətin yüksək siyasi iradəsinin və qətiyyətinin təntənəsinə çevrildi. Bu tarixi müqavilə ilə ölkəyə investisiya qoyuluşu təşviq edildi.

Azərbaycan həmin dövrdə neftin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə Bakı-Supsa ixrac neft kəmərləri istismara verildi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşasına dair sazişin imzalandı, ixrac marşrutlarının diversifikasiyasına nail olundu. Eyni zamanda, Azərbaycan qazının Qərb bazarına ixracının reallaşması məqsədilə Cənubi Qafqaz Boru Kəmərinin inşasına başlanıldı.

Heydər Əliyev 1999-cu ildə neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan vəsaitlərin səmərəli idarəsini gerçəkləşdirmək üçün Dövlət Neft Fondunun yaradılması ilə bağlı fərman imzaladı. Dövlət Neft Fondundan ilk vəsait isə qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldildi.

O zaman sosial-iqtisadi siyasətin ən önəmli istiqamətlərindən biri infrastrukturun inkişaf etdirilməsi oldu. TRASEKA, Şimal-Cənub nəqliyyat dəhlizinin, İNOGEYT proqramının həyata keçirilməsi də vurğulanan məqsədlə bağlı idi. Bütün bu layihələr isə respublikamızın Xəzər regionunda əsas multimodal nəqliyyat qovşağına və beynəlxalq əhəmiyyətli neft-qaz tranziti ölkəsinə çevrilməsi ilə nəticələndi.

Dahi şəxsiyyətin müstəqil Azərbaycana rəhbərliyi dövründə ən böyük xidmətlərindən biri də 1995-ci ildən başlayaraq iqtisadiyyatın bazar münasibətləri əsasında qurulması, aqrar islahatların həyata keçirilməsi idi. Elə buna görə də mükəmməl torpaq islahatı kənd təsərrüfatını 1990-cı illərin əvvəllərindəki böhranlı vəziyyətdən xilas etdi, 1350 min hektardan çox torpaq sahəsi əvəzsiz olaraq kəndlilərə paylanıldı, kolxoz və sovxozların yerində fermer təsərrüfatları yaradıldı.

Yeri gəlmişkən, Heydər Əliyev ölkənin gələcək iqtisadi inkişafının özəl sektorla, sahibkarlıqla bağlı olduğunu daim diqqətə çatdırır, bu istiqamətdə önəmli addımlar atırdı. Dahi şəxsiyyətin rəhbərliyi ilə uğurla həyata keçirilən özəl bölmənin inkişafı strategiyası sahibkarlığın tərəqqisinə yönələn tədbirlərin sistemliliyi, dövlət tənzimlənməsinin liberallaşdırılması, dövlət-sahibkar münasibətlərinin institusionallaşdırılması ilə nəzərə çarpırdı. Sözügedən yöndə imzalanan dövlət proqramlarının bu sahənin inkişafında xüsusi rolu oldu, kiçik və orta sahibkarlığın inkişafını iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirdi, sahibkarlara maliyyə dəstəyi və zəruri texniki yardım göstərən strukturların formalaşdırılmasına zəmin yaratdı. Sahibkarların vergi yükünün azaldılması məqsədilə mənfəət və əlavə dəyər vergisinin dərəcələrinin aşağı salınmasına, kiçik sahibkarlıq subyektlərinə sadələşdirilmiş vergi tətbiq edilməsinə müsbət təsir göstərdi.

Ümummilli liderin ölkənin gələcək inkişafı ilə bağlı qarşıya qoyduğu vəzifələrdən biri də regionların tarazlı və davamlı inkişafının təmin edilməsi oldu. Bu baxımdan, 1995-2003-cü illərdə bazar münasibətlərinin geniş vüsət alması, hərtərəfli iqtisadi islahatların aparılması, özəlləşdirmə proqramlarının həyata keçirilməsi, milli sahibkarlar sinfinin formalaşması ilə regionların hazırkı inkişafına əlverişli zəmin yaradıldı.

Heydər Əliyev strategiyasının həyata keçirilməsi sayəsində 1995-ci ildən Azərbaycanda inkişafın yeni mərhələsi – bərpa və dinamik inkişaf dövrü başlanıb. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 1,7 dəfə, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, sənaye məhsulunun həcmi 23,3 faiz, kənd təsərrüfatı istehsalı 53,8 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq əməkhaqqı 6,2 dəfə artıb. Bu dövrdə iqtisadiyyata bütün maliyyə mənbələri hesabına 20 milyard dollar həcmində investisiya qoyulub.

***V.BAYRAMOV,***
***“Xalq qəzeti”***

# Sumqayıtda “Əbədi ömrün yüz ili” kitabının təqdimatı



**Yeni Azərbaycan Partiyası (YAP) Sumqayıt şəhər təşkilatında “Heydər Əliyev İli” çərçivəsində Azərbaycan Yazıçılar Birliyinin (AYB) nəşr etdirdiyi “Əbədi ömrün yüz ili” kitabının təqdimatı keçirilib.**

YAP İdarə Heyətinin üzvü, partiyanın Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətlərindən, zəngin həyatı və çoxşaxəli fəaliyyətindən, eləcə də təqdim olunan kitabın əhəmiyyətindən danışıb.

AYB-nin sədri, Xalq yazıçısı Anar çıxış edərək ulu öndərin ədəbiyyatımızın inkişafındakı misilsiz xidmətlərindən danışaraq bildirib ki, Heydər Əliyev hər xalqa, bəlkə də əsrdə bir dəfə qismət olan qənimət, nadir şəxsiyyət idi. Müdrik dövlət xadiminin müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi mərhələ sabitlik, tərəqqi dövrü kimi tarixə həkk olunub. Azərbaycanda uğurlu dövlət quruculuğu həyata keçirilib, bütün sahələrdə köklü islahatlar aparılıb, ölkəmizin beynəlxalq əlaqələri inkişaf etdirilib, dünyada mövqeyi möhkəmlənib. Xalqımız həm də ona görə xoşbəxtdir ki, Heydər Əliyev ideyaları yaşayır, onun alternativsiz siyasəti layiqli varisi və uğurlu davamçısı Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə həyata keçirilir. Kitabda bütün bunlar öz əksini tapıb.

Əməkdar incəsənət xadimi Elçin Hüseynbəyli, Özbəkistan yazıçısı, Əməkdar jurnalist Məmmədqul Həzrətqulov, YAP İdarə Heyətinin üzvü Elnarə Akimova, Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov, “Şöhrət” ordenli Əməkdar müəllim Ofelya Babayeva, “Ədəbiyyat” qəzetinin baş redaktoru Azər Turan, Sumqayıt Poeziya Evinin rəhbəri İbrahim İlyaslı, ictimaiyyət nümayəndələri, tanınmış ziyalılar çıxışlarında ümummilli lider Heydər Əliyevin Azərbaycanın inkişafında, müstəqilliyimizin möhkəmləndirilməsində əvəzsiz xidmətlərini, ölkəmizdə ədəbiyyat sahəsinin inkişafına göstərilən dövlət qayğısını minnətdarlıqla yad ediblər.

***Ə.ƏLİYEV,***
***“Xalq qəzeti”***

# Haylar hay salır – erməni siyasi blindajı sülhün diplomatik cəbhəsinə qarşı

## Bayramov-Mirzoyan Vaşinqton təmasının təxirə düşməsi Ermənistanda spekulyativ düşüncələrə fürsət verib

*(əvvəli 1-ci səhifədə)*

Dövlətimizin başçısının bu fikrinə söykənərək deyə bilərik ki, hazırda Ermənistanda Azərbaycanın və bu ölkənin xarici işlər nazirləri – Ceyhun Bayramov və Ararat Mirzoyanın iyunun 12-də Vaşinqtonda kollektiv Qərb tənzimləməsi çərçivəsində keçirilməli olan görüşünün təxirə salınması müstəvisində güclü fantaziyalar işə düşüb. Hay cəmiyyəti məsələ ilə əlaqədar texniki səbəblər axtarışından tutmuş, ölkəmizin, guya, spekulyasiyaya əl atdığına dair mülahizələrə baş vurmaqdadır.

Qeyd edək ki, Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında iyunun 12-nə planlaşdırılmış görüş mayın əvvəlində Vaşinqtonda keçirilmiş danışıqlar marafonunun davamı kimi gündəmə gəlib. Bir qədər konkretləşdirsək, onu da söyləyə bilərik ki, sözügedən təmas iyunun 1-də Kişineuda Azərbaycan və Ermənistan liderləri arasında Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi, Almaniya Kansleri Olaf Şoltsun və Fransa Prezidenti Emmanuel Makronun iştirakı ilə gerçəkləşmiş beştərəfli format gedişində razılaşdırılmışdı.

Əlbəttə, erməni siyasilər Azərbaycanın sülhdən yayınması ilə bağlı uydurmalarına izahlar verməkdə, konsprioloji motivlər sadalamaqda çətinlik çəkmirlər. Yəni, fantaziya qurmaq baxımından Paşinyandan heç nə ilə fərqlənmədiklərini sübuta yetirirlər. Nə qədər olmasa, ixtisaslaşıblar. Bir-bir Ermənistanın indiyədək nizamlama prosesi çərçivəsində yol verdiyi yaramazlıqları gündəmə gətirirlər. Yəni, əsas məqsəddən yayınmaq üçün vaxtilə özləri nələri reallaşdırıblarsa, həmin hərəkətləri Azərbaycanın üzərinə tranformasiya edib siyasi mənzərəyə pozucu rənglər qatırlar.

Bəli, Ermənistanda hesab edirlər ki, Azərbaycan Vaşinqton danışıqlarını təxirə salıb, sonradan İrəvana qarşı yeni iddialar irəli sürəcək. Səsləndirilən müxtəlif versiyalardan biri də budur ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıya səfərə gəlib və səfər yalnız ölkəmizin Xarici İşlər Nazirliyi rəsmilərinin cədvəlində dəyişiklik yaratmayıb, eyni zamanda, Ankaranın yeni direktivləri var. Erməni siyasilərin bildirdiklərinə görə, bu direktivlər, guya, Bakı, İrəvan və vasitəçilər arasında imzalanması nəzərdə tutulan sülh müqaviləsinin mətninə dair ciddi fikir ayrılıqları yaradır.

Onu da ayrıca bildirməliyik ki, son günlər Ermənistan cəmiyyətində Azərbaycanla sülh müqaviləsi fonundakı destruktiv meyillər daha intensiv fazaya daxil olub. Hiss edilir ki, ölkənin baş naziri Nikol Paşinyanın Azərbaycanın Qarabağ da daxil 86,6 min kvadratkilometr ərazidə suveren hüquqlarını tanıması tam yeni mənfi təmayüllərə yol açıb. Mövcud xüsusda Qarabağda Bakının yurisdiksiyasının Ermənistanın konstitusyon quruluşuna zidd olduğu qabardılır. Əsas məqamlardan biri də bununla bağlı referendum keçirilməsi təşəbbüsünün gündəmə gəlməsidir.

Bir sözlə, hay cəmiyyətindəki müxtəlif elementlər Paşinyanın söylədikləri ilə barışmırlar və görünür, onların hərəkət və davranışları get-gedə sülh danışıqlarını təhdid edən motiv qazanmaqdadır. Belə təəssürat da yaranır ki, Ermənistanda Azərbaycanla yeni müharibənin baş verməsini ssenariləşdirən qruplar iş başındadırlar. İndi xarici işlər nazirlərinin Vaşinqton görüşünün təxirə düşməsi isə onlara fürsət verib ki, anti-sülh tezislərini daha inandırıcı formada ortaya qoysunlar.

Bir qədər əvvəl təxribat xarakteri daşıyan həmin tezislərin bir-ikisini ümumi şəkildə diqqətə çatdırdıq. Burada xüsusi vurğulanmalı məqam Türkiyə Prezidentinin Azərbaycana səfəridir. Hay başbilənlər iddia edirlər ki, Ərdoğan səfər gedişində ölkəsinin Cənubi Qafqazla bağlı yeni siyasət konturlarını açıqlayacaq. Onların fikrincə, Azərbaycan danışıqlar prosesində həmin konturlara nəzərən yeni mövqe ortaya qoyacaq. Bu mövqe İrəvan üçün daha ağır perspektiv vəd edəcək. Belə deyimlərin ortaya atılmasında məqsəd isə erməni cəmiyyətində sülh danışıqları müstəvisində yeni etiraz amplitudası qondarmaqdır.

Digər tərəfdən, onu da vurğulayaq ki, Ermənistan siyasətçilərinin müəyyən qismi XİN rəhbərlərinin görüşünün təxirə salınmasını danışıqlar prosesinin donması kimi qələmə verməkdədir. Onlar özlərini günahı Azərbaycanda görməyə kökləyərkən Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun aşağıdakı açıqlamasına da istinad edirlər. Təxminən belə: hər şey Peskovun bildirdiyi kimi olur, Moskva Bakının niyyətlərinə bələddir və sair. Peskov isə əslində gözləmədiyimiz



elə bir şey deməmişdi. O vurğulamışdı ki, "mövcud şərait yaxın gələcəkdə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin bağlanmasının mümkünlüyünə ümid etməyə imkan verir, lakin əsas məsələ vaxt deyil, bütün məsələlərin yekun həllidir".

Göründüyü kimi, Rusiya mövqeyində yenilik etmir. Ölkə öz ampluasına uyğun olaraq, sülhün uzanmasının tərəfdarıdır. Erməni siyasilər isə mövcud məqama söykənərək özlərinin danışıqların donması ilə bağlı yaratdıqları təsəvvürdə yeni hərbi eskalasiya müjdəsi axtarırlar. Yəni, əvvəl özləri bir şey ortaya atırlar, sonra ona inanmağa başlayırlar. Ortada bu qədər axmaq durum var.

Erməni siyasilər bu qənaətə də gəlirlər ki, Qərbin danışıqlar platformasının əhəmiyyəti azalıb, ABŞ-dakı növbəti təmas tarixinin tezliklə elan ediləcəyini söyləmək çətindir. Yeri gəlmişkən, Ermənistan Xarici İşlər Nazirliyinin sözçüsü Ani Badalyan mövzu haqqında cəmi bircə kəlmə işlədib: "Bu barədə ictimaiyyət lazımi qaydada məlumatlandırılacaq". İlk baxışdan, onun sözündə fövqəladə nə isə istisnadır. Ancaq erməni siyasilər bunu danışıqlardakı gərginlik motivi qismində cəmiyyətə sırımaqda israrlıdırlar.

"Düşünürəm ki, bu, çox güman ki, Türkiyənin yenidən seçilmiş prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri ilə bağlıdır. Ola bilsin ki, bu (Vaşinqton danışıqlarının təxirə düşməsi – red.), Azərbaycan rəsmilərinin cədvəli ilə üst-üstə düşmənin nəticəsidir. Bu, aradan qaldırıldıqdan sonra onlar (Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri - red) çox güman ki, Vaşinqtonla məsləhətləşmələrin yeni tarixini açıqlayacaqlar". Əvvəldə də dediyimiz kimi, Ermənistanda XİN rəhbərlərinin Vaşinqton görüşünün təxirə düşməsini texniki məsələlərlə əlaqələndirənlər var. Belələrindən biri politoloq Tiqran Qriqoryandır ki, yuxarıdakı iqtibas ona məxsusdur.

Ancaq Ermənistanın siyasi cameəsində heç də hər kəs T.Qriqoryan kimi düşünmür. Məsələn, ölkədəki Qafqaz İnstitutunun direktoru, politoloq Aleksandr İskəndəryan bildirir ki, Bakı, İrəvan və vasitəçilər arasında sazişin mətni ilə bağlı ciddi fikir ayrılığı var və planlaşdırılmış təmas buna görə təxirə düşdü. Yəni İskəndaryana elə gəlmir ki, hazırkı situasiyada texniki məsələ əsasdır: "Azərbaycan danışıqlar aparmır, öz şərtlərini irəli sürür. Bunlar adətən sərhəd, anklavlar və Qarabağın gələcəyi ilə bağlı maksimalist tələblərdir. Çərçivə sazişinin imzalanmasından danışsaq belə, onlarla razılaşmaq kifayət qədər çətindir".

İskəndaryandan fərqli olaraq, T.Qriqoryanın fikrincə, ABŞ sülh müqaviləsinin razılaşdırılması üçün danışıqlara başlayıb və çətin ki, bu qədər tez geri çəkilsin: "Sülh müqaviləsinin mətni, əslində, Brüssel platformasını kənara itələyən ABŞ-ın himayəsi altında müzakirə olunur. Brüsseldə yalnız sərhədlərin demarkasiyası, logistika məsələləri və s. ilə bağlı təfərrüatlara baxılır", - deyə Qriqoryan fikrinə aydınlıq gətirib.

Onu da vurğulayaq ki, politoloq Qriqoryanın düşüncələri Bayden administrasiyası üçün İrəvanla Bakı arasında sülh müqaviləsinin imzalanmasının daxili siyasi səbəblərə görə vacibliyi məntiqinə uyğundur. Məlum olduğu kimi, ABŞ-da prezident seçkiləri gözlənilir. Erməni siyasilərin müəyyən qismi belə qənaətdədir ki, uzun müddətdir davam edən münaqişənin həlli və Ermənistanla Azərbaycan arasında sülhün bərqərar olması, Bayden üçün seçki kampaniyası zamanı yaxşı bonusdur. Bu, həm də anti-Rusiya sousu altında təqdimatı aparılacaq siyasi dividenddir. Elə bir dividend ki, Moskvanın regiondakı mövqelərini zəiflədəcək. Yeri gəlmişkən, hazırda ABŞ-ın daxili siyasi diskursunda anti-Rusiya mövzusu trend təşkil etməkdədir.

Sonda yenidən XİN rəhbərlərinin Vaşinqton raundunun Türkiyə Prezidentinin səfəri ilə bağlı təxirə salınmasına dair erməni cəmiyyətindəki fikirlərin üzərinə gələk. Bu baxımdan Ermənistanın sabiq baş naziri və parlament sədri Xosrov Arutyunyanın düşüncələri nisbətən sağlam təsir bağışlamaqdadır. Ancaq, ümumən, fərziyələrdən uzaq yanaşması ilə diqqət çəkən sabiq dövlət rəsmisi də XİN rəhbərlərinin Vaşinqton təması müstəvisində Ərdoğan amilinə fokuslanmağı unutmur və deyir ki, Prezident İlham Əliyevin Türkiyə lideri ilə məsləhətləşmələrindən sonra Vaşinqton görüşü reallaşacaq.

Arutyunyan digər erməni siyasilərdən fərqli olaraq Bakının ABŞ-ın təşəbbüsünü rədd etdiyi və danışıqlardan çəkildiyi düşüncəsini bölüşmür. "Azərbaycan görüşdən imtina etməyib, onu təxirə salmağı xahiş edib. Bunlar ayrı-ayrı şeylərdir", - deyən sabiq spikerin sözlərinə görə, Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanıması və anklavları geri qaytarmağa hazır olması İrəvanın iradəsinin xaricindəki məsələdir: "Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünün tanınması məsələsini Nikol Paşinyanın açıqlamalarının ardıcıllığını izləməklə anlamaq mümkündür. Bu ardıcıllığı izləyəndə görürük ki, Qarabağın Azərbaycanın tərkib hissəsi kimi görmək üçün bütün hüquqi əsaslar var, əksi mümkün deyil. Məncə, Paşinyan bunu istəmir, ancaq beynəlxalq hüquq sübut edir ki, Qarabağ Azərbaycanın bir hissəsidir".

***Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"***

# Uğursuzluqdan diplomatik başgicəllənmə

## *Hayların sabiq xarici işlər naziri irqçi fikirləri ilə gündəm oldu*

**ABŞ-ın həftəlik "Newsweek" jurnalında Ermənistanın sabiq xarici işlər naziri Zöhrab Mnatsakanyanın məqaləsi dərc olunub. "Qafqazda sülh danışıqları niyə belə çətindir?" sərlövhəli məqalədə sabiq nazir Ermənistan–Azərbaycan sülh gündəliyi ilə bağlı məsələlərə nəzər salıb, mövcud vəziyyətə dair mülahizələrini bildirib, eyni zamanda, hay xislətinə uyğun olaraq ölkəmizə qarşı əsassız fikirlər səsləndirib.**

Qeyd edək ki, Z.Mnatsakanyan 2018-ci ilin mayın 12-dən 2020-ci ilin noyabrın 16-dək Ermənistanın xarici işlər naziri olub. O, Nikol Paşinyanın "məxməri inqilab" nəticəsində hakimiyyəti uzurpasiya etməsindən sonra verdiyi ilk sərəncamlardan biri əsasında vəzifəyə gəlmişdi. Bu təyinat eks nazirin yüksək təhsilə malik olması (Mnatsakanyan keçmiş SSRİ-də diplomat kadrlar hazırlanması üzrə ixtisaslaşmış Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun beynəlxalq iqtisadi əlaqələr fakültəsinin məzunudur, sonra isə Britaniyadakı Mançester Universitetində Qərbi Avropa siyasəti üzrə magistr dərəcəsi alıb), habelə "zəngin diplomatik karyera qazanması və dövlət qulluğundakı uğurları" ilə əsaslandırılmışdı.

### Paşinyan onu nazir təyin etmişdi, o isə...

Mnatsakanyanın sonuncu iş yeri Ermənistanın BMT yanında Daimi Nümayəndəliyi olub, 2014-2018-ci illərdə nümayəndəliyin başçısı vəzifəsində çalışıb. Atəşkəs sazişinin imzalanmasından 44 günlük Vətən müharibəsinədək Ermənistanla Azərbaycan arasında əsas diplomatik savaş BMT meydançasında (Baş Assambleyada və Təhlükəsizlik Şurasında) getdiyindən, Paşinyan xarici işlər naziri təyin edərkən, Nyu-Yorkda iş təcrübəsinə malik şəxsin namizədliyi üzərində dayanmışdı. Bu, Mnatsakanyanın nazir təyin olunmasında əsas məqamlardan biri idi. Hesab edilirdi ki, sabiq XİN rəhbərinin biliyi və topladığı təcrübə yeni hökumətin diplomatik sahədə Azərbaycan üzərində üstünlüyünü, həmçinin ölkənin ikitərəfli və çoxtərəfli formatda mövqelərinin möhkəmlənməsini təmin edəcək. Hərçənd onun Ermənistanın BMT-dəki Daimi Nümayəndəliyinin rəhbəri olduğu dövr İrəvan üçün bu qurum müstəvisində hər hansı uğurla yadda qalmamışdı.

Mnatsakanyanın bacarıqsızlığı Vətən müharibəsi zamanı özünü aşkar şəkildə nümayiş etdirdi. Onun beynəlxalq təşkilatlarda Azərbaycanla bağlı bütün təşəbbüsləri uğursuzluqla nəticələndi. 2020-ci ilin 29 sentyabr və 19 oktyabr tarixlərində BMT Təhlükəsizlik Şurasında Ermənistan–Azərbaycan münaqişəsinə dair müzakirələr keçirildi. Ancaq oktyabrın 19-da baş tutmuş müzakirələrdən sonra TŞ-nın sədri adından bəyanat layihəsində şuranın 4 məlum qətnaməsinə istinad öz əksini tapmadı. BMT TŞ-nın qeyri-daimi üzvləri və Qoşulmama Hərəkatının üzvü olan İndoneziya, Niger, Tunis, Vyetnam, Cənubi Afrika, Sent Vinsent və Qrenadin və Dominikan Respublikası iki dəfə sükut prosedurunu pozaraq qurumun qətnamələrinə istinadın bəyanata daxil edilməsinə israr etdiər. Qoşulmama Hərəkatına üzv dövlətlərin israrlı və prinsipial mövqeyindən sonra sözügedən bəyanat layihəsi rəsmən geri götürüldü. Beləliklə, Mnatsakanyanın sonuncu ümidi də boşa çıxdı.

### Zöhrabın uğursuz olduğunu Vardan da etiraf edir

Yeri gəlmişkən, Mnatsakanyanın uğursuz kadr olmasını bu yaxınlarda sələfi Vardan Oskanyan da etiraf edib. O, iyunun ilk günlərində "Mediamaks" saytında dərc etdirdiyi "Paşinyan Ankarada erməni xalqını yox, özünü təmsil edirdi" məqaləsində yazır: "Paşinyan bu səfəri ilə diplomatiyadan uzaq olduğunu bir daha göstərdi. Mən tez-tez deyirəm və yenə təkrar etməkdən çəkinməyəcəyəm ki, əgər onun hökumətinin minimal diplomatik bacarığı olsaydı, biz ilk növbədə, müharibədən qaçardıq və bu gün Qarabağın bütün ərazisinə onu Ermənistanla bağlayan 20 kilometrlik Laçın dəhlizi ilə birgə malik olardıq".

Nəhayət, 44 günlük müharibədə Azərbaycanın tarixi Zəfər qazanmasından cəmi 6 gün sonra – noyabrın 16-da N.Paşinyan xarici işlər nazirini istefaya göndərmək qərarını elan etdi. İndi həmin bu uğursuz nazir Qafqazda sülh danışıqlarının çətin olması barədə Amerika oxucularına dərs keçməyə çalışır.

O yazır ki, Ermənistanın baş naziri bu yaxınlarda Azərbaycanla gərgin sülh danışıqlarında tarixi güzəştə gedib: "Nikol Paşinyan Qarabağın öz müqəddəratını təyinetmə hüququnun legitimliyinə dair istənilən iddiadan imtina etməklə Qərbin gözündə sülh adamı kimi görünə bilər, lakin hekayə daha mürəkkəbdir və bitməkdən uzaqdır. Əgər Qərb postsovet məkanında daha böyük qeyri-sabitlikdən qaçmaq istəyirsə, Cənubi Qafqazda hər hansı yaşayış məntəqəsinin Qarabağdakı 120 min etnik ermənin ehtiyaclarını bilavasitə qarşılamasını təmin etməlidir. Əks halda, Ermənistanın nə etməsindən asılı olmayaraq, zorakılıqla üzləşə bilərik".

### Mnatsakanyanın Rusiyaya qarşı demarşı

Z.Mnatsakanyan qeyd edib ki, vəziyyət müşahidəçiləri, hətta ermənilərin Qərbdəki xoş niyyətli dostlarını belə çaşdıra bilər: "Onlar gərginliyin ortadan qaldırılmasını arzulayaraq və münaqişənin aradan qalxacağına ümid bəsləyərək regionumuzun problemlərinin altında yatan iki əsas həqiqəti görməzdən gəlirlər. Birinci həqiqət SSRİ-nin dağılmasından sonra suveren dövlətlər arasında beynəlxalq sərhədlərə çevrilən daxili sərhədlərin çox vaxt qeyri-təbii olmasıdır. Bunlar mövcud etnik xəritəni bəzən qəsdən təhrif edən, fitnə-fəsad törədən Moskva liderlərinin diktəsinin nəticəsi idi".

Sabiq nazir bu məqamda açıq-aşkar anti-Rusiya mövqeyini ortaya qoyur. O, eyni zamanda, Rusiya sülhməramlılarının öz funksiyalarını yerinə yetirə bilmədiyini iddia edərək onları bacarıqsız adlandırır. Ümumiyyətlə, hazırda Paşinyan hökumətinin mütləq əksəriyyəti Rusiyanın əleyhdarıdır. Onların başında isə hazırkı xarici işlər naziri Ararat Mirzoyan, Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və parlamentin sədri Alen Simonyan gəlir. Sadəcə olaraq, daşıdıqları vəzifələr onların öz mövqelərini aşkar ortaya qoymalarına imkan vermir. Mnatsakanyan isə təqaüddə olduğu üçün öz fikirlərini açıq ifadə edə bilir. Görünür, Paşinyan hökumətinin digər üzvlərinin də öz düşüncələrini publik şəkildə göstərmələri üçün zamana ehtiyac var. Daha doğrusu, istefaya getmələrinə.

Z.Mnatsakanyan daha sonra etnik və genetik baxımdan uyğunsuz olmaları səbəbindən ermənilərlə azərbaycanlıların bir yerdə yaşamalarının mümkünsüzlüyü olmadığı barədə sabiq prezident Robert Koçaryanın irqçi fikirlərinə bənzər fikir səsləndirib: "Bölgəmizdə bir çox insanın anlamadığı ikinci həqiqətə buradan gəlirik. Ermənilər sadəcə olaraq, Azərbaycanda bərabərhüquqlu vətəndaş kimi yaşayacaqlarını qəbul edə bilməzlər. Bu, istisna və ola bilsin ki, unikal haldır".

Məqalənin sonunda Mnatsakanyan hayların üzdə gələnlərinin səsləndirdiyi fikirləri təkrar edir. Bildirir ki, Qarabağ erməniləri dekabr ayından bəri humanitar böhranla müşayiət olunan tam mühasirədə (?) yaşayırlar. Beynəlxalq birlik Bakının etnik təmizləməsinə qarşı çıxmalıdır və sair bu sayaq sarsaq fikirlər də eks-nazirin axmaq ritorikasında yer alıb.

Ancaq sabiq nazirin bu fikirləri də həqiqətdən tam uzaqdır. Qarabağ iqtisadi rayonu ilə Ermənistan arasında hər iki istiqamətdə sərbəst hərəkət mövcuddur. Ermənilər özləri də qeyd edirlər ki, sərhəd-keçid məntəqəsində bütün sərnişinlər yoxlanılır və indiyədək elə bir insident qeydə alınmayıb. Qarabağa dönən ermənilər də onlarla çox nəzakətlə davranıldığını deyirlər. Odur ki, Ermənistanın sabiq xarici işlər naziri Qarabağ ermənilərinin reinteqrasiyası kimi sırf Azərbaycanın daxili məsələlərinə qarışmasa və onların adından danışmasa, daha yaxşı olar.

***Səxavət HƏMİD, "Xalq qəzeti"***

**Ekspert rəyi**

**Tofiq ABBASOV, siyasi analitik**



– Erməni siyasətçilərinin Azərbaycanı ittiham etmələri artıq adət halını alıb. Onlar tutuquşu kimi eyni sözləri təkrarlayır və özlərinin törətdikləri cinayətləri ökəmizin ayağına yazmağa çalışırlar. Zöhrab Mnatsakanyan bu lazımsız işlə məşğul olan birinci və sonuncu siyasətçi deyil. Onun diplomatiya sahəsində müəyyən çəkisi var, amma müdriklik, praqmatizm daşıyıcı olsaydı, Azərbaycanı kortəbii şəkildə ittiham etməzdi. Əksinə, ermənilərin 30 il ərzində Azərbaycan ərazilərində həyata keçirdikləri biabırçılıqları göz önünə gətirib utanardı.

Onun Azərbaycanın, guya, Qarabağda etnik təmizləmə aparacağına dair açıqlaması heç kimə inandırıcı gəlmir. Çünki bu işi görənlər ermənilərin özləri olublar. Bilirsiniz ki, onlar Xocalıda soyqırımı törədiblər, Qarabağda və Ermənistanda azərbaycanlılara qarşı etnik təmizləmə aparıblar. Bu işləri planlı, sistemli, məqsədyönlü şəkildə görürdülər. Qeyri-insani hərəkətlərinin hamısı beynəlxalq hüquqda cinayət kimi öz qiymətini alıb. Azərbaycan heç vaxt belə yol tutmayıb. Fitnə-fəsad törədən, ümumiyyətlə, bölgədə vəziyyəti gərginləşdirən ermənilər və Ermənistan olub. Onlar xarici qüvvələrlə əl-ələ verərək Azərbaycan xalqına qarşı sistemli cinayətlər törədiblər. Az-çox insani keyfiyyətləri olan, mənəviyyatını itirməmiş ermənilərin özləri də bu işi görənlərin yanından baş götürüb qaçıblar. Mnatsakanyan gərək, ümumiyyətlə sussun, danışmasın.

Onun Azərbaycanı ittiham etməsi çox gülüncdür. Görün, onların diplomatiyası necə bərbad vəziyyətdədir. Diplomatlarını da normal tərzdə hazırlaya, onları humanist, insansevər ruhda yetişdirə bilmirlər. Mnatsakanyan da özünü islah edə bilmir. Belə adamlarla bir məkanı bölüşmək, əlbəttə, çox çətindir.

# İrəvan, guya, Zəngəzur dəhlizinə nəzarətçi arayır

## Hayastan parlamentinin sədri üçüncü tərəf deyəndə kimi nəzərdə tutur: Fransanı, yoxsa İranı?



*(əvvəli 1-ci səhifədə)*

A.Simonyanın mediaya açıqlamasının Moskvada hökumətlərarası üçtərəfli (Rusiya-Azərbaycan-Ermənistan) İşçi Qrupunun iclasından sonra səslənməsi təsadüf sayıla bilməz. Məsələ ondadır ki, Rusiya, Azərbaycan və Ermənistan baş nazirlərinin müavinlərinin 9 saat davam etmiş sonuncu toplantısında iki ölkə arasında nəqliyyat kommunikasiyalarının bərpasına dair mətnin "yüksək hazırlıq mərhələsində" olduğu bəyan edildi. Rusiyanın Baş nazirinin müavini Aleksey Overçuk görüşdən sonra verdiyi açıqlamada Zəngəzur dəhlizinə nəzarətin və təhlükəsizliyin təminatının Rusiya sərhədçiləri və FTX tərəfindən həyata keçirilə biləcəyini söylədi, amma son qərarın İrəvandan asılı olduğunu deməyi də unutmadı.

### Şərtlərin eyniləşdirilməsi

Açılacaq kommunikasiyalara nəzarətlə bağlı məsələ öz əksini 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda konkret olaraq tapıb. Həmin Bəyanatın 9-cu bəndində deyilir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir".

Hazırda kommunikasiyaların açılmasında problemin olmadığını, danışıqlar prosesinin davam etdiyini və tərəflərin ümumi razılığa gəlməyə çalışdığını vurğulayan spiker Simonyan bu prosesin qarşılıqlı xarakter daşımalı olduğunu bildirib: "Sərhədlərin açılması, kommunikasiyaların bərpası qarşılıqlı prosesdir. Əgər Azərbaycan vətəndaşları Ermənistandan keçərək, Naxçıvana gedəcəksə, bizim vətəndaşlar da həmçinin Azərbaycan ərazisindən keçərək, Rusiyaya, yaxud başqa ölkəyə getmək imkanına malik olmalıdırlar". Bu ərazinin kimin nəzarətində olacağına İrəvanın qərar verəcəyini deyən Simonyan 10 noyabr Bəyanatının faktiki olaraq bütün bəndlərinin bu və ya digər dərəcədə pozulduğuna da diqqəti çəkib.

Kommunikasiyaların bərpasının qarşılıqlı proses olması ilə bağlı məsələdə Bakı da şərtlərin eyniləşdirilməsinin tərəfdarıdır. Yəni, Azərbaycanın Laçın yolunda Həkəri sərhəd-keçid məntəqəsində yaratdığı şərait Zəngəzur dəhlizi ilə Naxçıvana keçid postunda da olmalıdır. Burada mübahisəyə səbəb məqam yoxdur.

**Ekspert rəyi**



**Fərid ŞƏFİYEV, beynəlxalq məsələlər üzrə ekspert**

Kommunikasiyalara nəzarətdən danışanda Alen Simonyanın kimi nəzərdə tutduğunu demək çətindir. Söhbət ondan gedir ki, üçtərəfli Bəyanatda nəzarət funksiyasını yerinə yetirən tərəf kimi Rusiyanın adı qeyd olunub. Amma fakt budur ki, ermənilər həmin sənədin şərtlərini kobud şəkildə pozurlar. Hər halda, yaxşı-pis, bəyanatın 9-cu bəndi üzrə ortaq məxrəcə gəlmək lazımdır və yol açılmalıdır. Zəngəzur dəhlizinə kimin nəzarət edəcəyi məsələsini İrəvan Moskva ilə müzakirə etməlidir. Bizim üçün ən vacibi belə bir mexanizmin mövcud olmasıdır. Rusiya, yaxud başqa ölkə olsun, Azərbaycan üçün belə bir nəzarətçinin mövcudluğu önəmlidir. İrana gəldikdə isə onu deməliyik ki, bu ölkə ilə Azərbaycanın münasibətləri heç də müsbət yöndə deyil. Əsas məsələ oradan keçən insanların və yüklərin təhlükəsizliyinin təminatıdır. Buna görə də məqbul qüvvənin tapılması bizim üçün prioritet məsələdir. Əgər ermənilər rusları istəmirsə, bu halda münasib qüvvəni tapmaqdan ötrü uyğun qərarı özləri verməlidir.

### Kremlə verilən növbəti mesaj

İrəvanın sülh danışıqlarının indiki mərhələsində sərgilədiyi təzadlı mövqeyi, 10 noyabr anlaşmasını şübhə altına ala biləcək manevrləri, Moskvaya ötürdüyü mesajları, onun təlimatları haradan aldığının aydın göstəricisidir. Həmin üçtərəfli Bəyanatda nəqliyyat əlaqələrinə nəzarətin kimin həyata keçirəcəyi birmənalı qeyd olunsa da, sənədə imzasını atmış Ermənistanın bunun arxasından qaçmağa, verdiyi vədi yerimə yetirməkdən yayınmağa çalışması göz önündədir. Simonyanın açıqlaması ilə Ermənistanın baş nazirinin müavini, üçtərəfli işçi qrupunun üzvü Mher Qriqoryanın dediklərinin üst-üstə düşməsi təsadüfi sayıla bilməz. O, üçtərəfli Bəyanatla Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında nəqliyyat əlaqələrinə nəzarətin Rusiya FTX-nin sərhəd xidməti tərəfindən həyata keçiriləcəyi bəndini şərh edərkən deyib ki, bu, Ermənistan və Rusiya arasında ikitərəfli məsələdir, üçtərəfli gündəm deyil: "Biz üçtərəfli görüşdə bu məsələni müzakirə etməli deyilik. Vacib məqam var ki, bu, artıq bütün iştirakçı tərəfdaşlara aydındır. Bu da ondan ibarətdir ki, sərhədlərə bütün nəzarət Ermənistan tərəfinin kontrolu altında olacaq".

Hadisələrin ardıcıl dinamikasını və hayların son açıqlamalarını izləyəndə belə bir qənaətə gəlmək mümkündür ki, İrəvan, Simonyanın dediyi kimi, kommunikasiyalara nəzarəti heç də üçüncü tərəfə vermək barədə düşünmür. Onların məqsədi imza atdıqları anlaşmaya öz korrektələrini aparmaq və konkret olaraq, Zəngəzura nəzarəti əllərində saxlamaqdır. Bu mənada, başqa platformalardan fərqli olaraq, nə Fransa, nə də İran İrəvan üçün nəzarətçi qismində maraqlı deyil. A.Simonyanın dünənki açıqlamasını Azərbaycan Baş nazirinin müavini, üçtərəfli İşçi Qrupunun üzvü Şahin Mustafayevin bu məsələyə münasibəti ilə bağlı olduğu da istisna deyil. Sonuncu Moskva görüşündən sonra Ş. Mustafayev 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən, kommunikasiyalara nəzarətin Rusiya FTX-nin sərhəd xidməti tərəfindən həyata keçiriləcəyini və 9-cu bəndin şərtlərinin tez bir zamanda gerçəkləşməsi üçün danışıqların aparıldığını bildirmişdi.

Göründüyü kimi, danışıqların indiki məqamında İrəvan Moskva ilə açıq qarşıdurmaya getmək yolunu tutub. Bununla onun istəklərinə nail ola biləcəyi çox maraqlıdır.

### Dəhlizin açılması qaçılmazdır

Qarabağla bağlı müzakirələrdə Nikol Paşinyan iqtidarının özündən əvvəlki Hayastan rəhbərliyi kimi ikibaşlı oyuna meyil göstərdiyini, gah Qərbə, gah da Rusiyaya tərəf yıxıldığını dəfələrlə müşahidə etmişik. Məsələnin heç də az əhəmiyyət kəsb etməyən digər tərəfi isə ondan ibarətdir ki, İrəvanın Moskva ilə olduqca sıx müttəfiqlik bağları olsa da, Paşinyan ölkəsinin Ukrayna müharibəsində Rusiyanın yanında olmadığını bildirdi. Əlbəttə, Qərbin sifariş verdiyi musiqiyə oynayan, öz əli ilə yaratdığı daxili durumun girovuna çevrilən Ermənistan rəhbərliyinin ikiüzlü və xəyanətkar siyasətinə Kreml növbəti dəfə şahidlik edir. Amma deyəsən, onun da səbrinin tükənən məqamı yetişməkdədir.

"Biz Zəngəzur dəhlizinin tezliklə açılması haqqında fikir mübadiləsi apardıq. Nə qədər tez olsa, o qədər yaxşıdır. Zəngəzur dəhlizinin açılması qaçılmazdır. Hər halda biz bu istiqamətdə öz səylərimizi artıracağıq. Bu dəhlizin açılması bütün ölkələr üçün yeni imkanlar açacaq və bölgədə işbirliyi məsələlərinə də müsbət təsir göstərəcək". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev dünən Bakıda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşdən sonra mətbuata bəyanatında söyləyib.

Cənab Prezidentin bu bəyanatı Hayastanın parlament sədrinin kommunikasiyalara nəzarətlə bağlı dediklərinə verilən operativ, dəqiq və birmənalı cavabdır.

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

# Vardanyanın "Qarabağ rekviyemi"

## *Ruben Ermənistanı suverenliyini itirməklə təhdid edir*

*(əvvəli 1-ci səhifədə)*

Əslində, Vardanyanın bu sayaq dillənməsi onu göstərir ki, separatçı rejimdə dərin fikir ayrılıqları var və bunun məğzini Azərbaycanın diktə etdiyi şərtlərlə barışmaq təşkil edir. Çünki Ruben digər populist düşüncələrini gündəmə gətirməklə yanaşı deyir ki, "heç bir iş görülməsə, hansısa başqa xarici ssenari reallaşacaq. Bu da bizim üçün mənfi haldır". Deməli, bölgə ermənilərinin Azərbaycana təslimçilik ruhu Vardanyanın Şimaldan aldığı tapşırıqların icrasına maneçilik törətməkdədir. Əks halda niyə yazsın ki, bölgənin taleyinin bəzi xarici oyunçuların öhdəsinə buraxmağın əleyhinədir? Elə buradan da görmək mümkündür ki, onun müxtəlif "ssenarilər" hazırlayıb həyata keçirmək arzusu cəfəngiyyatdan başqa bir şey deyil. Ruben absurd teatrında rol oynadığını təsdiqləməkdədir.

Çirkli pulların yuyulması və sair bu sayaq maxinasiyalarla özünə var-dövlət toplamış Vardanyan hara, tarix hara? Böyük alman filosofu İohan Volfhans Höte deyirdi ki, tarixin bizə verdiyi ən yaxşı şey onun entuziazm formalaşdırmasıdır. Belə nəticəyə gəlmək olar ki, Ruben də "Telegram" qeydlərində düz-əməlli anlamadığı tarixə baş vurmaqla, Qarabağın ermənilər yaşayan hissəsində entuziazm yaratmağa çalışır. Hərçənd, yuxarıdakı qeydlərimizdə diqqətə çatdırdıq ki, separatçılar üçün çəmbərin daralması fonunda, onun pafoslu ağzına heç tüpürmək istəyən də yoxdur. Bu yerdə XX əsrin dünyaca tanınmış fikir adamlarından olan alman filosofu Hans-Georq Hadamerin "tarix bizə aid deyil, biz tarixə aidik" fikrini də yada salaq və bildirək ki, üzərindən illər keçdikdən sonra Vardanyanın tariximizə aidliyi məşhur "12 stul" qəhrəmanı Ostap Bender kimi olacaq. Yəni, atın altına düşməsindən sevinc hissi keçirən tipində.



Ancaq Ostap Benderdən fərqli olaraq, hazırda Ruben obrazlı desək, atın altında yox, Azərbaycan adlı əjdahanın ağzındadır. Əjdaha hələlik çənəsini sıxıb onun əzmək istəmir. Ölkəmiz təkcə Vardanyana yox, digər separatçılara qarşı da humanist yanaşır, onlara amnistiya mesajı verir. Görünən budur ki, mesajdan nəticə çıxaranlar var. Ancaq o da görünür ki, böyük oyunun kiçik peşkası olan Vardanyan ilk baxışdan əjdahadan qorxsa da, nəticə çıxarmaq niyyətindən uzaqdır, özünün Ostap Bender simasına sadiqdir. Qalır əjdahanın ağzında tikə-parça olması.

Əlqərəz, R.Vardanyan onu da yazır ki, təxminən il yarım əvvəl müsahibələrinin birində müxtəlif ssenariləri təsvir edib və həmin ssenariləri həyata keçirməyə girişməsələr, başlarına nələrin gələ biləcəyini açıqlayıb. Sən demə, Ruben Qarabağı İkinci Dünya müharibəsindən sonrakı Finlandiya, yaxud İsveç kimi görmək istəyib. Ancaq Ermənistanın baş naziri Nikol Paşinyan buna imkan verməyib. Yəqin, absurdu təsəvvür etdiniz.

Təzada baxın, ruspərəst Vardanyan hesab edir ki, qərbpərəst Paşinyan Qarabağın Qərbin İsveç və Finlandiya kimi yüksək inkişaf etmiş ölkələrinə çevrilməsinin qarşısını alıb. "Fikrimcə, Nikol Paşinyan hökumətinin davam etdirdiyi yanlış siyasətdə biz özümüzü mənfi ssenarilərdən birində tapacağıq: yararsızlaşacağıq, arxaikləşəcəyik, sanksiyalara məruz qalacağıq və ya hətta suverenliyi itirəcəyik", - deyən Rubenin Qarabağın yox, Ermənistanın dövlət suverenliyini itirməsindən danışdığı aşkardır.

Vardanyan bu sayaq fikirləri ilə Paşinyanla arasındakı qarşıdurmaya diqqət çəkir. Qeyd edək ki, Nikol Azərbaycanla ziddiyyətlər fonunda ölkəsinin əslində mövcud olmadığı mesajını vermişdi. Söhbət baş nazirin erməni cəmiyyətində böyük hay-küylə qarşılanmış "kadastr şəhadətnaməsi" ritorikasından gedir. Yada salaq ki, Paşinyan bir müddət əvvəl 29,8 min kvadratkilometr ərazidə suveren erməni dövlətçiliyinin nəsillərə miras qalmasından söz açarkən, faktiki olaraq, hazırda bunun olmadığına eyham vurmuşdu.

İndi Ruben də həmin məqama toxunur. Sadəcə fərq ondadır ki, Vardanyan Ermənistanın varlığını Rusiyadan, Nikol isə Qərbdən asılı görür. Ancaq onların ikisinin də diqqət yetirmədiyi bir məqam var. Həm Paşinyan, həm də Vardanyan unudur ki, hazırda Ermənistan dövlətçiliyinə təhdid separatçılıq və onun müxtəlif təmayüllərinin mövcudluğudur. Ruben separatçılığın özünün, Nikol isə sarsaq təzahürünün tərəfdarıdır.

Nəhayət, Vardanyan bildirir ki, Ermənistanın hazırkı rəhbərliyi hansısa yad, xarici ssenarilərin həyata keçirilməsi səbəbindən iqtidardadır. Bu şəraitdə heç bir bir plan yoxdur. Uğurlu Ermənistan böyük və çətin işdir. Məqsədə çatmaq üçün, sən demə Ermənistanı Qərb, Rusiya və İran arasında körpü etmək lazım imiş və bunun üçün "Artsax"ı erməni qiyafəsində saxlamaq şərtdir.

Göründüyü kimi, Vardanyan özünün kövrək "epistolyar traktatında" Qarabağdakı erməni varlığının silinməsi zəngulələrini vurmaqdadır. Deməli, onun vəziyyəti anladığını söyləmək mümkündür. Ancaq demək olmaz ki, o, durumla barışacaq. Çünki istər Vardanyanın, istərsə də dünya erməniliyinin planlarına Qarabağ ermənilərinin Azərbaycanın hakimiyyəti altında yaşamaları daxil deyil. Onlar bundansa ermənilərsiz Qarabağ formulunu əsas götürürlər. Ermənilərsiz Qarabağ isə torpaq iddialarının nisgilə çevrilib gələcəyə daşınmasıdır. Bunun üçün ən əsas məsələ Qarabağ ermənilərinin məhvidir. Unutmaq olmaz ki, erməni avantürizmi bunu həyata keçirib günahı Azərbaycanın boynuna atmaq istəyəcək qədər vəhşi təbiətə malikdir. Ruben Vardanyan bütün fizionomiyası ilə məhz bu vəhşiliyin bariz obrazıdır. Onun yazıb "Telegram"da paylaşdıqları isə Qarabağ erməniləri üçün erkən rekviyem kimi bir şeydir.

***R.ƏVƏZ,***
***"Xalq qəzeti"***

# Fransa yeni təxribatlar axtarışında...

**Paris Şəhər Şurası Qarabağ ermənilərinə təcili humanitar yardım göstərilməsi haqqında qətnamə qəbul edib. Qətnaməyə görə, şura hayların üzləşdikləri "humanitar böhranın" aradan qaldırılması üçün dəstək kampaniyasının təşkilini vacib sayıb.**

Paris Şəhər Şurasının Qarabağda ermənilərin yardım kampaniyası ilk baxışdan Fransanın ermənipərəst siyasətinin davamı kimi sıradan bir olay təsiri bağışlaya bilər. Amma azacıq təhlil göstərir ki, əslində bu, dəstəkdən daha çox, Azərbaycanın siyasi nüfuzuna xələl gətirməyə, ölkəmizin maraqlarına zərbə vurmağa hesablanıb.

### Uydurma "humanitar böhran"

Paris Şəhər Şurasının Qarabağdakı qətnaməsi bölgə ermənlərinin həqiqətən də humanitar böhran şəraitində yaşaması yalanını beynəlxalq müstəvidə ictimailəşdirməyə hesablanıb. Başqa sözlə desək, Azərbaycanın guya Qarabağdakı erməniləri blokadada saxladığı məntiqi əsas götürülür. Fransanın ermənipərəst fəalları bu absurd qətnamə ilə öz aləmlərində sübut etməyə, Qarabağdakı ermənilərin sosial durumlarının fəlakətli həddə çatdığını vurğulamaq yolu tuturlar. Yəni, məqsəd ermənilərə yardım etmək deyil, yardım adı altında Azərbaycanın imicinə, onun haqq işinə zərbə vurmaq, beynəlxalq aləmdə ölkəmiz haqqında mənfi rəy formalaşdırmaqdır.

### Cənubi Qafqazda nüfuz cəhdi

Paris Şəhər Şurasının "humanitar yardım" avantürasının digər bir məqsədi Fransanın Cənubi Qafqazda, xüsusilə də Ermənistandakı mövqeyini gücləndirmək, bu coğrafiyada nüfuz sahibi olmaqdır. İndiki dönəmdə bunun üçün ən yaxşı fürsət isə erməni yalanına ortaq olaraq, özünü Qarabağdakı ermənilərin xilaskarı kimi təqdim etməkdir. Rəsmi Paris Fransanın regiondakı maraqlarını Ermənistanın və Qarabağdakı erməni separatçılarının əli ilə təmin etməyə çalışır ki, bu da Azərbaycanın maraqları baxımından yolverilməzdir.

Xatırladaq ki, Prezident İlham Əliyev postmüharibə dönəmində bir neçə dəfə Fransanın ermənipərəst mövqeyini tənqid edən bəyanatlar verib, rəsmi Parisi ədalətli olmağa səsləyib. Ölkə başçısı 28 sentyabr 2021-ci il tarixində Fransanın "France-24" televiziya kanalına verdiyi müsahibədə Fransanın Vətən müharibəsində qərəzli mövqe tutduğunu, Azərbaycanın haqq işini deyil, Ermənistanın işğal siyasətini dəstəklədiyinə diqqət çəkərək deyib: "Bizim Fransa ilə Ermənistanın tarixi əlaqələrindən, Fransada fəal erməni icmasının olmasından və onların rəsmilərə mümkün təsirindən xəbərimiz var. Ancaq, səmimi desəm, müharibə zamanı Fransa özünü dürüst vasitəçi kimi aparmadı. O, tərəf seçdi - Ermənistanın tərəfini. Özünün hərəkət və bəyanatlarında Azərbaycanı açıq şəkildə ittiham etdi və qərəzli yanaşma göstərdi".

Bəli, Paris Şəhər Şurasının Qarabağdakı ermənilərə "humanitar yardım"-la bağlı başlatdığı aksiya həm də onu göstərir ki, Fransa regionda yeni təxribatlar axtarışındadır və hələ də öz qərəzli mövqeyindən imtina etməyib.

### Avantüra, yoxsa separatizmə dəstək aksiyası?

Yuxarıda qeyd olunduğu kimi, Qarabağdakı ermənilərlə bağlı heç bir blokada və humanitar böhran yaşanmadığı üçün, Paris Şəhər Şurasının ermənilərə hansısa "humanitar yardım" göstərməsinə, beynəlxalq hüququn bu anlayışını sui-istifadə etməsinə lüzum yoxdur. Əslində, Qarabağdakı erməni separatizminin hələ də tam olaraq ortadan qalxmadığı bir zamanda Paris Şəhər Şurasının gerçəkləşdirməyə çalışdığı aksiyanı separatizmə dəstək aksiyası kimi xarakterizə etmək daha doğrudur. Bu aksiyanın erməni separatizmi üçün hər şeydən öncə mənəvi-psixoloji baxımdan dəstək xarakteri daşıdığı göz önündədir. Halbuki, dünyamızda separatizmin istənilən formada dəstəklənməsinin yanlış olduğu, bunun sülh və sabitlik üçün ağır fəsadlar törətdiyinə dair çoxsaylı nümunələr mövcuddur. Ümid edək ki, Fransa tərəfi özünün də yaxşı bildiyi bu həqiqəti nəzərə alaraq erməni separatizmini himayə etməkdən vaz keçəcək, regionda onun günahından yeni qarşıdurmanın alovlanmasına rəvac verməyəcək.

***Seymur ƏLİYEV***

# Azərbaycan – Şimali Makedoniya əməkdaşlıq imkanları yüksəkdir



**Azərbaycan ilə Şimali Makedoniya arasında iqtisadi əməkdaşlıq potensialı hələ də istifadə olunmayıb, bizim çoxlu imkanlarımız var. Biz təkcə rəsmi şəxslər deyil, həm də işgüzar dairələr, müxtəlif biznes forumları, sahə nazirliklərinin müxtəlif nümayəndə heyətləri arasında daha çox əlaqələrə malik olmalıyıq.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov Şimali Makedoniyanın "MIA" media informasiya agentliyinə müsahibəsində səsləndirib.

Şimali Makedoniyaya səfəri çərçivəsində jurnalist Aleksandar Atanasovun suallarını cavablandıran Elçin Əmirbəyov səfərin məqsədlərindən, ölkələr arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyətindən və iqtisadi əlaqələrin perspektivlərindən bəhs edib. Bildirilib ki, səfərin iki məqsədi var. İlk növbədə, məqsəd Şimali Makedoniya hakimiyyəti ilə ikitərəfli münasibətləri nəzərdən keçirməkdir. İki ildən sonra Azərbaycan ilə Şimali Makedoniya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd olunacaq.

"Əldə olunan nəticələri və gələcəkdə nələri daha yaxşı edə biləcəyimizi düşünmək üçün yaxşı vaxtdır. İkinci məqsəd isə Şimali Makedoniya hazırda Azərbaycanın da üzv dövlət olduğu ATƏT-in fəaliyyətdə olan sədri rolunu yerinə yetirir. Bunu nəzərə alaraq, məqsədimiz Şimali Makedoniya rəsmilərini Cənubi Qafqazda regional təhlükəsizlik baxımından mövcud vəziyyət, konkret olaraq Azərbaycan və Ermənistan arasında gedən sülh prosesi haqqında məlumatlandırmaqdır", - deyə E.Əmirbəyov qeyd edib.

Birinci vitse-prezidentin köməkçisi deyib ki, iki ölkə arasında siyasi dialoq baxımından çox yaxşı münasibətlər var. Ölkə liderləri və nazirlər müntəzəm olaraq görüşürlər, xüsusən də xarici işlər nazirləri son vaxtlar bir neçə dəfə görüşüblər. Şimali Makedoniyanın xarici işlər naziri bu ilin aprelində Azərbaycana səfər edib. E.Əmirbəyov, həmçinin bildirib: "Düzdür o, bu səfəri ATƏT-in fəaliyyətdə olan sədri kimi edib, lakin səfər çərçivəsində həm də azərbaycanlı rəsmilərlə ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Düşünürəm ki, ölkələrimiz iqtisadi əməkdaşlıq potensialından hələ çox yaxşı səviyyədə istifadə etməyib. Bizim yaxşı potensialımız, çoxlu imkanlarımız var. Ona görə də hesab edirəm ki, biz təkcə rəsmi şəxslər səviyyəsində deyil, həm də işgüzar dairələr, müxtəlif biznes forumları, müvafiq nazirliklərin nümayəndə heyətləri arasında daha çox təmaslara malik olmalıyıq".

Görüşdə ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılmasının zəruri olduğu da vurğulanıb.

Elçin Əmirbəyov deyib ki, ənənəvi enerji təchizatçısı kimi tanınan Azərbaycan Avropa İttifaqının (Aİ) enerji təhlükəsizliyinə töhfə verir, Aİ-nin əsas strateji tərəfdaşlarından biridir. Şimali Makedoniya Aİ-yə üzv olmaq üçün namizəd ölkə statusu almaq istəyir. Cənub-Şərqi Avropanın bir çox ölkəsi təbii qazın tədarükünü razılaşdırmaq üçün hazırda Azərbaycanla müzakirələr aparır. "Lakin enerji yalnız bir sahədir və düşünürəm ki, biz hər iki ölkənin bir-birinə təklif edə biləcəyi əsas məhsulları ümumiləşdirməliyik. Bizim biznes və ticarət imkanları baxımından müntəzəm ünsiyyət kanalımız olmalıdır. Hesab edirəm ki, qarşıda görüləsi hələ çox iş var. Həmçinin Azərbaycan bu yaxınlarda Şimali Makedoniyaya yeni səfirini akkreditə edib, Serbiyadakı səfirimiz indi Skopyedə də səfirdir. Hesab edirəm ki, ötən müddətdə qurulan əlaqələr bizə mövcud boşluqları doldurmaq imkanı verə bilər".

Azərbaycan rəsmisi 2020-ci ilin sonundan etibarən Xəzər dənizinin təbii qaz ehtiyatlarının Cənub Qaz Dəhlizi vasitəsilə İtaliyaya və bir sıra digər ölkələrə nəql edildiyini bildirərək qeyd edib: "Azərbaycandan təbii qaz alan ölkələrin sayı tezliklə 10-a çatacaq. Şimali Makedoniyanın da Azərbaycan təbii qazının bir hissəsini idxal etməkdə müəyyən marağı var. Həmçinin Azərbaycan Şimali Makedoniya məhsullarının bəziləri üçün də cəlbedici bazar ola bilər və eynilə də bunun əksi mümkündür".

Jurnalistin Azərbaycan təbii qazının Şimali Makedoniyaya mümkün nəqli ilə bağlı sualına cavab olaraq Elçin Əmirbəyov deyib ki, tədarükçü kimi Azərbaycan qazını Şimali Makedoniyaya da çatdırmaqdan məmnun olardıq. Bunun üçün lazımi ötürmə qabiliyyəti və ya paylayıcı şəbəkələr lazımdır. Şimali Makedoniya bu məsələni Avropa İttifaqı ilə müzakirə edə bilər. Çünki Aİ Cənub Qaz Dəhlizini çox dəstəkləyir, biz də öz tərəfimizdən Şimali Makedoniyanı alıcı ölkələr siyahısına daxil etməyə açıq və hazırıq. Bundan başqa, Azərbaycan təbii qazının qiyməti rəqabətədavamlı və istehlakçılar üçün daha aşağıdır".

Moldovanın paytaxtı Kişineuda keçirilən "Avropa siyasi birliyi"nin 2-ci Zirvə toplantısı barədə fikirlərini bölüşən Elçin Əmirbəyov qeyd edib ki, bu təşəbbüs Fransa tərəfindən irəli sürülüb və indiyədək iki görüş olub. Yeni təşəbbüs kimi ona müəyyən vaxt lazımdır ki, oturuşsun, insanlar bu platformanın artıq mövcud olan bütün digər təşkilat və platformalarla müqayisədə üzv dövlətlərə hansı müqayisəli üstünlüyü təmin edə biləcəyini həqiqətən başa düşsünlər. Amma şəxsi nöqteyi-nəzərdən deyə bilərəm ki, liderlərin toplantısı yaxşı keçdi, 45-dən çox ölkə təmsil olundu. Müzakirələrin və mübadilələrin qeyri-rəsmi xarakter daşıması müzakirələrin keyfiyyətinə bir qədər də dəyər qatdı. Bu, liderlərin müntəzəm olaraq bir-birini görmələri üçün yaxşı fürsətdir.

Jurnalistin Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin əldə olunması istiqamətində səylərlə bağlı sualına cavabında isə Elçin Əmirbəyov qeyd edib ki, sülh üçün real imkanlar və ya şanslar İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra, Azərbaycan 44 gün ərzində 30 ilə yaxın erməni işğalı altında olan əraziləri azad etdiyi vaxt yaranıb. Beləliklə, Azərbaycan tarixi ədaləti və ərazi bütövlüyünü bərpa etdikdən sonra Ermənistana münaqişədən sonrakı sülh proqramı təklif edib. Ona görə də sülh müqaviləsi layihəsini masaya qoyduq ki, bu da bizə düşmənçilik səhifəsini çevirməyə və münasibətlərimizi normallaşdırmağa kömək edə bilər. Bu müqavilə bir-birinin ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmətə, indi və gələcəkdə bir-birilərinə qarşı hər hansı ərazi iddialarının rədd edilməsinə əsaslanır. Hesab edirik ki, əgər Ermənistan təkcə bəyanatlarla deyil, real əməlləri ilə sülhə hazır olduğunu, Azərbaycana qarşı ərazi iddialarından əl çəkdiyini sübut etsə, yerlərdə bunun həqiqi sübutunu görə bilsək, bizim böyük bu sülhə sahib olmaq şansımız yaranar. İndi hər hansı bir müddət göstərmək çətindir, çünki bəzən onlara əməl edilmədikdə müəyyən məyusluqlar yaranır, lakin biz erməni tərəfinin nə qədər səmimi olduğunu görməliyik. Odur ki, bir tərəfdən Ermənistanın baş naziri Azərbaycanın ərazi bütövlüyünə hörmətindən danışır, digər tərəfdən isə Azərbaycanın suveren ərazisində, Qarabağ bölgəsində hələ də 10 min erməni silahlı birləşmələri var. "Dağlıq Qarabağ" anlayışı artıq yoxdur. Bu gün bizim ərazimizin yeni inzibati ərazi bölgüsü - Qarabağın həm dağlıq, həm də aran hissələrini birləşdirən vahid Qarabağ iqtisadi rayonu var. Bu region həm də çoxmillətli olacaq. Çünki Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmış Azərbaycan əsilli minlərlə məcburi köçkün geri qayıtdıqda bir neçə yüz min əhalisi olan bir bölgəmiz olacaq və ümid edirəm ki, ermənilər gələcəkdə oranın bir parçası olacaqlar. "Biz faktiki olaraq yerli ermənilərə təklif edirik ki, Konstitusiyamıza uyğun olaraq onların Azərbaycan dövlətinin sosial, iqtisadi, humanitar və siyasi çərçivəsinə reinteqrasiya şərtlərini razılaşdırmaq üçün Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə müzakirələr və danışıqlar aparsınlar. Yenə də Ermənistanla Azərbaycan arasında bağlanmış sülh müqaviləsinə qayıdaq. Çünki bu, Azərbaycanın daxili məsələsidir və yerli Ermənistan vətəndaşları ilə müzakirələr, sülh danışıqları son vaxtlar intensivləşib. Mayın əvvəlindən biz xarici işlər nazirləri və liderlər səviyyəsində bir neçə raund müzakirələr aparmışıq. Ümid edirik ki, tezliklə müzakirələri davam etdirəcəyik. Sülh müqaviləsi əlçatandır. Biz Ermənistandan məsuliyyətli davranmasını və verdiyi vədlərə əməl etməsini, bütün silahlı qüvvələrini Azərbaycanın suveren ərazisindən çıxarmaq da daxil olmaqla, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsini gözləyirik. Çünki bütün bunlar olmadıqda sülhdən danışa bilmərik. Biz istəyirik ki, bu problem həll olunsun və daha yaxşı şəraitdə sülh danışıqlarına cəmləşək", - deyə Birinci vitse-prezidentin köməkçisi qeyd edib.

Elçin Əmirbəyov vurğulayıb ki, danışıqlar müxtəlif yerlərdə aparılır və müxtəlif vasitəçilər var, Rusiya da onlardan biridir. Çünki atəşkəs sazişini imzalayan tərəflərdən biri rəsmi Moskvadır və onlar da müntəzəm olaraq görüşlərə ev sahibliyi edirlər. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iştirakı ilə Brüsseldə üçtərəfli görüşlər olub. ABŞ da danışıqlar prosesinin iştirakçısıdır. Uzun fasilədən sonra bu danışıqlar prosesini bərpa edən də məhz amerikalılar oldular. Beləliklə, sülh sazişinin mətninin razılaşdırılması üçün ikitərəfli danışıq aparılır. Bu mətn iki xalq arasında münasibətlərin əsas prinsiplərini müəyyənləşdirəcək, həmçinin bağlanmış nəqliyyat əlaqələrini açmağa, indiyədək delimitasiya aparılmayan sərhədi müəyyənləşdirməyə imkan verəcək. Bunlar bizim Ermənistanla danışdığımız üç əsas məsələdir. Bu münaqişə başlayanadək Ermənistan tərəfindən 250 min azərbaycanlı etnik təmizləməyə məruz qalıb və bu ölkədən qovulub. Bu gün biz uzunmüddətli sülhdən, azlıqların hüquqlarından danışarkən, tarixi vətənlərinə qayıtmaq hüququ olan yüz minlərlə azərbaycanlının hüquqları məsələsini də gündəmə gətiririk. Beləliklə, biz Qarabağ bölgəsində ermənilərin hüquqlarını müzakirə edirik və bu, Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə yerli ermənilər arasında dialoqdur, ona görə də Ermənistan bu prosesdən kənardadır. Azərbaycan özünün etnik erməni əsilli vətəndaşları ilə əlaqə saxlamağa hazırdır. Lakin biz onlardan konstruktiv olmalarını, sosial, iqtisadi və digər hüquqlarından istifadə etmələri üçün bütün imkanların təmin olunacağını başa düşmələrini gözləyirik. Ancaq bu məsələ Azərbaycan dövlətinin qanunları çərçivəsində, Azərbaycan Konstitusiyasına uyğun olaraq edilməlidir.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 190** **Bakı şəhəri, 12 iyun 2023-cü il**

***"Azərbaycan Respublikası Energetika Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 8 oktyabr tarixli 325 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.8-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Energetika Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 8 oktyabr tarixli 325 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1296; 2017, № 11, maddə 2139; 2018, № 2, maddə 353; 2021, № 7, maddə 870; 2022, № 3, maddə 270) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** "10" rəqəmləri "11" rəqəmləri ilə əvəz edilsin.

**2.** "Kollegiyanın üzvləri:" bölməsi üzrə:

2.1. beşinci abzasda "elektroenergetika və enerji səmərəliliyi" sözləri "elektrik və istilik enerjisi" sözləri ilə əvəz edilsin;

2.2. altıncı, yeddinci abzaslar müvafiq olaraq yeddinci, səkkizinci abzaslar hesab edilsin və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Energetika Nazirliyi Aparatının enerji səmərəliliyi şöbəsinin müdiri;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 191** **Bakı şəhəri, 12 iyun 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 28 dekabr tarixli 212 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mobil cihazların qeydiyyatının aparılması Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 771-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 28 dekabr tarixli 212 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 12, maddə 1257; 2014, № 4, maddə 444, № 6, maddə 747; 2016, № 10, maddə 1717; 2018, № 9, maddə 1930; 2019, № 1, maddə 163; 2022, № 4, maddələr 386, 414) ilə təsdiq edilmiş "Mobil cihazların qeydiyyatının aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.1-ci bəndə "Qayda" sözündən sonra "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq" sözləri əlavə edilsin.

**2.** 1.2.4-cü yarımbənddə "təsis edilmiş" sözləri "yaradılmış" sözü ilə əvəz edilsin.

**3.** 3.2.1-ci yarımbənddə ", təkrar İMEİ nömrələri olmayan" sözləri "və ya surəti köçürülməyən" sözləri ilə əvəz edilsin.

**4.** 3.2.2-ci yarımbənd üzrə:

4.1. birinci cümlədə "təkrar" sözü "dəyişdirilmiş və ya surəti köçürülmüş" sözləri ilə əvəz edilsin;

4.2. ikinci cümlə aşağıdakı redaksiya verilsin:

"Mobil operator tərəfindən İMEİ nömrələri mobil cihazların qeydiyyat sisteminin qara səhifəsində olan mobil cihazlara (İMEİ nömrələri uyğunlaşdırılmış ağ səhifədə olan mobil cihazlar istisna olmaqla) telekommunikasiya xidmətlərinin göstərilməsi qadağandır.".

**5.** 3.3.1-ci yarımbəndə "dəyişdirildiyi" sözündən sonra "və ya surətinin köçürüldüyü" sözləri əlavə edilsin.

**6.** 5.3-cü bəndin birinci cümləsində "və ya onun" sözləri ", habelə onun dəyişdirildiyi və ya" sözləri ilə əvəz edilsin.

**7.** 5.8-ci və 5.9-cu bəndlər aşağıdakı redaksiyada verilsin:

"5.8. Qeydiyyat mərkəzi mobil cihazın İMEİ nömrəsinin dəyişdirildiyini və ya surətinin köçürüldüyünü müəyyənləşdirmək məqsədilə abunəçinin mobil (sellülar) nömrəsinin MSİSDN-i və İMSİ barədə məlumatları, o cümlədən əməliyyat növü, başlama və bitmə vaxtı, davamiyyəti, olduğu yer, başlanğıc və son stansiyalar, baza stansiyaların identifikasiya parametrləri və yerləşmələri barədə çağrı qeydiyyat məlumatlarını mobil operatorlardan informasiya sistemləri vasitəsilə onlayn qaydada əldə edir.

5.9. İMEİ nömrəsi dəyişdirilmiş, habelə surəti bir və ya bir neçə başqa cihaza köçürülmüş mobil cihazı ilk olaraq istifadə etmiş abunəçinin (onun mobil (sellülar) nömrəsinin) müəyyənləşdirilməsi üçün həmin cihazın İMEİ nömrəsi qara səhifəyə daxil edildiyi tarixdən 3 (üç) ay əvvələdək olan dövr üzrə bu Qaydanın 5.8-ci bəndində qeyd olunan məlumatların təhlili aparılır.".

**8.** Aşağıdakı məzmunda 6.7-ci bənd əlavə edilsin:

"6.7. Mobil cihazın qeydiyyatının aparılmasından yayınmaq məqsədilə mobil cihazın İMEİ nömrəsinin dəyişdirilməsi və ya surətinin köçürülməsi, habelə İMEİ nömrələri MCQS-nin qara səhifəsində olan mobil cihazlara (İMEİ nömrələri uyğunlaşdırılmış ağ səhifədə olan mobil cihazlar istisna olmaqla) telekommunikasiya xidmətlərinin göstərilməsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq inzibati məsuliyyətə səbəb olur.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Nazir İsmayıllıda vətəndaş qəbulu və sıra baxışı keçirib



**Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyunun 12-13-də İsmayıllı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, nazir əvvəlcə İsmayıllı şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Ağsu, İsmayıllı, Göyçay, Qobustan və Şamaxı rayonlarından qəbula gələn 161 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak edib. 27-si Vətən müharibəsi iştirakçısı olmaqla xidmətə qəbulun şərtlərinə uyğun gələn 101 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*Qəzənfər QASIMOV,*
*"Xalq qəzeti"*

# Ordumuz istənilən təxribatların qarşısını almağa hazırdır

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, azad edilmiş ərazilərimizdə dislokasiya olunan bölmələrin xidməti-döyüş fəaliyyəti yüksək səviyyədə təşkil edilir.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, çətin relyefli və yüksək dağlıq ərazilərdəki mövqelərdə yerləşən bölmələrdə günün nizam qaydalarına uyğun olaraq sutka boyu döyüş növbətçiliyi təşkil olunur, fasiləsiz xidmət aparılır.

Şəxsi heyətin döyüş qabiliyyətinin daha da artırılması, eləcə də döyüşə hazırolma və mənəvi-psixoloji vəziyyətin daim yüksək səviyyədə saxlanılması istiqamətində zəruri tədbirlər həyata keçirilir.

Azad edilmiş ərazilərdə xidmət aparan hərbi qulluqçularımız ehtimal olunan istənilən təxribatların qarşısını almağa hər an hazırdırlar.

* * *

İyunun 13-ü saat 17:40-da Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini minaatanlar da daxil olmaqla iriçaplı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Ordumuzun bölmələri tərəfindən cavab tədbirləri görülür.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

"Bölgədə vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür", – məlumatda qeyd edilib.

# Türkiyə Qarabağın bərpasında Azərbaycanın yanındadır




**Azərbaycan–Türkiyə qardaşlığı, dostluğu Vətən müharibəsində də özünü qabarıq büruzə verdi. İkinci Qarabağ müharibəsi başlanan günün ilk saatlarından Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsinin Azərbaycana birmənalı, dəqiq və açıq siyasi-mənəvi dəstəyini ifadə etdi. Bununla da Türkiyə bəzi siyasi dairələrin respublikamıza düşmən hərəkətlərinin qarşısını birmənalı şəkildə aldı.**

Dost dövlət hazırda Qarabağ və Şərqi Zəngəzurun bərpasında ölkəmizin yanındadır. Düşməndən təmizlənən yaşayış sahələrimizin yenidən qurulması üçün ilk müqavilələrin Türkiyə şirkətləri ilə imzalanması da bunun parlaq ifadəsidir.

Ermənistanın 30 ilə yaxın bir müddətdə işğal altında saxladığı və Vətən müharibəsində əldə edilən parlaq qələbə ilə azad edilən ərazilərimizdə bərpa-quruculuq layihələrinin icrası başlayandan ötən müddətdə bu prosesdə Türkiyə şirkətlərinin fəaliyyəti daha çox diqqət çəkib. Qardaş ölkə Əhmədbəyli–Horadiz–Mincivan–Ağbənd avtomobil və Horadiz–Mincivan–Ağbənd dəmir yollarının salınmasında, Azərbaycan üçün strateji önəm daşıyan Füzuli–Şuşa avtomobil yolunun inşasında, eyni zamanda, Göygöl bölgəsindən Kəlbəcərə magistralın çəkilişində, habelə digər infrastruktur layihələrinin icrasında, tarixi abidələrimizin bərpasında səmərəli fəaliyyət göstərib.

Prezident İlham Əliyev Türkiyənin Qarabağın bərpasına böyük dəstək verdiyini daim xatırladıb. Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə rəsmi səfəri çərçivəsində mətbuata bəyanatında bu barədə deyib: "Bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə–Azərbaycan birliyini görürük. Genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Bu gün əziz qardaşımla bərabər həm dəmir yolunun inşası ilə tanış olduq, "Dost Aqropark"ın açılışını birlikdə qeyd etdik. Bu da bölgəyə birinci özəl sərmayədir və bu aqroparkın adı da – "Dost Aqropark" özlüyündə hər şeyi deyir. İnşaat, yol çəkilişi işlərində Türkiyə şirkətləri bizimlə bərabər çalışır. Biz Türkiyə şirkətlərinə minnətdarıq ki, qısa müddət ərzində böyük işlər görür...".

Beləliklə, Azərbaycanla Türkiyə arasında uzun illərin sınağından çıxan dostluq və qardaşlıq münasibətlərinin indiki vəziyyəti bir daha onu göstərir ki, iki ölkə arasındakı əlaqələr əbədidir və heç bir qüvvə, heç bir maneə bu dostluğun, qardaşlığın qarşısını ala, sarsıda bilməz.

Hazırda bu iki ölkənin yaxından iştirakı ilə reallaşdırılan qlobal layihələr regionun mənzərəsini dəyişir, Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin olunması, bu bölgənin yaxın gələcəkdə dünyanın inkişaf mərkəzlərindən birinə çevrilməsi üçün əsaslı zəmin formalaşdırır. Bu prosesə töhfə verən hər kəs isə bundan yalnız faydalanır.

*"Xalq qəzeti"*

# Ölkəmiz 179 dövlətlə ticarət əməliyyatları aparıb



**Cari ilin yanvar–aprel aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 179 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib. Hesabat dövründə Azərbaycan dünyanın 89 ölkəsinə məhsul ixrac edib. Bununla yanaşı, cari ilin ilk 4 ayında respublikamız 165 ölkədən müxtəlif növ mallar idxal edib.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2023-cü ilin yanvar–aprel aylarında ölkəmizin xarici ticarət dövriyyəsi 15 milyard 834,1 milyon ABŞ dolları təşkil edib. 2022-ci ilin yanvar–aprel ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 6 faiz azalsa da, real ifadədə 1,6 faiz artıb. Hesabat dövründə xarici ticarət dövriyyəsinin 10 milyard 536,2 milyon dolları və ya 66,5 faizi ixracın, 5 milyard 297,9 milyon dolları isə idxalın payına düşüb. Bunun da nəticəsində Azərbaycanın xarici ticarət dövriyyəsində 5 milyard 238,3 milyon dollar məbləğində müsbət saldo yaranıb.

Komitə ölkəmizin əsas xarici ticarət tərəfdaşlarının da adlarını açıqlayıb. Belə ki, yanvar–aprel aylarında Azərbaycanın xarici ticarət dövriyyəsinin 33 faizi İtaliya, 14,5 faizi Türkiyə, 7,8 faizi Rusiya, 4,6 faizi Çin, 3,4 faizi Hindistan, 3,3 faizi Yunanıstan, 3,2 faizi Almaniya, 3,1 faizi İspaniya, 2,9 faizi İsrail, hər biri 2 faiz olmaqla Gürcüstan və Çexiya, hər biri 1,8 faiz olmaqla Rumıniya və Fransa, 1,7 faizi Türkmənistan, hər biri 1 faiz olmaqla Avstriya və İran, hər biri 0,9 faiz olmaqla Qazaxıstan, İrlandiya və ABŞ, 10,2 faizi isə digər ölkələrlə aparılmış idxal-ixrac əməliyyatlarının payına düşüb.

Bu dövrdə Azərbaycanın ixrac əməliyyatlarının yarısından bir qədər az hissəsi (45,9 faiz) İtaliyanın payına düşüb. Bununla yanaşı, ilin ilk 4 ayında ölkəmizdən Türkiyə, Yunanıstan, Hindistan, İspaniya, İsrail, Rusiya, Gürcüstan, Çexiya, Almaniya, Rumıniya, Avstriya, İrlandiya, Sinqapur, İndoneziya, Vyetnam, Fransa və digər ölkələrə də müxtəlif növ məhsullar ixrac olunub. Bununla belə, mövcud ixrac əməliyyatları ölkəmizin iqtisadi potensialını tam əks etdirmir. Məhz buna görə də son illər Azərbaycan özünün ticarət tərəfdaşları ilə bu sahədə əlaqələrin daha da genişləndirilməsi istiqamətində səylərini artırır. Bu baxımdan dövlət rəhbərlərinin qarşılıqlı səfərləri, eləcə də hökumətlərarası iqtisadi komissiyaların birgə iclasları xüsusi əhəmiyyət kəsb edir.

Hesabat dövründə Azərbaycanın idxal əməliyyatları apardığı ölkələrin sırasında birinci yer Rusiyaya (19,6 faiz) məxsus olub. İlk üçlüyü Çin (14,6 faiz) və Türkiyə (14,3 faiz) tamamlayıb. Bununla yanaşı, göstərilən dövrdə ölkəmiz Türkmənistan, Almaniya, Fransa, İran, ABŞ, İtaliya, Qazaxıstan, Yaponiya, Belarus, Cənubi Koreya, Birləşmiş Krallıq, Ukrayna, Hindistan, Braziliya, Polşa və digər ölkələrdən də məhsullar idxal edib.

Azərbaycanda davam etdirilən çevik iqtisadi islahatlar, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən mühüm tədbirlər, eləcə də işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialının hərəkətə gətirilməsi qeyri-neft sektoruna bir dinamizm, inkişaf gətirib. Məhz bunun nəticəsidir ki, son illər ölkəmizdə qeyri-neft məhsullarının istehsalında artım müşahidə edilir. Bu da ixracın strukturunda qeyri-neft məhsullarının xüsusi çəkisinin artmasına səbəb olur.

Dövlət Statistika Komitəsinin məlumatında qeyd olunur ki, bu ilin ilk 4 ayında qeyri-neft-qaz məhsullarının ixracı əvvəlki ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 21,2 faiz, real ifadədə isə 17,5 faiz artaraq 1 milyard 187,2 milyon dollar təşkil edib. Bu ilin yanvar-aprel ayları ərzində Azərbaycanın qeyri-neft məhsulları ixrac edən ölkələrin siyahısında isə ilk yerdə 34,2 faizlə qardaş Türkiyə qərarlaşıb. Sonrakı yerlər Rusiya (24 faiz), Gürcüstan (12 faiz), İsveçrə (4,1 faiz) və Qazaxıstana (2,9 faiz) aid olub. Bununla yanaşı, hesabat dövründə ölkəmizdən Türkmənistan, Ukrayna, İtaliya, Belçika, Özbəkistan, Rumıniya, Almaniya, Çin və Birləşmiş Ərəb Əmirliklərinə də qeyri-neft məhsulları ixrac olunub.

2023-cü ilin yanvar–aprel aylarında ölkəmizdən xaricə təzə meyvə, şəkər, meyvə və tərəvəz şirələri, meyvə və tərəvəz konservləri, kartof, təbii üzüm şərabları və üzüm suslosu, marqarin, qida üçün yararlı digər qarışıqlar, polipropilen, polietilen, emal olunmamış alüminium, mineral gübrələr, pambıq ipliyi, qara metallardan borular, sement klinkerləri, təzə tərəvəz, çay, tütün, bitki yağları, pambıq lifi, qara metallardan çubuqlar, bentonit gili, qara metallardan yarımfabrikatlar kimi mühüm növ məhsullar ixrac olunub.

Hesabat dövründə ölkəmiz xaricdən, əsasən, buğda, xam şəkər, şokolad və şokolad məhsulları, unlu qənnadı məmulatları, quş əti, təzə tərəvəz, mal əti, siqaret, minik və yük avtomobilləri, dərman vasitələri, polad prokatı, hesablama maşınları, blok və qurğuları, qara metallardan borular, rezin şinlər, sintetik yuyucu vasitələr, mebellər, polietilen, mineral gübrələr, paltaryuyan maşınlar, polipropilen, qara metallardan künclüklər, məişət soyuducuları, təzə meyvə, bitki və kərə yağları, digər süd yağları və pastaları, kartof, çay, qara metallardan çubuqlar, məişət kondisionerləri, avtobuslar, sement və digər mallar idxal edib.

Yeri gəlmişkən, Dünya Bankı növbəti iki ildə Azərbaycanda ümumi daxili məhsul istehsalının müvafiq olaraq 2,1 faiz və 2,6 faiz yüksələcəyini proqnozlaşdırır. Heç şübhəsiz, bu amil ölkəmizin xarici ticarət dövriyyəsinin coğrafiyasının və həcminin artmasına səbəb olacaq.

*Mirbağır YAQUBZADƏ,*
*"Xalq qəzeti"*

# 3 ayda regionlara 4,7 milyard manat investisiya qoyulub

**Prezident İlham Əliyev regionların dinamik inkişafının reallaşdırmaq məqsədilə vaxtaşırı rayonlara səfər edir, yerlərdə investisiyaların qeyri-neft sektoruna, xüsusən də bölgələrin inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, əhalinin həyat şəraitinin yaxşılaşdırılması ilə maraqlanır, üzləşilən çətinliklərin aradan qaldırılması üçün icra strukturlarına zəruri tapşırıq və tövsiyələrini çatdırır. Bütün bunlar isə ölkəmizin iqtisadi qüdrətinin daha da artmasına, müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinin formalaşacağına zəmin yaradır.**

Hazırda qeyri-neft sənayesinin inkişaf etdirilməsi üçün regionlarda güclü iqtisadi potensial mövcuddur və bu məsələ diqqətdə saxlanılır. Bu, "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda da aydın nəzərə çarpır. Belə ki, həmin sənəddə bölgələrdə iqtisadiyyatın qeyri-neft sektorunun inkişafını stimullaşdıran layihələrin icrasına üstünlük verilməsi mühüm önəm daşıyır.

Şübhəsiz ki, müxtəlif vaxtlarda qəbul edilən dövlət proqramları da indiyədək respublikada qeyri-neft sektorunun davamlı yüksəlişinə, sosial infrastrukturun keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, iş yerlərinin açılmasına, nəticədə, əhalinin məşğulluğunun artırılmasına təkan verib.

Dövlətimizin başçısının rayonlara səfərləri çərçivəsində müxtəlif təyinatlı müəssisələrin açılış mərasimlərindəki çıxışları, imzaladığı sərəncamlar da bölgələrimizə yeni nəfəs gətirməklə yanaşı, yeni imkanlar açıb, rayon mərkəzləri və



kəndlərimiz daha da tərəqqi edib, abadlaşıb.

Regionlarda makroiqtisadi sabitliyin qorunması, iş yerlərinin və məşğulluğun saxlanılması, eləcə də inkişafı, büdcə gəlirlərinin iqtisadi bazası olan daxili tələbin və investisiyaların dəstəklənməsi, habelə "kölgə iqtisadiyyatı"nın aradan qaldırılması istiqamətində ciddi addımlar atılması da bölgələrdə iqtisadi dinamikaya öz müsbət təsirini göstərib.

Regionlarda iş yerlərinin yaradılmasına, özünüməşğulluğun təmin olunmasına da prioritet istiqamət kimi yanaşılıb. Buna görə də Azərbaycanda əmək və məşğulluq sahəsində həyata keçirilən islahatlar nəticəsində əmək qanunvericiliyi beynəlxalq əmək normalarına uyğunlaşdırılıb, əmək bazarının təkmilləşdirilməsi, əmək münasibətlərinin sosial dialoq, kollektiv müqavilələr və sazişlərlə tənzimlənməsi istiqamətində uğurlu nəticələr əldə olunub.

Ötən illər ərzində Azərbaycanda əhalinin məşğulluğunun təmin edilməsi daim diqqət mərkəzində saxlanılıb. Buna, ilk növbədə, qeyri-neft-qaz sektorunun getdikcə böyüməsi, iqtisadiyyatın diversifikasiyası və prioritet sahələrə irihəcmli investisiyaların yatırılması sayəsində yeni istehsal-emal müəssisələrinin fəaliyyətə başlaması zəmin yaradıb.

Beləliklə, iqtisadiyyatın şaxələndirilməsi, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı qarşıya qoyulan prioritetlər uğurla həllini tapıb. Eyni zamanda, qeyri-neft sektorunda kənd təsərrüfatı məhsullarının payı artıb. Nəticədə həm də emal müəssisələri çoxalıb. Bu isə ərzaq təhlükəsizliyinin təmin olunması və idxaldan asılılığın aradan qaldırılması ilə yanaşı, həm də yeni iş yerləri deməkdir.

Bütün bunlar Azərbaycanda investisiyaların qeyri-neft sektoruna, xüsusən də regionların inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin həlli, əhalinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində Prezident İlham Əliyevin yeritdiyi iqtisadi siyasətin məntiqi nəticəsidir.

Yeri gəlmişkən, regionlarda investisiya qoyuluşunun diqqətdə saxlanılması da bölgələrin inkişafını sürətləndirir. İqtisadiyyat naziri Mikayıl Cabbarovun "Twitter" səhifəsində yazdığına əsasən, cari ilin yanvar-mart aylarında Azərbaycanın regionlarına investisiya qoyuluşu ötən ilin müvafiq dövrü ilə müqayisədə 22,7 faiz artıb. Bu ilin yanvar-mart aylarında Azərbaycanın regionlarına investisiya qoyuluşu 4,7 milyard manat təşkil edib.

Qeyd edək ki, 2022-ci ildə Azərbaycanda əsas kapitala investisiyaların həcmi 18 milyard 272 milyon manatdan çox olub. Real ifadədə artım 2021-ci illə müqayisədə 5,5 faiz təşkil edib.

Şübhəsiz ki, belə bir yanaşma, öz növbəsində, vergi daxilolmalarının artımına öz müsbət təsirini göstərir.

Xatırladaq ki, dövlətimizin başçısının tapşırığına uyğun olaraq vergi orqanları tərəfindən gəlirlərin şəffaflaşdırılması və uçotun dürüstləşdirilməsi istiqamətində həyata keçirilmiş sistemli tədbirlər, eləcə də sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması nəticəsində vergi daxilolmaları getdikcə artır.

Kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi respublikada qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələr hesab edilir. Kənd təsərrüfatının subsidiyalaşdırılması və vergi azad olmaları, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, investisiyaların və ixracın təşviqi, digər dövlət dəstəyi mexanizmləri regional inkişafın sürətlənməsində mühüm rol oynayır.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*

## *Ekspert rəyi*



**Mirağa ƏHMƏDOV,**
**iqtisadçı-ekspert**

Regionların inkişafından bəhs edərkən, son illərdə bölgələrimizdə yaradılan sənaye parkları və aqroparkların fəaliyyətinə nəzər salmaq istərdik. Bunula bağlı əvvəlcə onu bildirim ki, Prezident İlham Əliyev çıxışları zamanı daim qeyri-neft sektorunun inkişaf perspektivləri barədə fikirlər səsləndirib və onun önəmini vurğulayıb: "Bizim iqtisadi inkişafımız bundan sonra da qeyri-neft sektoru hesabına davam etdiriləcək. Buna nail olmaq üçün son illər böyük işlər görülüb, sənaye zonaları yaradılıb, orada xüsusi vergi rejimi tətbiq olunub. Aqroparklar yaradılıb və orada da məhsuldarlıq daha yüksəkdir".

Dünya təcrübəsi də göstərir ki, sənaye parkları və aqroparkların yaradılması ölkə iqtisadiyyatının ixrac, rəqabət qabiliyyətinin, idxalı əvəz edən məhsulların istehsalının artırılması, məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlbi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi önəm daşıyır. Adları çəkilən təsərrüfat qurumlarının təsis olunması həm də kənd sakinlərinin sosial vəziyyətinin yaxşılaşmasına müsbət təsir göstərir.

Azərbaycanda lazım olan bütün istehsalat sahələrinin yaradılması, yeni investisiyalar cəlb edilməsi üçün gözəl biznes mühiti, siyasi sabitlik, xalq-iqtidar birliyi, təhlükəsizlik təmin edilib, əlverişli coğrafi yerləşmə, infrastruktur, hazırlıqlı peşəkar kadrlar, ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlər var.

Sənaye zonaları və aqroparkların təşəkkülü də belə demək mümkünsə, bax, bu cür əlverişli mühitin məhsuludur. Bu müəssisələrdə sahibkarlar üçün stimullaşdırıcı biznes və investisiya mühiti yaratmaq üçün dövlət tərəfindən müxtəlif dəstək tədbirləri mövcuddur. Belə ki, sahibkarlara təşkilati dəstəklə yanaşı, vergi və gömrük güzəştləri, eləcə də hazır infrastruktura təminat təklif edilir.

Sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

# 5 ayda ölkədə ÜDM 49, 6 milyard manata çatıb

**2023-cü ilin yanvar-may aylarında ölkədə 49 milyard 580,8 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,7 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Əhalinin hər nəfərinə düşən ÜDM 4890,6 manat təşkil edib.**




Dövlət Statistika Komitəsindən verilən məlumata görə, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,5 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 4 faiz artıb. ÜDM istehsalının 45,5 faizi sənaye, 9,1 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,5 faizi tikinti, 3,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə sahələrinin, 17,9 faizi digər sahələrin payına düşüb. Hesabat dövründə məhsula və idxala xalis vergilər ÜDM-in 9,5 faizini təşkil edib.

*"Xalq qəzeti"*

# May ayında gündəlik neft və kondensat hasilatı 612 min barel olub

**Ötən ay Azərbaycanda gündəlik neft hasilatı (kondensatla birlikdə) 612 min barel olub. Bunun 500 min barelini xam neft, 112 min barelini isə kondensat təşkil edib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,5 faiz, yaxud 71,3 min barel azdır.**

Energetika Nazirliyinin məlumatına görə, ölkəmizdə neft hasilatı ilin əvvəlindən gündəlik orta göstəricilər əsasında 6,2 faiz və ya 33 min barel azalıb.

Qeyd edək ki, "OPEC+" əməkdaşlığı çərçivəsində 2023-cü ilin sonuna kimi Azərbaycanın ixtisarlarla bağlı öhdəliyi gündəlik 33 min barel, gündəlik xam neft hasilatı üzrə kvotası isə 684 min bareldir.

*"Xalq qəzeti"*

Milli Məclisin iclasında

# "2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi təsdiq edildi



**İyunun 13-də Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar yaz sessiyasının növbəti plenar iclası keçirildi. Əvvəlcə cari məsələlər müzakirə olundu.**

Deputatlar qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfərindən, iki ölkənin dostluq və qardaşlıq münasibətlərinin nümunəviliyindən, daim bir-birinə arxa-dayaq olmalarından söhbət açdılar. Bununla yanaşı, qeyd edildi ki, ölkəmiz mühüm əhəmiyyətli bayram ərəfəsindədir. On beş iyun həm Qurtuluş Günü, həm də Azərbaycanla Türkiyə arasında Şuşa Bəyannaməsinin imzalandığı gündür.

Sonra Milli Məclisin Sədri gündəliyə 14 məsələnin çıxarıldığını dedi.

Birinci məsələ barəsində məlumat verən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr Tahir Mirkişili dedi ki, yenidən baxılmış 2023-cü ilin dövlət büdcəsinin gəlirləri 33 milyard 780,5 milyon manat, xərcləri isə 36 milyard 569,8 milyon manat təşkil edəcək. Bu da ondan xəbər verir ki, büdcənin gəlirləri 3 milyard manatdan, xərcləri isə 3 milyard 200 milyon manatdan çox artırılır. Komitə sədri vurğuladı ki, yaranan bu yeni imkanlar ölkəmizin qarşısında dayanan çağırışları təmin etməyə imkan verəcək. Bu dəyişikliklər büdcə qaydasının tələbləri üzrə müəyyən edilmiş yuxarı həddə təsir etməyəcək.

Deputatlar qanun layihələrinin müzakirəsində çıxış edərək dəyişiklikləri müsbət qiymətləndirdilər. Onlar təklif olunan dürüstləşdirmədə işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin sürətləndirilməsinin, Böyük Qayıdış Proqramının icrasının, dövlətin milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin artırılmasının prioritetdə saxlanılmasını müsbət qarşıladılar. Deputatlar, həmçinin büdcə gəlirlərinin artımında dayanıqlığın təmini üçün qeyri-neft sektorunun potensial imkanlarından istifadənin əhəmiyyətindən söhbət açaraq idxal olunan inflyasiyanın azaldılması, əməkhaqlarının artırılması, regionlarda işsizlik probleminin həlli ilə bağlı fikirlərini bölüşdülər.

Maliyyə naziri Samir Şərifov və Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev səslənən fikirlərə münasibətlərini bildirib deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirdilər.

Qanun layihəsi müzakirələrdən sonra səsə qoyularaq qəbul edildi.

Sonra komitə sədri Tahir Mirkişili "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsini təqdim etdi. Layihəyə əsasən, 2022-ci il üçün dövlət büdcəsinin gəlirləri 30 milyard 679,6 milyon manat, təsdiq olunmuş proqnoza qarşı 5,1 faiz çox, xərcləri 32 milyard 64,6 milyon manat, təsdiq olunmuş proqnoza qarşı 0,7 faiz az, müvafiq olaraq dövlət büdcəsinin kəsiri 1 milyard 385 milyon manat və ya təsdiq olunmuş proqnozla müqayisədə 55,4 faiz az olub.

2022-ci il icmal büdcənin gəlirləri 17,2 faiz çox icra edilməklə, 43 milyard 97,6 milyon manat təşkil edib. İcmal büdcənin xərcləri isə 1,6 faiz az icra olunub.

İcmal büdcənin tərkib hissəsi olan Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri fondun 5 milyard 606,3 milyon manat məbləğində təsdiq olunmuş göstəricisinə qarşı 5 milyard 729,7 milyon manat və ya 2,2 faiz çox, yəni 102,2 faiz icra olunub.

Qeyd edildi ki, fondun gəlirlərinin 19,8 faizini və ya 1 milyard 132 milyon manatını dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait məcburi dövlət sığorta haqlarından və sair mənbələrdən daxilolmalar təşkil edib.

Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin xərcləri təsdiq olunmuş 5 milyard 606,3 milyon manata qarşı 5 milyard 252,1 milyon manat və ya 93,7 faiz icra olunub ki, bu da 2021-ci ilə nisbətən 8,4 faiz çoxdur. İşsizlikdən Sığorta Fondunun büdcəsinin gəlirləri təsdiq olunmuş 181,4 milyon manat proqnoz göstəricisinə qarşı 172,8 milyon manat və ya 95,3 faiz icra olunub.

Qanun layihəsi üçüncü oxunuşdan sonra səsə qoyularaq qəbul olundu.

Sonra qeyd edildi ki, Mülki Məcəlləyə edilən dəyişikliyə əsasən, hərbi əməliyyatlar zamanı həlak olduğu güman edilən şəxslərin həlak olduğunu elan etmək üçün müəyyən edilən vaxt məhdudiyyəti azaldılır.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna təklif edilən dəyişikliyə görə, hərbi qeydiyyatın təşkili qaydası təkmilləşdiriləcək.

*Ə. BƏDƏLOV, "Xalq qəzeti"*

# "Böyük xilaskarlıq qayıdışı"

**Paytaxtın Nizami Kino Mərkəzində Nəsimi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri, dünya miqyaslı siyasətçi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş "Böyük xilaskarlıq qayıdışı" adlı təntənəli mərasim keçirildi.**



Nəsimi Rayon İcra Hakimiyyəti və YAP Nəsimi rayon təşkilatı rəhbərliklərinin, yerli idarə və müəssisə təmsilçilərinin, ictimai fəalların iştirak etdiyi ümumrayon toplantısını giriş sözü ilə açan Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov bildirdi ki, çoxəsrlik dövlətçilik və müasir müstəqillik tariximizin ən taleyüklü məqamları Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycana rəhbərliyinin birinci dövründə gələcək müstəqilliyin əsaslarını formalaşdıran ulu öndər ölkəmiz suverenlik qazanandan sonra onu itirilmək təhlükəsindən xilas edərək Vətəninə Qurtuluş gətirmiş, gənc dövləti məhv olmaqdan xilas etmişdir.

Natiq qeyd etdi ki, böyük xilaskarımız Heydər Əliyevin missiyası yalnız Azərbaycan dövlətinin dayaqlarının möhkəmləndirilməsi, müstəqilliyin inkişafı və dövlətçilik tariximizin müasir mərhələsinin sürəkliliyinin təmin edilməsi kimi şərəfli bir vəzifənin yerinə yetirilməklə məhdudlaşmadı. O, müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını həyata keçirdi, eyni zamanda, Azərbaycan vətəndaşlarını birləşdirən, xalqımızı beynəlxalq aləmdə vahid amal, əqidə, məqsəd və məram uğrunda səfərbər edən milli təlim –"azərbaycançılıq" ideologiyasını da yaratdı.

Bildirildi ki, son 20 ildə ulu öndər Heydər Əliyevin quruculuq və sabitlik siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanda bütün xalqların və dini konfessiyaların sülh və əmin-amanlıq şəraitində yaşamaları üçün lazımi şərait yaratmışdır. Ölkəmizin inkişafında, milli dəyərlərimizin qorunmasında, eləcə də ulu öndərin zəngin ideya irsinin yaşadılmasında Birinci vitse-prezident və Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın fəaliyyəti misilsizdir.

Mərasimdə çıxış edən Əməkdar elm xadimi, akademik, Xalq yazıçısı Kamal Abdulla və Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev qeyd etdilər ki, Azərbaycanda dövlətin multikultural ənənələrinin qorunmasında ən vacib məqam milli lider Heydər Əliyevin təşəbbüsü ilə bu məsələnin hüquqi sənədlərdə təsbit olunması, o cümlədən Konstitusiyada əks olunmasıdır.

Sonra ulu öndər Heydər Əliyevin Qurtuluş missiyasına həsr edilmiş –ideya müəllifi Əziz Zeynalov, layihə rəhbəri İsmayıl Yaşaroğlu, rejissoru Elnur Abbasov və ssenari müəllifi Telli Əzizova olan "Birlik" filmi tamaşaçılara təqdim olundu. Sonda yaradıcı heyətə rayon rəhbərliyinin hədiyyələri təqdim edildi.

Mərasim Xalq artisti Ağadadaş Ağayevin ifasında ümummilli liderə həsr olunmuş və yüksək dəyər verdiyi mahnılarla davam etdi.

*R.TAHİR, "Xalq qəzeti"*

# Türkiyənin "Ulusal" kanalı ulu öndərə veriliş həsr edib

**Türkiyənin "Ulusal" kanalında yayımlanan "Azərbaycan rüzgarı" proqramının növbəti buraxılışı xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunub.**



Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyi ilə Türkiyənin "Ulusal" kanalında yayımlanan populyar proqramın bu buraxılışında ulu öndər Heydər Əliyevlə bərabər, onun ömür-gün yoldaşı, akademik Zərifə Əliyevanın 100 illik yubileyi də qeyd olunub. Veriliş boyu iki böyük şəxsiyyət haqqında video çarxlar göstərilib.

Proqramın qonağı olan soydaşlarımız – məşhur balabançı Əlixan Səmədov, müğənni Elgün Quliyev, türkiyəli müğənni Kırgız Başar, musiqiçi Günel Şahin Adıgözəl öz ifaları, "Dastanların rəqsi" qrupu isə oyunları ilə verilişə milli ruh və yüksək estetik əhval gətiriblər.

Proqramın müəllifi və aparıcısı telejurnalist, İstanbul Universitetinin doktorantı Səidə Ömər bildirdi ki, Azərbaycan xalqının ümummilli liderinə və dünya şöhrətli oftalmoloqluna həsr olunmuş veriliş qardaş ölkədə çox böyük maraqla qarşılandı və sosial şəbəkələrdə də izlənməkdədir.

*Mehparə SULTANOVA, "Xalq qəzeti"*

Ankara

# Notariusların biliklərinin artırılması üzrə beynəlxalq konfrans

**İyunun 12-13-də Ədliyyə Nazirliyinin, Azərbaycan və Almaniya Federal notariat palatalarının birgə təşkilatçılığı ilə notariusların peşə biliklərinin artırılması məqsədilə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə notariusun rolu" mövzusunda beynəlxalq konfrans keçirilib.**



Tədbirdə təşkilatçı qurumların və Beynəlxalq Notariat İttifaqının rəhbər şəxsləri, beynəlxalq ekspertlər, Milli Məclisin deputatı, Ali Məhkəmənin, Vəkillər Kollegiyasının, Mərkəzi Bankın, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin, Maliyyə Monitorinqi Xidmətinin, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin, Bakı Dövlət Universitetinin və vətəndaş cəmiyyətinin təmsilçiləri, paytaxtda və regionlarda fəaliyyət göstərən notariuslar iştirak ediblər.

Azərbaycan Notariat Palatası İdarə Heyətinin sədri Hüseyn Məmmədov çıxış edərək cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə notariusların vəzifələrinə toxunub, bu sahədə qanunvericiliyin yeni tələblərinin tətbiqi, qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi üçün Ədliyyə Nazirliyi ilə birgə təlim-tədris tədbirlərindən, xarici ölkələrin notariat qurumları ilə səmərəli əməkdaşlıqdan danışıb, konfransın notariusların peşə biliklərinin artırılması baxımından önəmini qeyd edib.

Sonra Beynəlxalq Notariat İttifaqının Beynəlxalq Notarial Əməkdaşlığı Komissiyasının Prezidenti, fəxri notarius Rixard Bokun və Almaniya Federal Notariat Palatasının eksperti Monika Thullun Almaniyada notariusların və reyestr xidmətlərinin çirkli pulların yayılmasının qarşısının alınmasında funksiyaları, bu sahədə onların rolu mövzusunda məruzələri dinlənilib.

Eyni zamanda, ölkəmizdə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizənin hüquqi əsasları, bununla bağlı maliyyə nəzarəti orqanının tənzimləyici rolu, notariat fəaliyyəti və Ədliyyə Nazirliyinin nəzarət tədbirləri barədə çıxışlar edilib, maraqlı diskussiyalar aparılıb.

*Qəzənfər QASIMOV, "Xalq qəzeti"*

# Naxçıvan gəncləri ilə görüş



**Dünən Naxçıvan şəhərindəki Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli muxtar respublikanın ictimai fəal gəncləri ilə görüşüb.**

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli 2022-ci ilin dekabr ayından Azərbaycan Respublikası Prezidentinin müvafiq qərarlarından sonra Naxçıvan Muxtar Respublikasında fəaliyyətə başlayan səlahiyyətli nümayəndəlik institutu barədə məlumat verərək bildirib ki, bu dövlət qurumu ölkənin və muxtar respublikanın həyatında yenilikdir. Bu idarəetmə qurumu mərkəzi hakimiyyəti xalqa daha da yaxınlaşdırmaq, icra proseslərini ahəngdarlaşdırmaq, problemlərin həllini sürətləndirmək məqsədilə yaradılıb. Əhali qrupları ilə hər görüş nümayəndəlik üçün bir ünsiyyət platformasıdır.

Fuad Nəcəfli Azərbaycan Respublikasında müstəqillik illərində aparılan dərin və əhatəli sosial-iqtisadi islahatlardan söz açaraq bildirib ki, ümummilli lider Heydər Əliyevin həyat fəlsəfəsi, Onun zəngin ideya irsi Azərbaycan xalqının mənəvi sərvəti, məfkurə proqramıdır.

Bu gün dahi şəxsiyyətin möhkəm təməllər üzərində formalaşan siyasi xətti yaşayır və ölkəmizi davamlı uğurlara qovuşdurur. Uzun müddət münaqişə şəraitində olan qonşu dövlət isə bu gün öz müstəqil siyasətini formalaşdıra, iqtisadi fəaliyyətini qura bilmir. Lakin ulu öndərin siyasi xəttinin nəticəsi olaraq müstəqil Azərbaycan qüdrətli dövlətə çevrilib.

Səlahiyyətli nümayəndə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsindən və qazanılmış tarixi qələbədən bəhs edərkən bildirib ki, bu Qələbədən sonra Azərbaycan və ondan ayrı düşmüş Naxçıvan Muxtar Respublikası üçün böyük perspektivlər açılıb. Bu gün əsas məsələ kommunikasiyaların, nəqliyyat dəhlizlərinin açılması, xalqın daha da firavan yaşamasıdır. Bu gün Heydər Əliyev Fondunun apardığı siyasət də ölkəmizə uğurlar qazandırır. Hər bir prinsipial və fəal mövqeyi olan gənc bütün bu məsələlərdə kənarda qalmamalı,müstəqilliyimizin daha da möhkəmləndirilməsinə və ictimai idealın uca tutulmasına töhfəsini verməlidir.

Səlahiyyətli nümayəndə muxtar respublikada ötən müddət ərzində nümayəndəlik institutunun gördüyü işlərdən və qarşıda duran hədəflərdən də geniş danışıb. Fuad Nəcəfli Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın əhəmiyyətini vurğulayıb, Dövlət Proqramının qəbul olunmasını muxtar respublikanın hərtərəfli inkişafı ilə bağlı mükəmməl dövlət sənədi adlandırıb və onun icrasında gənclərin fəal iştirakının zəruriliyini vurğulayıb.

Sonra gənclər asudə vaxtın səmərəli təşkili, hərbi-vətənpərvərlik tərbiyəsi, yay düşərgələri, mütəxəssislərin xarici ölkələrdə təhsil və təlim alması, ölkə və beynəlxalq yarışlarda iştirak, rəqəmsallaşma, qrant müsabiqələrində iştitrak, karyera yüksəlişi kimi mövzularda mülahizə və təkliflərini söyləyiblər.

Sonda səlahiyyətli nümayəndə gənclərin suallarını cavablandırıb.

*"Xalq qəzeti"*

# Sumqayıtdakı zavodda baş verən yanğın söndürülüb

**Sumqayıt şəhərində yerləşən Etilen-Polietilen Zavodunda baş vermiş yanğın Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidməti (DYMX) tərəfindən söndürülüb.**



Yanğınsöndürmə qüvvələrinin çağırış üzrə hadisə yerinə operativ çatması və peşəkar fəaliyyəti sayəsində yanacaq çənindəki yanğının mümkün partlayışla nəticələnməsi və digər çənlərə keçərək ağır fəsadların yaranmasına imkan verilməyib.

Qeyd edək ki, yanğının söndürülməsi əməliyyatında ümumilikdə 25 ədəd texnika və 135 nəfərə yaxın canlı qüvvə iştirak edib. Əməliyyata rəhbərliyi DYMX-nin rəisi daxili xidmət general-mayoru Hikmət Abbasov edib.

# ADA Universitetində “Məzun günü”

**Dünən ADA Universitetində “Məzun günü” keçirilib. Buraxılış mərasimində başa çatan təhsil ilinin uğurları barədə məlumat verilib.**






ADA Universitetinin rektoru səfir Hafiz Paşayev məzunlara peşəkar həyatlarında uğur qazandıracaq dəyərli tövsiyələr verib. Universitetin hazırkı layihələrindən bəhs edən rektor deyib: “Universitetin missiyası yalnız təhsil vermək deyil, onun missiyası həm də sosial məsuliyyətə malik vətəndaşlar yetişdirməkdir”. O, İtaliya–Azərbaycan Universiteti çərçivəsində təqdim edilən iki yeni fakültədən, eləcə də ADA Universitetinin regionda fəaliyyət göstərənlər üçün təqdim etdiyi azərbaycandilli magistr ixtisaslarından da söhbət açıb.

Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Taleh Kazımov “Məzun günü”nü yeniliklərin başlanğıcı kimi qiymətləndirib, məzunları arzularını, məqsədlərini düzgün müəyyənləşdirməyə, cəmiyyətə faydalı işlər görməyə səsləyib.

Vəkillər Kollegiyasının sədri Anar Bağırov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müşaviri Anar Kərimov, xarici işlər nazirinin müavini Elnur Məmmədov, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, “Azərxalça” ASC İdarə Heyətinin sədri Emin Məmmədov və digər dövlət qurumlarından səlahiyyətli şəxsləri mərasimdə iştirak ediblər.

Məzunlara təntənəli surətdə diplomlar təqdim edildikdən sonra mərasim bədii proqramla davam edib.

Xatırladaq ki, bu tədris ilində ADA Universitetində 8 bakalavr və 8 magistr ixtisası üzrə 571 tələbə məzun olub. Onların 548-i yerli, 23-ü isə 14 ölkənin gəncidir.

*T.RÜSTƏMLİ, “Xalq qəzeti”*

## Bütün məsuliyyət Ermənistan rəhbərliyinin üzərinə düşür

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin məlumatına əsasən, iyunun 13-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini minaatanlar da daxil olmaqla iriçaplı silahlardan atəşə tutub. Ermənistan tərəfinin təxribatının qarşısının alınması məqsədilə ordumuzun bölmələri tərəfindən müvafiq cavab tədbirləri görülüb.**

Ermənistan tərəfinin bu növbəti hərbi təxribatını qətiyyətlə pisləyir və Ermənistan tərəfindən son zamanlar daha da artan təcavüzkar ritorikasından əl çəkməyi və bölgədə gərginliyi artıran bu kimi addımlara son qoymağı tələb edirik.

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib.

Qeyd olunub ki, bununla yanaşı, guya Azərbaycanın Ermənistanda tikilməkdə olan metallurgiya zavodunu məqsədyönlü şəkildə hədəf alması barədə Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatını qətiyyətlə rədd edirik.

Azərbaycanın təxribat törətməklə Ermənistanda sərmayələrin cəlb edilməsinə mane olmaq məqsədi daşıdığı barədə iddiaya gəldikdə qeyd edək ki, Ermənistan qonşu ölkələrə qarşı ərazi iddiaları irəli sürməklə və Azərbaycanın ərazilərini 30 ilə yaxın işğal altında saxlamaqla özünütəcrid siyasəti yürüdüb, bununla da bütün beynəlxalq layihələrdən kənar qalıb. Öhdəliklərinə zidd olaraq bölgədə iqtisadi inkişafa təkan verəcək kommunikasiya xətlərinin açılmasına hər vəchlə mane olan tərəfin də Ermənistan olduğu hər kəsə məlumdur. Bununla əlaqədar, Ermənistan tərəfinin iddialarının heç bir əsası yoxdur.

# Türkiyənin ticarət naziri ilə görüş

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Türkiyənin ticarət naziri Ömer Bolatla görüşüb. Mikayıl Cabbarov türkiyəli həmkarı Ömər Bolatı Türkiyə Respublikasının ticarət naziri vəzifəsinə təyin edilməsi münasibətilə təbrik edib, ona fəaliyyətində uğurlar arzulayıb.**



Nazirlikdən bildirilib ki, görüşdə dövlət başçılarının siyasi iradəsinin, verdikləri tapşırıqların icrasının əlaqələrin inkişafında əhəmiyyəti vurğulanıb. Qeyd edilib ki, Türkiyə Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və iki ölkə arasında Preferensial Ticarət Sazişinə dəyişiklik haqqında imzalanan Protokol iqtisadi-ticarət əməkdaşlığımızın gücləndirilməsinə əlavə stimul yaradır. Qardaş ölkələr arasında uğurlu investisiya tərəfdaşlığı həyata keçirilir, qeyri-neft ticarət dövriyyəsi artır. Vurğulanıb ki, Azərbaycan və Türkiyənin iştirakı ilə həyata keçirilən genişmiqyaslı layihələr regional əməkdaşlığı dərinləşdirməklə yanaşı, bölgənin mənzərəsini dəyişir.

Nazir, həmçinin Azərbaycan iqtisadiyyatı barədə məlumat verib, qardaş Türkiyə ilə əlaqələrin daha da genişləndirilməsi barədə fikirlərini bölüşüb.

Türkiyənin ticarət naziri Ömer Bolat səmimi təbrikə görə təşəkkürünü bildirib, ortaq dəyərlərə malik olan ölkələrimizin dostluq və qardaşlıq münasibətlərini, strateji müttəfiqliyini vurğulayıb.

*"Xalq qəzeti"*

# Kağızsız idarəetmə genişləndirilir



**Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) tərəfindən Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 27 oktyabr 314 nömrəli fərmanına uyğun olaraq dövlət qurumlarının istifadəsində olan müxtəlif növ elektron sənəd dövriyyəsi sistemlərinin Azərbaycan Respublikası Prezidentinin 4 sentyabr 2012-ci il 692 nömrəli fərmanına əsasən yaradılmış İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sisteminə inteqrasiyasıya olunmaqla elektron sənəd mübadiləsinə start verildi. Bununla bağlı mətbuat üçün brifinq keçirildi.**

XRİTDX-nin idarə rəisi Tural Məmmədov bildirdi ki, xidmət elektron sənəd dövriyyəsi sistemləri arasında təhlükəsiz mübadilənin həyata keçirilməsi üçün yeni inteqrasiya standartlarını (şərtlərini) hazırlayaraq təsdiq etmişdir. Hazırda dövlət qurumları istifadələrində olan istənilən elektron sənəd dövriyyəsi sistemlərini təhlükəsizlik auditindən müsbət rəy almaqla, inteqrasiya standartına uyğun olaraq İdarələrarası Elektron Sənəd Dövriyyəsi sisteminə qoşmaq üçün Xidmətə müraciət ünvanlamaqla qurumlararası kağızsız sənəd dövriyyəsində iştirak edə bilərlər.

İdarə rəisinin sözlərinə görə, 147 dövlət qurumunun istifadəçisi olduğu İdarələrarası Elektron Sənəd Dövriyyəsi sisteminə istifadəçilər mühafizə olunan rabitə kanalları ilə qoşulmaqla icazəsiz daxilolmalardan və təhrifetmələrdən mühafizə olunurlar.

İdarələrarası Elektron Sənəd Dövriyyəsi sisteminə ilk olaraq 24 dövlət qurumunun istifadəçisi olduğu Mərkəzləşdirilmiş Elektron Sənəd Dövriyyəsi sistemi inteqrasiya olunur.

Nəticədə 14 min istifadəçisi olan 24 dövlət qurumunun daxili sənəd dövriyyəsi sistemindən 147 dövlət qurumu ilə birbaşa təhlükəsiz kanallarla elektron sənəd mübadiləsinə imkan yaradıldı.

Gələcəkdə digər dövlət qurumlarının daxili sənəd dövriyyəsi sistemlərinin İdarələrarası Elektron Sənəd Dövriyyəsi sisteminə inteqrasiya olunması mərhələli şəkildə etibarlı kanallarla təmin ediləcək. Cari ilin sonuna kimi daxili sənəd dövriyyəsi sistemləri hazır olan digər dövlət qurumlarının da İdarələrarası Elektron Sənəd Dövriyyəsi sisteminə inteqrasiyası təmin ediləcək.

*Səbuhi MƏMMƏDOV, "Xalq qəzeti"*

**14 İyun Ümumdünya Qan Donoru Günüdür**

# Qanvermə başqasını ölümdən qurtarmaq deməkdir

## Donorlar fədakar və nicatverici insanlar sayılır

**Hər il iyunun 14-ü bütün dünyada olduğu kimi, ölkəmizdə də Ümumdünya Qan Donoru Günü humanist aksiyalardan biri kimi qeyd edilir. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən 2005-ci ildən həmin günün qeyd olunması məşhur Avstriya həkim-immunoloqu, qan qruplarını kəşf etmiş Nobel mükafatı laureatı Karl Landşteynerin doğum günü ilə əlaqədardır. Bu günün qeyd olunması ictimaiyyətin diqqətini insanlığın təhlükəsiz qan və qan komponentlərinə olan tələbatına cəlb etmək, bu sahədə əhalini məlumatlandırmaq və başqalarının həyatını xilas etmək naminə qanını təmənnasız verən xeyirxah və mərhəmətli qan donorlarına hörmət və ehtiram göstərmək məqsədi daşıyır. Şəfqət, humanizm kimi xeyirxah hissləri özündə birləşdirən həmin günün təsis edilməsinin təşəbbüskarı Ümumdünya Səhiyyə Təşkilatı, Qızıl Xaç və Qızıl Aypara cəmiyyətləri, Beynəlxalq Donor Qanı Təşkilatı və Beynəlxalq Qanköçürmə Cəmiyyəti olub.**

Hər il dünyada, təxminən, 117 milyon donor qeydiyyatdan keçir. Hazırda 62 ölkə könüllülərin təmənnasız verdiyi qan hesabına tam qan ehtiyatına malikdir. Bəs ölkəmizdə bu sahədə vəziyyət necədir?

**“Qan Donorları Assosiasiyası” İctimai Birliyinin sədri Fuad Əsgərov dedi:**

– Respublikada irsi qan xəstəliklərindən əziyyət çəkən xeyli insan var və məhz bu amil qana olan tələbatı artırır. Assosiasiya 2008-ci ildən fəaliyyət göstərir və etiraf etmək lazımdır ki, bu illər ərzində həyata keçirdiyimiz layihələrin hər biri qan xəstəliklərindən əziyyət çəkən insanlara dəstək olub. Qan həyat üçün o qədər zəruridir ki, tibb elminin inkişafından asılı olmayaraq onun alternativi yoxdur. Yaxşı olar ki, hər bir sağlam insan könüllü olaraq ildə bir neçə dəfə qan versin.






Ölkəmizdə sosial şəbəkələrdə müxtəlif qan qruplarının axtarışı onu göstərir ki, qana ciddi tələbat var. Qan Donorları Assosiasiyası olaraq, donorluğun təbliği istiqamətində müəyyən nailiyyətlər əldə etmişik. Birlik qısa müddətdə Dünya Qan Donorları Cəmiyyətləri Federasiyasına üzv olmaqla bir çox beynəlxalq layihələrin icrasında iştirak edib. Bu günə qədər səkkiz dəfə Gənc Qan Donorlarının Beynəlxalq Forumunda ölkəni təmsil etmişik. İlk dəfə paytaxt və regionlarda forumlar keçirərək geniş təbliğat aparmaqla yanaşı, daimi donorları mükafatlandırmışıq. Hazırda əsas məqsədimiz düşərgələrin yaradılmasıdır. Qan donorları və onların ailə üzvləri yay və qış düşərgələrində sağlamlıq sahəsində maarifləndirilir. Burada əsas məqsəd donorun sağlamlığını qorumaqdır.

**– Qan donoru olmaq üçün kim müraciət edə bilər?**

– Sağlamlıq imkanı icazə verən hər kəs qan donoru ola bilər. Qanvermə çox humanist bir addımdır və buna qərar verən insanlara böyük hörmətlə yanaşırıq. Amma hər kəs donor ola bilməz. Bunun üçün boy ölçüsü və çəki əhəmiyyət kəsb edir. Boyu 160 santimetrdən, çəkisi 60 kiloqramdan yuxarı olan, eyni zamanda, qan xəstəliyi (viruslar) olmayan şəxslər rahatlıqla qan bankına yaxınlaşıb qanvermədə iştirak edə bilərlər. Qeyd etmək lazımdır ki, qanvermənin insan sağlamlığına böyük faydası var. Çünki bütün bədən hüceyrələri yenilənir və yeni qan orqanizmdə daha yaxşı dövr edir. Kişilər ildə 3 dəfə, qadınlar isə 4 dəfə rahatlıqla könüllü qanverməyə qatıla bilərlər.

**– Qan verməzdən öncə hansı qaydalara əməl edilməlidir?**

– Öncə qan verməyə gedən insan normal yatmalıdır. İki sutka ərzində spirtli içki qəbul edən qan verməməlidir. Qan verən insan əvvəlcə qidalanmalıdır. Əks halda, qanvermədən sonra başgicəllənmə, ürəkgetmə ola bilər. Yaxın üç ay ərzində qan verən insan yenidən qan verə bilməz. Bu, onun sağlamlığına ziyandır. Hamilələrə və yeni əməliyyat olunmuş insanlara da qan vermək qadağandır.

**– Ölkəmizdə qan donorluğuna münasibət necədir?**

– Bu sual bizə çox ünvanlanır, amma hər zaman cavablar fərqli olur. Məsələn, Ramazan ayında, yay aylarında qan verən insanların sayı azalır. Düzdür, bunun səbəbləri də var. Amma bir şeyi bilmək lazımdır ki, qan insana onun həyatı təhlükədə olduğu zaman köçürülür. Qan yoxdursa, demək, xəstəni xilas etmək də mümkün deyil. Ölkəmizdə qan ehtiyatları qan ehtiyacından həmişə az olub. Çünki ölkədə minlərlə irsi qan xəstəliklərindən əziyyət çəkən insan var və onlara ayda bir neçə dəfə qan köçürülür.

Bizdə insanlar qan vermək üçün daim dəvət gözləyir. Bu isə istənilən cəmiyyət üçün problemdir. Qanvermə artıq bir tibbi mədəniyyətə çevrilməlidir. İnsan həyatını xilas etmək üçün dəvət gözləmək yanlışdır. Amma qan verəcəyi günü bilən daimi donorlar da az deyil. Onlar, sözün əsl mənasında, qəhrəmandırlar. Biz onları “qan xeyriyyəçiləri” adlandırırıq. Çünki “donor” sözünün mənası da “ianə edən” deməkdir.

**– Qan donorluğu ilə bağlı maarifləndirilmə səviyyəsi sizi qane edirmi?**

– Maarifləndirmə hər zaman yenilənməlidir və bu işdə KİV-in də üzərinə məsuliyyət düşür. Efir məkanlarında donorluğu təbliğ edən verilişlər, demək olar ki, mövcud deyil. Sosial öhdəlik tam icra olunmadığından vətəndaş cəmiyyətlərinin də yükü artır. Assosiasiya yalnız maarifləndirmə işləri deyil, eyni zamanda, donorların həvəsləndirilməsi, onlara diqqət və qayğı göstərmək üçün müxtəlif yerli və beynəlxalq düşərgələr, istirahət layihələri həyata keçirir. Bizim fəaliyyətin kökündə genefondun qorunması dayanır. Gələcək nəslin sağlam böyüməsi üçün bütün gücümüzü səfərbər etməliyik.

*Söhbəti yazdı: Zərifə BƏŞİRQIZI, “Xalq qəzeti”*

# Sosial Müdafiə Fondunun gəlirləri artıb

**Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri bu ilin 5 ayında proqnozla müqayisədə 7 faiz və ya 168 milyon manat çox olmaqla 2 milyard 686 milyon manat təşkil edib. Bu barədə fonddan aldığımız məlumatda bildirilir.**



Fondun gəlirləri tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları yanvar–may aylarında proqnoza nisbətən 9 faiz və ya 168 milyon manat artaraq 2 milyard 70 milyon manat olub.

Qeyd olunur ki, son 5 ayda DSMF-nin xərcləri 2 milyard 506 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 15 faiz və ya 328 milyon manat çoxdur.

Həmçinin bidirilir ki, fond tərəfindən iyunun 9-da Bakı və Sumqayıt şəhərləri, eləcə də, Abşeron rayonu üzrə iyun ayının pensiyaları ödənilib. Yaxın günlərdə digər bölgələr üzrə bu ayın pensiyaları, həmçinin güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin pensiyaları da ödəniləcək.

Xəbərdə qeyd olunur ki, may ayınadək pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 16 faiz çox olmaqla 2 milyard 366 milyon manat vəsait yönəldilib. Pensiyaların orta aylıq məbləği 18 faiz artaraq 433 manata, yaşa görə pensiyaların orta aylıq məbləği 17 faiz artaraq 466 manata çatıb.

Bu ilin yanvar–may ayları ərzində 15 min 700, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən isə 87 min 100 pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

*Z.HÜSEYNOVA, “Xalq qəzeti”*



# Ümummilli liderin Güney sevgisi

**Ümummilli lider, böyük dövlət xadimi Heydər Əliyevin dünya azərbaycanlılarının birliyi və həmrəyliyi ideyasının gerçəkləşməsində ən böyük vəhdət ərazi birliyindən də əvvəl, mədəni və mənəvi birliyə nail olmaq idi. Heydər Əliyevin Güney Aərbaycan mövzusuna həssaslığının mayası bu amaldan nəşət tapırdı.**

Heydər Əliyevin SSRİ dövründə təhlükəsizlik orqanlarında çalışan zaman Cənubi Azərbaycanda milli-azadlıq hərəkatının genişlənməsi istiqamətində və orda milli qüvvələrlə birgə işi barədə məlumat o qədər də geniş yayılmamışdır. Buna baxmayaraq, 1944–1945-ci illərdə Cənubi Azərbaycanda baş verən milli azadlıq hərəkatında, siyasi və ictimai təşkilatların yaradılmasında, müstəqillik ideyalarının formalaşmasında bu zaman artıq dövlət təhlükəsizliyi sahəsində çalışan gənc Heydər Əliyevin iştirakı bioqraflar tərəfindən qeyd olunur.

Maraqlıdır ki, Heydər Əliyev haqqında ilk şeiri də cənublu şair Bulud Qaraçorlu Səhənd yazmışdır. Marağalı şair Bulud Qaraçorlu Səhəndin 1974-cü ildə Heydər Əliyevə ünvanladığı "Elimin dayağı, yurdumun fəxri Heydər müəllimə" adlanan şeir məktub formasında yazılıb:

*Mən istərdim doğma bir qardaş kimi*
*Oturub, əyləşib danışam Sənlə.*
*Bir məsləkdaş kimi, bir yoldaş kimi*
*Söz-söhbət açaydım ana Vətəndən.*

1970-ci illərin ortalarında yazılan bu məktub-şeir güneyli şairin Heydər Əliyevin şəxsində öz məsləkdaşını görməsi ilə əlaqədar idi. Ən azı məlum idi ki, Heydər Əliyev sovet vətəndaşı olmaqdan çox, bir azərbaycanlı olaraq fəaliyyət göstərirdi. Bu istiqamətdə onun fəaliyyətinin əsasını Güneydə yaşayan azərbaycanlıların milli kimlik şüurunu oyatmaq, Güney Azərbaycanın problemlərinə nüfuz etmək, ana dilində dərsliklər, qəzetlər çap etmək, milli dildə şeirlər və əsərlər yazan yerli ziyalıları dəstəkləmək və s. məsələlər təşkil edirdi.

"Elimin dayağı, yurdumun fəxri" şeirinin özəllikləri çoxdur. Ən başlıcası isə budur ki, bu şeir, dediyim kimi, ümumiyyətlə, Heydər Əliyevə həsr olunmuş ilk şeirdir. Ümumazərbaycan kontekstində bu şeir Heydər Əliyevlə bağlı ümummilli lider anlayışını irəli sürən ilk ədəbi mətndir: "Bu gün millətimin dayağı Sənsən, / Elimin çörəyi halalın olsun! / Dünyalar durduqca əsən dur, əsən! / Sənə göz dikmişdir bütün Vətənin!"

Səhənd Heydər Əliyevin yanına ağrılarından bəhs etmək, danışmaq, dərdləşmək üçün gəlirdi. "Dağlar boyda ağır dərdi özümlə, Təbrizdən Bakıya daşıdım ancaq", - yazırdı. Heydər Əliyev, görünür, o zaman yalnız bu taydakı azərbaycanlıların deyil, o taydakı həmvətənlərimizin də pasibanı, himayəçisi, ümid yeri idi. Və təkcə ümid yerimi? Yeri gələndə mücadilə etməkdən çəkinməyən qorxmaz, fədakar vətən övladı!

Cənubi Azərbaycan problemi Heydər Əliyev üçün daim prioritet məsələ olmuşdur. Ulu öndər 12 iyun 1981-ci ildə ölkə yazıçılarının VII qurultayındakı nitqində toxunduğu çoxsaylı məsələlər kontekstində Cənub ədəbiyyatı ilə bağlı məqamları da həssaslıqla ədəbi yaddaşın dövriyyəsinə daxil etməyi unutmurdu: "Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər. Yaradıcılıq ittifaqının rəhbərliyi onlara daim diqqət yetirməli, onların əsərlərini respublikada və respublikanın hüdudlarından kənarda geniş təbliğ etməlidir. Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmləndirmək, mədəniyyətin və mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, bizdə toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barədə düşünmək lazımdır".

Bu, adi diqqət deyildi. Demək olar ki, cənub məsələsi Heydər Əliyevin varlığında illərlə yol gəlirdi. Məqamı gəldikcə, içində borc kimi daşıdığı niyyətini söz, ideya, əməl səviyyəsində gerçəkləşdirirdi. Bunu sənət adamlarının hər birinin mətnlərində dil açıb danışan yaddaş lövhələri də sübut edir.

Kremlin yüksək kürsüsündə əyləşib milli ideologiyaya xidmət edən bir siyasətçinin təəssübkeşliyi rəhbərlik üçün qəbul ediləsi hal olmasa da, Heydər Əliyev bilərəkdən "üzü küləyə" gedənlərdən idi. Bilirdi ki, qabartdığı hər ideyadan, hər toxunuşdan sonra əməl və hərəkat dirçəlişi gəlir. Elə 1981-ci ildə etdiyi çağırışdan sonra da ədəbi-elmi düşüncə sferasında Azərbaycan ədəbiyyatının bütövlüyü və Güneydə yaşayan yazıçılarla əlaqələrin yaradılması istiqamətində mühüm addımlar atılmağa başlandı.

İran İslam Respublikasında yaşayan Məhəmmədhüseyn Şəhriyar kimi qüdrətli sənətkarı bu bəyanatlardan sonra daha dərindən tanımağa, təbliğ etməyə başladılar. Xalq şairləri Süleyman Rüstəmin və Məmməd Rahimin Məhəmmədhüseyn Şəhriyarla şeirləşmələri, xalq şairləri Bəxtiyar Vahabzadə və Nəbi Xəzrinin ustad şairlə telefon danışıqları böyük rezonans yaradan amillər idi. Əslən güneyli olan, lakin taleyin hökmü ilə Azərbaycanın şimalında yaşayıb-yaradan Balaş Azəroğlu, Mədinə Gülgün, Hökumə Billuri, Söhrab Tahir, Əli Tudə və başqa şair və yazarların Güney Azərbaycanda əsaslı tanınma dövrü həmin illərdə baş verdi.

Ədəbiyyatımızda Güney mövzusunda yeni əsərlər meydana qoyuldu. Onun təşəbbüsü ilə əslən cənublu olan Balaş Azəroğlu Yazıçılar İttifaqının katibi seçildi. Eləcə də ilk dəfə olaraq Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunda Cənub ədəbiyyatı ilə bağlı şöbə açıldı, Cənubi Azərbaycan ədəbiyyatının araşdırma mərkəzinin təməli qoyuldu. "Cənubi Azərbaycan ədəbiyyatı milli sərvətimizdir" məqaləsində Teymur Əhmədov yazırdı ki, "Mirzə İbrahimovun ürəyində bəslədiyi nisgilli arzusunu rus sovet imperiyasının hakimiyyəti dövründə demokratik ab-havanın hiss olunduğu 70-80-ci illərdə rəsmi qadağaların mövcud olduğu şəraitdə həyata keçirmək olduqca müşkül idi. Lakin respublika rəhbəri Heydər Əliyev müdrik alim-yazıçı Mirzə İbrahimovun təşəbbüsünü bəyənib onun Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərkibində Cənubi Azərbaycan ədəbiyyatı şöbəsini yaratmasına rəsmi göstəriş verdi".

Göründüyü kimi, Heydər Əliyev hələ sovet rejimi dövründə Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələrin yaradılmasının əsasını qoymuş, qarşılıqlı münasibətlərin möhkəm təməlini atmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkə Prezidenti Heydər Əliyevin yeni tarixi epoxada apardığı məqsədyönlü siyasət nəticəsində bu sağlam əlaqələr daha da genişlənmiş və möhkəmlənmişdir.

Məhəmmədhüseyn Şəhriyar Heydər Əliyevin ən çox sevdiyi şair idi. Ulu öndər vaxtilə ona ünvanlanan 21 sualın içində yer alan "Ən sevdiyiniz şair kimdir?" sorğusuna Şəhriyarın adını çəkərək cavab vermişdir. O, Şəhriyarın ədəbi irsini daim yüksək qiymətləndirmiş, onu böyük vətənpərvərlik duyğularının tərənnümçüsü olan filosof şair, "Şərqin çox geniş bir regionunda insan mənəviyyatının zənginləşməsində böyük rol oynayan" mütəfəkkir adlandırmışdır. Bu mənada, sevgisinin qaynağı Şəhriyarın şeirlərindəki şairanəliyin gücünə bağlı amil idi.

***Elnarə AKİMOVA,***
***AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru***



# Məktəblər ağır durumdadır

**İran təhsil nazirinin müavini Həmid Rza Xanməhəmmədi ölkədə bu sektorun vəziyyəti barədə açıqlamasında tənqidi fikirlərə də yer verib.**

Nazir müavini deyib: "İranda mövcud olan məktəblərin ən azı 11 faizi istifadəyə yararsızdır və məktəblərin dövlət vəsaiti hesabına yenidən qurulması üçün 50 il lazımdır". O bununla yanaşı, 7 min məktəbin içməli su təminatının olmadığını bildirib.

Əslində, bütün bunlar gözlə görünən mənzərədir. Təhsilin problemlərindən sükutla keçilən açıqlamada çoxsaylı xalqların ana dilində təhsil almaq hüququnun pozulması kimi məsələyə diqqət yetirilməməsi hakimiyyətin bu mövzuya heç bir önəm verməməsinin göstəricisidir.

***Rəhman GƏNCƏLİ***

# Məmurlar da həbs edilir

**Şərqi Azərbaycanın yeni salınmış Səhənd şəhərində bələdiyyə məmurları və Şəhər Şurasının üzvləri həbs edilib. Bu barədə Üskü şəhərinin Ümumi və İnqilab Prokurorluğu məlumat yayıb.**



Məlumatda saxlanılanların kimliyi və sayı barədə açıqlama verilməyib. Lakin onların korrupsiya, mənimsəmə və vəzifə səlahiyyətlərindən sui-istifadədə ittiham olunduğu bildirilir. Həbs əməliyyatının Təhlükəsizlik və Kəşfiyyat Nazirliyinin (ETTELAAT) əməkdaşları tərəfindən keçirildiyi və Səhənd Şəhər Şurasının ofisinin bağlandığı qeyd edilib.

Xatırladaq ki, Beynəlxalq Şəffaflıq Təşkilatının fevralın əvvəlində yaydığı hesabatda İran ən çox korrupsiyaya uğramış ölkələr arasındadır.

Hesabata görə, dünyanın 180 ölkəsi arasında korrupsiyaya görə İran 25 balla 147-ci yerdədir və dünyanın ən korrupsiyalaşmış ölkələrindən biri hesab olunur. İran ötən illə müqayisədə builki siyahıda üç pillə geriləyib. İran, hətta Uqanda, Mozambik, Madaqaskar, Liberiya, Kamerun, Pakistan və Qırğızıstan kimi ölkələrdən də aşağı düşüb.

***Hüseyn RƏHİMZADƏ***



# "Azər elinin bir yaralı nisgiliyəm mən"

**Azərbaycan dilində şeirin nadir incilərini yaradan ustadlarla adı birgə çəkilən və ədəbi düşüncənin zirvəsində dayanan əbədiyaşar soydaşlarımızdan biri də Məhəmmədhüseyn Şəhriyardır. Şəhriyar təkcə Azərbaycanın deyil, bütün Şərq aləminin böyük iftixarı və söz ustadıdır.**

Kövrək və həssas qəlbli şairin bədii irsi mövzu dairəsinə, aktuallığına görə zəngin və çoxşaxəlidir. O, daim Azərbaycan xalqının tarixi, zəngin mədəniyyəti ilə fərəh duymuş və əsərlərində də bunu tərənnüm etmişdir. Azərbaycan şairin əbədi qibləgahı, poetik manifestidir:

*Könlüm quşu qanad çalmaz,*
*sənsiz bir an, Azərbaycan,*
*Xoş günlərin getmir müdam,*
*gözlərimdən Azərbaycan!*

Bütövlükdə, Azərbaycan mövzusu Şəhriyar yaradıcılığının əsas istiqamətidir. Ana dili məsələsi isə bu mövzunun tərkib hissəsidir. Şairi doğma dilin vəsfi, yaşadılması və qorunmasına həsr edilmiş, ictimai-siyasi məzmunda yazdığı "Türkin dili" şeirini hələ 1969-cu il də Pəhləvi rejimi zamanı İranda Azərbaycan dilinin qadağan olunduğu dövrdə yazmışdır.

Akademik İsa Həbibbəyli bu şeirlə bağlı yazır: "Türkin dili" şeiri, ilk növbədə, böyük cəsarətin ifadəsidir. Bu şeir indiyədək ana dilimiz haqqında yazılmış şeirlərin ən kəsərlisi və qürurlusudur. Şəhriyar ana dilini, sadəcə, tərənnüm etməmiş, böyük vətəndaşlıq cəsarəti ilə doğma ana dilinin mübariz keşiyində dayandığını bəyan etmişdir". Xalqın qədim tarixi olan lətafətli dilinin təhriflərə məruz qalması, türkcənin bir ləhcə deyil qüdrətli, ahəngdar bir dil olduğunu sübuta yetirmək cəhdi şairin anadilli divanının yaranmasında həlledici rol oynamışdır:

*Türkin dili tək sevgili, istəkli dil olmaz,*
*Ayrı dilə qatsan bu əsil dil əsil olmaz.*
*Öz şerini farsa, ərəbə qatmasa şair,*
*Şeri oxuyanlar, eşidənlər kəsil olmaz.*

"Fars şairi çox sözlərini bizdən aparmış" – deyən cəsarətli şairin anadilli ədəbi məktəbi, ümumiyyətlə, İranda birmənalı qarşılanmamışdır. 30 il fars dilində yazıb-yaradan şairin bu qədər uzun fasilədən sonra öz dilinə, el-obasına, xalqının daxili aləminə qayıdışı, mənəvi yaddaşa dönüşü böyük əks-səda doğurmuşdur.



Bu, yalnız Güney Azərbaycanda Azərbaycan dilinin yasaq edilməsi, yaxud xalqın ana dilində yazılmış ədəbiyyata, şeirə həsrəti ilə bağlı deyildi. Bu dönüş, hər şeydən əvvəl, nisgilli şairin doğma vətənə tükənməz məhəbbətindən, xalq həyatına bağlılığından, vətəndaşlıq borcundan qaynaqlanmışdı:

*Dedim, Azər elinin bir*
*yaralı nisgiliyəm mən.*
*Nisgil olsam da, gülüm,*
*bir əbədi sevgiliyəm mən,*
*El məni atsa da,*
*öz güllərimin bülbülüyəm mən,*
*Elimin farsca da dərdini*
*söylər diliyəm mən.*

Həm ana dilində, həm də fars dilində yazdığı əsərləri ilə könülləri fəth edən Məhəmmədhüseyn Şəhriyarın yaradıcılığını təhlil edən akademik İsa Həbibbəyli şairin hər hansı dildə yazmağından asılı olmayaraq fitri istedadından bəhs edərək – "Azərbaycan dilində yazılmış əsərlərində Şəhriyar daha çox milli, farsdilli şeirlərində isə bəşəridir"– deyərək, onun hər iki dilin poetik zirvəsini fəth etdiyini xüsusi vurğulayır. Mənsub olduğu millətin dilində onun ruhuna xitab etməsi şairə əbədiyaşarlıq haqqı bəxş etdi.

Zamanında Məhəmməd Əmin Rəsulzadə Şəhriyarın bənzərsiz yaradıcılığında xəlqiliyə diqqət yetirərək demişdi: "Təbiət ünsürlərini təbii dillə dilləndirən şair səmimi xalq sevgisini hər cür məcazilikdən uzaq, canlı bir tablo ilə təsvir edirdi". Şəhriyarın bu baxımdan anadilli şeirləri içərisində Azərbaycan türkcəsi ilə yazılmış "Heydərbabaya salam", "Səhəndim", "Türkün dili", "Dərya elədim", "El bülbülü", "Behcətabad xatirəsi", "Türkiyəyə xəyali səfər", "Aman ayrılıq", "Şatır oğlan" və s. əsərləri nadir poetik nümunələrdir. Bu silsilə ədəbi hadisə olaraq, həm dövrünün şairləri və tədqiqatçıları tərəfindən yüksək qiymətləndirilmiş, həm də xalqın dərin rəğbətini qazanaraq dillər əzbəri olmuşdur.

Şəhriyar poeziyasının sərhədləri aşaraq milyonlarla insanın qəlbində əbədi yer tutması, saysız-hesabsız oxucu tərəfindən bu qədər sevilməsinin səbəbi məhz xalqın tarixi taleyi, acılı-şirinli həyatı, arzu və istəklərinin ustad şairin təcrübəli qələmi, coşqun təbi, yüksək yaradıcı zəkası ilə əlaqədar idi. Ana dilində yazmaq arzusuna 30 yaşından sonra çatan şair uzun müddət Tehranda yaşadığından "Azərbaycan kəndinə xas olan şirin ləhcə, zarafat və təbirlərdən uzaq" düşmüşdür. O, özü də yazırdı ki, "bu dağ basılmış yanıqlı çağlarım mənə "Ey vay, anam" şeirini yaratmağa imkan verdi.

"Dərya elədim" şeirində də ana dilinə olan məhəbbət, iftixar və qürur hissi ifadə olunmuşdur. Doğma ana dilində yazmaqla, onun üzərindən qara buxovları götürdüyünü, bu dilə bir daha ümumxalq məhəbbəti yaratdığını qürurla tərənnüm edən şair aşağıdakı misraları yazır:

*Türki bir ceşmə isə,*
*mən onu dərya elədim,*
*Bir soyuq mərəkəni*
*məhşəri kübra elədim.*
*Türki, vallah, analar oxşağı,*
*lay-lay dilidir.*
*Dərdimi mən bu dəva ilə müdəva elədim.*

Şəhriyar öz yaradıcılığında mənsub olduğu xalqın atalar sözündən, xalq zərbi-məsəllərindən geniş şəkildə faydalanır. Bəzən şair onlardan olduğu kimi istifadə edir, bəzən dəyişərək bədii ruh və forma verir. Məsələn: "İynə xalqı bəzər, özü lüt gəzər" Şəhriyar xalq yaradıcılığının geniş ümmanına tez-tez baş vuran, ordan bəhrələnən şairdir. Yeni söz tərkibləri, yeni cinaslar, orijinal fikirlər onun poetik duyğularının bəzəyidir.

Xalqımızın adət və ənənələrinin bədii tərənnümünə, geniş yer verən şair bir çox atalar sözlərinə, zərbi-məsəllərə və deyimlərə müraciət edir və bunları da məqamında işlədərək, milli kolorit verərək sənət nümunələri yaradır. "Türkün məsəli, folkloru dünyada təkdir" - deyən şair bəzən sözə elə hikmət qatır ki, aforistik kəlam kimi xalq yaddaşına hopur: "Xan yorğanı, - kənd içrə məsəldir, - mitil olmaz", "Kənd əhli bilirlər ki, doşabsız xəşil olmaz", "Missən, a balam, hər sarı köynək qızıl olmaz", "Bir dəfə bunu qan ki, ipəkdən qəzil olmaz" və s.

Uşaqlığı Heydərbaba dağının ətəklərində keçən şairin yaşadıqları və gördükləri onun uşaq yaddaşında silinməz izlər buraxmışdır. Daha sonralar bədii təxəyyülü bu ümmandan bəhrələnmişdir. Xalqın yaşayış tərzini, adət-ənənəsini, milli koloriti, təbiət mənzərəsini "Heydərbabaya salam" poemasında müşahidə etmək mümkündür. "Heydərbabaya salam" poeması başdan-başa xalq dilində, xalq şivəsində yazılmışdır. ...şair xalqı ilə doğma ana dilində dərdləşir. Onların dərd-sərinə ortaq olmağa, bu dərdlərə çarə arayıb axtarmağa çalışır".

Bir çox ədəbiyyatşunaslar "Heydərbabaya salam" poemasını şairin yaradıcılığının zirvəsi, şah əsəri kimi qiymətləndirirlər. Bu əsər səlis bir dil, atəşin bir qəlblə yazılmışdır. Şəhriyar İranda türk dilinin yasaqlandığı bir dövrdə bu dili "Heydərbabaya salam" əsəri ilə ayağa qaldırdı. Uzun illər fars dilində klassik ədəbiyyat inciləri yaradan şairin "Heydərbabaya salam" əsəri ilə yaradıcılığın zirvəsində özünə əbədi heykəl ucaltdı. Şəhriyar adı ilə qoşa səslənən "Heydərbabaya salam", "Türkün dili", "Azərbaycan" və s. şeirləri onun 50 milyonluq Azərbaycan xalqının könlündə əbədi taxt qurmasına özül oldu.

Güney əsilli şair-ədəbiyyatşünas Hökümə Billuri Azərbaycan ədəbiyyatının sevilən ədəbi şəxsiyyəti və böyük söz ustadı Məhəmmədhüseyn Şəhriyar yaradıcılığı ilə bağlı yazmışdır: "Şəhriyar nə qədər təvazökar və qədirşünas sənətkardır. Hafiz şeiri yalnız fars dilinin gülüstanı idisə, Şəhriyar şeiri həm fars, həm də Azərbaycan dilinin xəzənsiz gülüstanıdır. Onun sənət inciləri hər iki dilin ədəbiyyatını daha da əbədiləşdirən ölməz abidələrdir".

***Zülfiyyə İSMAYIL,***
***AMEA Naxçıvan Bölməsi, filologiya üzrə fəlsəfə doktoru, dosent***

Beynəlxalq həyat

# İsveç Ali Məhkəməsi “Qurani-Kərim”in yandırılmasına qarşı deyil

**Rusiya – Ukrayna müharibəsi başlayandan bəri İsveçin NATO-ya üzvlüyü məsələsi gündəmdədir. Lakin bu ölkə Üçtərəfli Sazişin şərtlərinə, verdiyi vədlərə əməl etməyib. Bu səbəbdən də Türkiyə bu günədək İsveçin NATO-ya üzvlük tələbinə veto qoyub. Hazırda həm ABŞ, həm də Qərb İsveçin NATO-ya üzv olması üçün çox çalışır, qarşıya çıxan problemləri həll etmək istəyir. “İsveç NATO-nun strukturuna getdikcə daha çox inteqrasiya olunub. Lakin bizim tam ratifikasiyaya ehtiyacımız var. Bunun baş tutması üçün əlimizdən gələni edirik", - deyə NATO-nun baş katibi Yens Stoltenberq bildirib.**




İyunun 14-də İsveç və Finlandiyanın NATO-ya daxil olması ilə bağlı imzalanan Üçtərəfli Sazişin dördüncü iclasının Ankaradakı Prezident iqamətgahında baş tutacaq toplantısı da bu məqsədə xidmət edir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın mətbuat xidməti bildirib ki, Stokholmun NATO-ya üzvlük istiqamətində irəliləyişini müzakirə etmək üçün NATO, Finlandiya və İsveç arasında iyunun 14-də keçiriləcək görüş planı təsdiqlənib.

Dünyanın gözü bu gərgin görüşə dikildiyi bir vaxtda İsveçdə bir-birinin ardınca iki fərqli qərar verilib. Bu isə "İsveç nə etməyə çalışır?" sualının yaranmasına səbəb olub. Birinci qərarda İsveç Ali Məhkəməsi ölkə polisinin “Qurani-Kərim”in yandırılmasını qadağan edən qərarının təhlükəsizlik baxımından heç bir hüquqi əsası olmadığını bildirib və bu səbəblə onu ləğv edib.

Xatırladaq ki, bu ilin yanvar ayında danimarkalı ekstremist siyasətçi Rasmus Paludan Türkiyənin İsveçdəki səfirliyi qarşısında “Qurani-Kərim”i yandırıb. Həmin vaxt İsveç polisi hadisəyə müdaxilə etməyib. Türkiyə Xarici İşlər Nazirliyi Stokholm şəhərində müqəddəs "Qurani-Kərim"in yandırılmasını pisləyib. Sözügedən təxribatdan sonra NATO-ya üzv olmaq istəyən və Türkiyə tərəfindən veto qoyulan İsveçlə bu ölkə arasında münasibətlər gərginləşib.

Bu hadisədən sonra İsveç polisi fevral ayında paytaxt Stokholmda Türkiyə və İraq səfirlikləri qarşısında “Qurani–Kərim”in yandırılması ilə bağlı iki təxribata icazə verməmisdi. Narazı qalan təxribatçılar Stokholm İnzibati Məhkəməsinə müraciət edəcək qərarın ləğv olunmasını istəmişdilər. İnzibati Məhkəmə isə təhlükəsizlik problemlərinin nümayiş hüququnu məhdudlaşdırmaq üçün yetərli olmadığını bildirərək polisin qərarını ləğv etmiş, bu da İsveç polisinin apellyasiya şikayəti verməsinə səbəb olmuşdu. İsveç Ali Məhkəməsinin qərarından aydın olur ki, bu qurum təxribatçıların tərəfini tutub.

Türkiyə ilə İsveç arasında gərginliyə səbəb olan əsas məsələlərdən biri də bu ölkədən siyasi sığınacaq almış terrorda ittiham olunan PKK fəallarının ekstradisiyasıdır. İsveç tərəfi iddia edir ki, ölkənin NATO-ya qəbulunu təsdiqləmək üçün Ankaranın bütün şərtlərini yerinə yetirib. O ki qaldı konkret şəxslərin Türkiyəyə ekstradisiyası məsələsinə, buna yalnız İsveç məhkəməsi qərar verir, çünki bu, İsveçrə hökumətinin səlahiyyətindən kənardır.

Hər halda İsveçdən gələn ikinci qərarda yumşalma var. Belə ki, İsveç hökuməti 2013-cü ildə Türkiyədə narkotik cinayətlərinə görə məhkum olunan və 5 il İsveçdə yaşayan şəxsin ekstradisiyasına qərar verib. İsveç dövlət televiziyası SVT-yə açıqlama verən Ədliyyə Nazirliyinin Hüquq Komitəsinin sədri Əşrəf Əhməd “İsveç Ali Məhkəməsi sözügedən şəxsin Türkiyəyə ekstradisiyasına iyunun 12-də qərar verdi. Hökumət də bu qərarı qüvvədə saxladı", – deyib.

İstənilən halda Ankara çətin ki, 14 iyunda keçiriləcək məsləhətləşmələrdə Stokholmun NATO-ya üzvlüyünü təsdiq etsin.

***Pünhan ƏFƏNDİYEV***
***“Xalq qəzeti”***

# “Neftçi” Şuşa mərhələsinin qalibi olub

## Dünya qadın seriyasının oyunları dağlar qoynunda uğurla gerçəkləşdi

**Qarabağın döyünən ürəyi, Qafqazın incisi Şuşa yenidən beynəlxalq idman ictimaiyyətinin diqqət mərkəzinə gəlib. Bu dəfə Azərbaycanın qədim şəhəri 3x3 basketbol üzrə dünya qadın seriyasının Şuşa mərhələsinə ev sahibliyi edib.**



Ötən həftə Beynəlxalq Velosipedçilər İttifaqının təqvim planına daxil edilən 2.2 kateqoriyalı beynəlxalq velosiped yarışının sonuncu mərhələsinin marşrutu Şuşa şəhəri idi. Doğma şəhərimizin yoxuşlu, enişli, dolanbac yolları ilə irəliləyən dünya velosiped ailəsinin üzvləri “Zəfər yolu”nda yarışmaq şərəfinə nail oldular. Şuşanın hünər meydanı yenə də dostluq, birlik və ədaləti özündə təcəssüm etdirən idman mübarizəsinə qucaq açıb. Minillər boyu Vətənimizin hər guşəsində bütün millətlərin, xalqların nümayəndələri dostluq və birlik şəraitində yaşayıblar və bu, bu gün də davam edir. Şuşanın düşmən tapdağından azad edildiyi üç ilə yaxın müddət ərzində doğma şəhərimiz dünyanın gözü qarşısında nəinki dirçəlir, hətta dünyanın tərəqqisinə öz töhfələrini verir. Bu gün beynəlxalq idman təşkilatları gözəl Şuşamızda ədalət naminə öz mübarizələrini davam etdirməkdən çox məmnundurlar.

İyunun 12-də startı verilən qadın basketbolçular arasında dünya qadın seriyasının Şuşa mərhələsində Azərbaycan millisi və “Neftçi” (Azərbaycan) komandası doğma azarkeşlərin dəstəyi ilə yüksək zirvəyə qalxacaqlarına ümid edirdilər. A qrupunda yer alan “Neftçi” klubu Rumıniya yığması ilə üz-üzə gəlib. Gərgin və maraqlı mübarizə şəraitində keçən oyunun Azərbaycan təmsilçisinin 20:11 hesablı qələbəsi ilə yekunlaşması onun iddiasının əsaslı olduğunu bildirirdi. Bakı klubu ikinci matçında Türkiyə yığmasına 21:7 hesabla qalib gəlib. Sonrakı mərhələdə turnirin açılış oyununda Türkiyə seçməsini 17:9, Rumıniyanı 21:15 hesabla məğlub edən və yarışın güclülərindən hesab olunan Almaniya yığması komandamıza rəqib olub.

Dünya üçüncüsü olan Almaniya yığması 2023-cü il mövsümünün ilk titulunu qazanmağı qarşıya məqsəd qoymuşdu. Şuşaya 22-23 yaş arası gənc bir komanda ilə gələn yığma həm də yeni istedadları üzə çıxarmaq istəyi var idi. Şuşada yalnız boyu 1,88 metr olan 22 yaşlı istedad Mari Rayhart iştirak edirdi. Son qarşılaşmasında Almaniya yığmasını 16:14 hesabla üstələyən “Neftçi” qrupda birinci yeri tutaraq yarımfinala adlamağa müvəffəq oldu.




B qrupunda yer alan Azərbaycan millisi əvvəl Macarıstana, sonra isə Yaponiyanın G FLOU klubuna 21:6 hesabla məğlub olub. Qrupdakı sonuncu matçda Niderland yığmasına qarşı mübarizə aparan millimiz rəqibə 9:21 hesabı ilə uduzub.

Avropanın nəhənglərindən olan Niderland da B qrupunda qalib gəlmək üçün mübarizə aparıb. Narıncı rəngli qadın oyunçular Niderlandın qrup mərhələsindən çıxa bilmədiyi dünya kubokundan sonra Şuşada güclərini sınadılar. Elə ilk oyunda Niderland yığması inamlı oyunu ilə fərqləndi. Yaponiyanın G FLOU klubu ilə qarşılaşma Avropa təmsilçisinin 15:9 hesablı qələbəsi ilə başa çatdı. Növbəti oyunda Niderland yığması Macarıstana 20:14 hesabı ilə qalib gəlib.

B qrupunun nəticələrindən sonra Niderland seçməsi də yarımfinala adlayıb.

Turnirin ikinci günündə Gənclər və İdman Nazirliyi ilə Elm və Təhsil Nazirliyinin əməkdaşları arasında yoldaşlıq görüşü keçirilib. Dostluq şəraitində başa çatan oyunun yekununda Elm və Təhsil Nazirliyinin komandası qalib gəlib.

Gənclər və idman naziri Fərid Qayıbov da qarşılaşmada iştirak edib

Yarışın ikinci gününə dörddəbir final yarışları ilə start verilib. Macarıstan millisi dörddəbir finalda Rumıniya yığmasını 21:13 hesabı ilə üstələyərək yarımfinalda “Neftçi” komandasına rəqib olub. Yaponiyanın G FLOU klubuna 22:16 hesabla qalib gələn Almaniya seçməsi isə Niderlandla gücünü yoxlamalı olub. Turnirə uğurla start verən “Neftçi” klubunun oyunu bu dəfə də üstün olub. Macarıstan yığması ilə üz-üzə gələn komandamız gərgin mübarizənin yekununda rəqibinə 15-14 hesabı ilə qalib gələrək finala çıxıb.

Yarımfinalda Almaniya millisinə 21:10 hesabı ilə qalib gələn Niderland yığması həlledici oyunda "Neftçi"yə rəqib olub. Bütün mərhələlərdə rəqib tanımayan Bakı təmsilçisi Niderland yığmasını məğlubiyyətə uğradıb yarışın baş mükafatına layiq görülüb.

Bakının “Neftçi” klubunun oyunçusu Derris Karter turnirin ən yaxşı oyunçusu seçilib.

Yarışda A qrupunda Almaniya, Rumıniya, Türkiyə milli komandaları, “Neftçi” (Bakı) klubu, B qrupunda isə Niderland, Macarıstan, Azərbaycan seçmələri və Yaponiyanın G FLOU komandası mübarizə aparıblar.

Beləliklə, Şuşada daha bir beynəlxalq idman tədbiri uğurla başa çatdı.

***Leyla QURBANOVA,***
***“Xalq qəzeti”***

# Çin dollar üçün “ən böyük təhlükə”dir

**ABŞ Prezidentinin silahlara nəzarət üzrə keçmiş nümayəndəsi Marşal Billinqsley bildirib ki, Çin dünya bazarında ABŞ dollarının mövqeyinə ciddi təhlükə yaradır.**



M.Billinqsleyin fikrincə, Pekin Rusiyaya qarşı tətbiq edilən sanksiyalardan dərs alıb və buna görə də ölkənin iqtisadi təhlükəsizliyini gücləndirməyə başlayıb. Məsələn, Çin qızıl ehtiyatlarını artırıb və ABŞ dövlət istiqrazlarına investisiyanı azaldıb. Siyasətçi hesab edir ki, Çin Rusiya və Braziliya ilə birlikdə dolları “əvəz etməyə" çalışır.

“Nəhayət, onlar bunu ABŞ-ı azad dünyanın lideri mövqeyindən uzaqlaşdırmağın bir yolu kimi görürlər. Qısa müddətdə onlar bunu maliyyədən milli təhlükəsizliyimizi təmin etmək üçün alət kimi istifadə etmək qabiliyyətimizi sarsıtmaq kimi görürlər”, – deyə siyasətçi bildirib.

M.Billinqsley iddia edir ki, Çin də bank sektorunun aktivlərini artıraraq maliyyə sistemini sanksiyalara davamlı edir. Bundan əlavə, Çin ciddi məhdudiyyətlər tətbiq etməklə, ABŞ iqtisadiyyatına “cavab zərbəsi vura” bilər.

***“Xalq qəzeti”***

# “Neftçi” irəliləyib, “Qarabağ” isə...

**Futbol klublarının yeni dünya reytinqi açıqlanıb. Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının məlumatına görə, 302 komandanın olduğu siyahıda Azərbaycan təmsilçilərindən “Qarabağ” və “Neftçi” komandaları da yer alıblar.**

“Qarabağ” ötən ayla müqayisədə 4 pillə geriləyib. Azərbaycan çempionu 138,5 xalla 71-ci sıradadır. Aktivində 67 xal olan “Neftçi” isə 21 pillə irəliləyərək 287-ci yerdə qərarlaşıb.

Reytinqdə lider əvvəlki kimi İspaniyanın “Real Madrid” klubudur (313 xal). İngiltərə “Mançester Siti”si 279 xalla ikinci, Braziliya təmsilçisi “Flamenqo” (278 xal) üçüncü yerdədirlər.

# Gimnastlarımız 30 medal qazanıblar

**Monteneqronun Budva şəhərində “Montenegro Cup” beynəlxalq turniri keçirilib. Yarışda ölkəmizi “Ocaq Sport” Klubunun, İxtisaslaşdırılmış Uşaq-Gənclər Olimpiya Ehtiyatları Gimnastika Məktəbinin (Bakı Gimnastika Məktəbi) və Respublika Kompleks İdman Məktəbinin (RKİM) gimnastları uğurla təmsil ediblər. Bakı Gimnastika Məktəbi idmançıları, ümumilikdə, 9 qızıl, 6 gümüş və 4 bürünc medal qazanıblar.**



Məktəbin yetirmələrindən Nuray Qasımzadə (top), Melisa Həsənli (top), Amina Novruzova (çoxnövçülük, alətsiz, top, gürzlər), Hülya Namazlı (top), Ləman Qədimova (gürzlər), Selin Qasımlı (gürzlər) bütün rəqiblərini üstələyərək qızıl medallara layiq görülüblər. Melisa Həsənli (gürzlər, çoxnövçülük), Zəhra Qasımlı (alətsiz, top), Ayan Nəsirova (top, gürzlər) gümüş, Zəhra Qasımlı (halqa, çoxnövçülük), Mədinə Hüseynova (çoxnövçülük, gürzlər) bürünc medallar qazanıblar.

“Ocaq Sport” klubunun təmsilçilərinin bu yarışda qazancı 8 qızıl, 1 gümüş medal olub.

Fatimə Həsənova (çoxnövçülük, alətsiz, top), Selin Yusifova (gürzlər), Gültəkin Vəliyeva (alətsiz), Məryəm Baloğlanova (çoxnövçülük, alətsiz, halqa) qızıl, Məryəm Baloğlanova isə topla hərəkətlərin icrasında gümüş medala sahib olub.

RKİM gimnastı Nur Sadıqova halqa ilə qızıl, gürzlər ilə bürünc medala yiyələnib.

# Xerson vilayətində komendant saatı

**Xerson vilayətinin Ukraynanın nəzarətində olan hissəsində iyunun 13-dən 19-dək komendant saatı elan edilib. Məlumatı UNİAN agentliyi yayıb.**



Bu barədə Kaxovka Su Elektrik Stansiyasında bəndin dağılmasının nəticələrinin aradan qaldırılması üzrə operativ qərargahın “Telegram” kanalında bildirilir. Məlumata görə, bölgədə hərəkət məhdudiyyəti saat 15:00-dan ertəsi gün saat 12:00-dək qüvvədə olacaq.

Operativ qərargahın məlumatına görə, sakinlər saat 12:00-dan 15:00-dək humanitar yardımların verilməsi üçün xüsusi təchiz olunmuş məntəqələrdən dərman, ərzaq və içməli su ala bilərlər.

Ukrayna Daxili İşlər Nazirliyi Kaxovka su elektrik bəndinin dağıdılmasından sonra baş verən daşqınlar nəticəsində azı 10 nəfərin öldüyünü, 41 nəfərin isə itkin düşdüyünü təsdiqləyib. Həmçinin bildirilir ki, Xersonda yerli həkimlərlə yanaşı, İsraildən olan könüllülər də zərərçəkənlərə tibbi yardım göstərirlər. Su basmış ərazilərin daim atəşə tutulmasına baxmayaraq, insanların təxliyəsi və müalicəsi davam edir.

***“Xalq qəzeti”***

# Minifutbol klubumuz Arxangelskdə ikinci olub

**Rusiyanın Arxangelsk vilayətində keçirilən minifutbol üzrə ikinci liqanın finalında “Azərbaycan” və “Krasnaya Zvezda” komandaları qarşılaşıblar. Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.**



A.F.Liçutin adına Bədən Tərbiyəsi və İdman Kompleksində baş tutan oyun “Krasnaya Zvezda”nın 9:6 hesablı qələbəsi ilə yekunlaşıb. Finaladək 17 oyunda 15 qələbə qazanan və 163 qol vuran “Azərbaycan” komandası birinci liqaya keçib. İkinci liqanın ən yaxşı bombardiri adına Rafiq Qoçəliyev layiq görülüb. Soydaşımız “Azərbaycan” komandasına 78 qol qazandırmaqla bütün liqalar üzrə rekorda imza atıb.

Cari ildə yaradılmış “Azərbaycan” minifutbol klubu kubok turnirindəki debütünü müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edib.

Qeyd edək ki, komandanın sponsoru “Arxangelsk vilayətinin Azərbaycan diasporu” regional ictimai təşkilatıdır.

***L.AZAD, “Xalq qəzeti”***

Təkrar

# “Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti” PHŞ

*Ağdam rayonunun Kəngərli kənd yaşayış məntəqəsində 2, 3, 4 və 5 otaqlı fərdi yaşayış evlərinin tikintisi işlərinin satın alınması üçün*

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən “Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti”-nin satınalma şöbəsindən əldə edə bilərlər.

İştirak haqqı 1500,00 ( bir min beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs- Bərpa və yenidənqurma departamenti müdirinin müavini İntizam Novruzov – i.novruzov@qbti.gov.az və baş məsləhətçi Zabil Vəliyev - z.valiyev@qbti.gov.az, telefon- +99450 466 12 66.

İşlərin qısa təsviri:

292 ədəd 2, 3 , 4 və 5 otaqlı fərdi yaşayış evlərinin, klub icma mərkəzinin, kitabxananın və s. tikintisi.

Təşkilat- “Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti” Publik Hüquqi Şəxs

VÖEN- 3201635961
Bank- “ABB”nin Mərkəz filialı
Kod- 805722
VÖEN- 9900001881
H/h- AZ95İBAZ38030019443196817204
M/h- AZ03NABZ01350100000000002944
SWIFT İBAZAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- tender iştirakçısının tam adı, nizamnaməsi və (hüquqi şəxslər üçün) qeydiyyatdan keçdiyi rekvizitləri;
- malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19);
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir);
- iddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir);
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir);
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir);
- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı;
- malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir);
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları;
- baş podratçı kimi son beş il (2018-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 10 (on) milyon manatdan az olmayan, müraciət edənin isə ən azı 5 (beş) milyon manat olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq, layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı 2 (iki) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və təsdiqedici sənədlər təqdim edilməlidir;
- son beş il ( 2018-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində tikinti- quraşdırma işləri üçün ən azı 15 (on beş milyon mamat) milyon manat dövriyyə tələb olunur və TMV-nin 1.6-cı bəndində tələb edilən digər sənədlər.

**Qeyd-** tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər hər bir şirkət üçün ayrılıqda təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 13 iyul 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 21 iyul 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən “Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti”nin Satınalma şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən “Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti”nin inzibati binasında 24 iyul 2023-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışı prosudurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

Təkrar

# “Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti” PHŞ

*Ağdam rayonunun Sarıcalı kənd yaşayış məntəqəsində 2, 3 , 4 və 5 otaqlı fərdi yaşayış evlərinin tikintisi işlərinin satın alınması üçün*

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları oxşar təcrübəyə, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən “Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti”nin satınalma şöbəsindən əldə edə bilərlər.

İştirak haqqı 1500,00 ( bir min beş yüz manat) manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs- Bərpa və yenidənqurma departamenti müdirinin müavini İntizam Novruzov – i.novruzov@qbti.gov.az və baş məsləhətçi Tural Rzayev- t.rzayev@qbti.gov.az, telefon- +99455 489 98 20.

İşlərin qısa təsviri:

203 ədəd 2, 3 , 4 və 5 otaqlı fərdi yaşayış evlərinin, klub icma mərkəzinin, kitabxananın və s. tikintisi.

Təşkilat- “Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti” Publik Hüquqi Şəxs

VÖEN- 3201635961
Bank- “ABB”nin Mərkəz filialı
Kod- 805722
VÖEN- 9900001881
H/h- AZ95İBAZ38030019443196817204
M/h- AZ03NABZ01350100000000002944
SWIFT İBAZAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 65 bank günü ərzində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- tender iştirakçısının tam adı, nizamnaməsi və (hüquqi şəxslər üçün) qeydiyyatdan keçdiyi rekvizitləri;
- malgöndərənin (podratçının) işin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə konkret subpodratçının adı göstərilməklə məlumatlar (əlavə №19);
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir);
- iddiaçının satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması (şəxsin səlahiyyətli olması barədə əmr təqdim edilməlidir);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir);
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir);
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə arayış; (tender elanından sonrakı tarixdə alınmış sənəd təqdim edilməlidir);
- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı;
- malgöndərənin (podratçının) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti (vergi orqanının rəsmi blankında və ya elektron sənədin notarial qaydada təsdiq edilmiş surəti təqdim edilməlidir);
- kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları;
- baş podratçı kimi son beş il (2018-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ümumi məbləği 8 (səkkiz milyon manat) milyon manatdan az olmayan, müraciət edənin isə ən azı 4 (dörd milyon manat ) milyon manat olan (müraciət edən müqaviləni birgə müəssisənin üzvü kimi icra etmişdirsə) və oxşar işi əhatə edən (oxşarlıq, layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) ən azı 2 (iki) sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və təsdiqedici sənədlər təqdim edilməlidir;
- son beş il ( 2018-ci il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində tikinti- quraşdırma işləri üçün ən azı 10 (on milyon manat) milyon manat dövriyyə tələb olunur və TMV-nin 1.6-cı bəndində tələb edilən digər sənədlər.

**Qeyd-** tenderdə iştirak üçün iki və ya daha artıq tərəfdaş şirkətdən ibarət birgə müəssisə yaratdıqda, TMV-nin 1-ci və 2-ci bəndlərində tələb olunan sənədlər hər bir şirkət üçün ayrılıqda təqdim edilməlidir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 20 iyul 2023-cü il saat 16.00-a, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 28 iyul 2023-cü il saat 16.00-a qədər Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən “Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti”nin Satınalma şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender iştirakçılarının təklifləri Bakı şəhəri, Yasamal rayonu, Zahid Xəlilov küçəsi 53 nömrəli ünvanda yerləşən “Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti”nin inzibati binasında 31 iyul 2023-cü il saat 16.00-da açılacaqdır.

Tender iştirakçılarının səlahiyyətli nümayəndələri zərflərin açılışı prosudurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

*Sənət bayramı*

# Qonaqlı-qaralı Kukla Teatrı

**Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında ümummilli lider Heydər Əliyevin anadan olmasının 100, Azərbaycan peşəkar milli teatrının yaranmasının 150 illiyi ilə əlaqədar “Kukla teatrları həftəsi” öz işinə başlayıb.**

Ötən gün baş tutan açılış mərasimi balaca teatrsevərlər üçün nəzərdə tutulmuş maraqlı tamaşalarla yadda qaldı. Uşaqların ən sevimli tamaşaları olan “Ağca və yeddi cırtdan”, “Üç donuz balası”, “Qırmızıpapaq”, “Gözəl və bədheybət” böyük şövqlə teatrın səhnəsində nümayiş olundu.

Sonra Gəncə Dövlət Kukla Teatrının aktyor heyətinin ifasında görkəmli şair, dramaturq Rəsul Rzanın “Ana Qaz” şeirinə həsr olunmuş tamaşa təqdim olundu.

Tamaşanın quruluşçu rejissoru və musiqi tərtibatçısı Şamil Məmmədli, xoreoqrafı Əməkdar artist Fərmail Paşayev, quruluşçu rəssamı Məhəmməd Hacıyevdir. Səhnə əsərini Gəncə Dövlət Kukla Teatrının aktyorları Zülfiyyə Əliyeva, Səməd Xanəhmədov, Məhəmməd Hacıyev, Nahidə Namazova, Nərmin Şərifova ifa edirlər.

Tamaşadan sonra Azərbaycan Dövlət Kukla Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi Rəşad Əhmədzadə Gəncə Dövlət Kukla Teatrının rəhbəri Fərmail Paşayevi teatrın adından mükafatla təltif etdi.



Qeyd edək ki, “Kukla teatrları həftəsi” iyunun 17-dək “açıq qapı” formatında reallaşacaq. Bölgələrdə fəaliyyət göstərən kukla teatrlarının yaradıcılıq əlaqələrini daha da genişləndirmək, təcrübə mübadiləsinə nail olmaq və onların yaradıcılıq imkanlarını paytaxt teatrsevərlərinə təqdim etmək məqsədilə ölkənin bütün kukla teatrları bir səhnədə toplaşacaq.

Tamaşa nümayişləri ilə yanaşı, həftə çərçivəsində müasir uşaq ədəbiyyatı, kukla teatrları və onun çağdaş inkişaf tendensiyaları, eləcə də teatr–tamaşaçı əlaqələri ilə bağlı müzakirələr də təşkil olunacaq.

***Fidan HÜQUQQIZI,***
***Elşən AĞALAROV (foto),***
***“Xalq qəzeti”***

# “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan müxtəlif təyinatlı xortumların satın alınması məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il iyunun 23-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

# AZƏRBAYCAN DÖVLƏT BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASI

## *FAKÜLTƏ DEKANI VƏ KAFEDRA MÜDİRİ VƏZİFƏLƏRİNƏ MÜSABİQƏ ELAN EDİR*

KÜTLƏVİ TƏTBİQİ İDMAN FAKÜLTƏSİ
Dekan – 1 ştat

MƏŞQÇİLİK FAKÜLTƏSİ
Dekan – 1 ştat

FİZİKİ HAZIRLIQ KAFEDRASI
Kafedra müdiri – 1 ştat

İDMAN TİBBİ VƏ REABİLİTASİYA KAFEDRASI
Kafedra müdiri – 1 ştat

KÜTLƏVİ SAĞLAMLIQ İDMAN NÖVLƏRİ KAFEDRASI
Kafedra müdiri – 1 ştat

BƏDƏN TƏRBİYƏSİ VƏ İDMANIN NƏZƏRİYYƏSİ VƏ METODİKASI KAFEDRASI
Kafedra müdiri – 1 ştat

Sənədlər müsabiqə elan olunduğu gündən bir ay ərzində təqdim edilə bilər.
Məlumat telefonu- 012-564-33-75.

***REKTORLUQ***

# “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan kreslo və stulların satın alınması məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il iyunun 22-si saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1263.

Ünvan- Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

# Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

*aşağıdakı kafedralarda vakant vəzifələri tutmaq üçün*

## MÜSABİQƏ ELAN EDİR

1. Hüquq kafedrası üzrə - kafedra müdiri.
2. İntellektual sistemlərin idarə olunması kafedrası üzrə - kafedra müdiri.
3. Dillər kafedrası üzrə - dosent, 2 yer.

Müsabiqədə bu istiqamətlər üzrə elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi olan şəxslər iştirak edə bilərlər. Sənədləri elan dərc olunan gündən bir ay müddətində təqdim etmək lazımdır. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini mövcud əsasnaməyə müvafiq olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana və ya elmikatib55@mail.ru elektron poçtuna təqdim etməlidirlər.

Ünvan-Bakı şəhəri, Lermontov küçəsi 74,4-cü otaq, telefon- 492-76-03.

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 125 (30241) 14 iyun 2023-cü il, çərşənbə
veb-sayt: www.xalqqazeti.az

## Mədəniyyət xəbərləri



***Ukrayna İrpen şəhərinin akademik Zərifə Əliyeva adına liseyinin rəhbər və şagirdlərdən ibarət heyəti Bakıdadır.***

Qonaqlar STEAM İnnovasiyalar Mərkəzi və Bakı Avropa Liseyində oldular. Onlar İçərişəhəri gəzib, Qız qalasına çıxdılar. Həmçinin Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində müxtəlif əsrlərə aid nadir tarixi abidələrə baxıldı.

İprenli nümayəndə heyətinin ekskursiyaları davam edir. Bu gün ukraynalı şagirdlər Fəxri xiyaban, Zərifə Əliyeva adına lisey, Bakı Ali Neft Məktəbi və Qala Arxeologiya Muzeyində olacaqlar.

***



***Regional turizmin inkişafı məqsədilə Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi tərəfindən elan edilmiş qrant müsabiqəsinin qaliblərindən olan Ağsu rayonunun Gəgəli bələdiyyəsi "Tərəkəmə yurdu" folklor turizmi məkanının yaradılması layihəsinin icrasına başlayıb.***

Xatırladaq ki, bir neçə il öncə burada Beynəlxalq Tərəkəmə Çərşənbəsi Folklor Festivalı uğurla keçmişdi. Yeni layihə isə kəndin ərazisində bütün mövsümlərdə tərəkəmə həyat tərzini bir yerdə yaşamaq imkanı yaradır. Kiçik bir tərəkəmə təsərrüfatı əsasında lokal tərəkəmə həyatını xatırladan bir neçə çadırdan ibarət "Axtaçı" adlı turist oba formalaşdırılır. Turistlər həmin obaya gəlib orada müddəti yaşaya, birbaşa tərəkəmə həyatına daxil ola biləcəklər. Onların heyvanların saxlanılması, otarılması, sağılması, qırxılması və s. bütün proseslərə qoşulmaq imkanları olacaq.

***



***Yardımlıda ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş"Uşaqlar bizim gələcəyimizdir" adlı uşaq yaradıcılıq festivalı keçirilib.***

Rayon icra hakimiyyətinin, bir sıra qurumların təşkilatçılığı ilə keçirilən festivalda rayon ümumtəhsil məktəblərinin şagirdləri və məktəbəqədər müəssisələrdə tərbiyə alan uşaqlar iştirak ediblər.

Festivalın əsas məqsədi yaradıcılığın bütün sahələri və müasir istiqamətləri üzrə istedadlı yeniyetmə və gəncləri üzə çıxarmaq idi. Festivalda idman oyunları və rəsm əsərləri nümayiş olunub, həmçinin xüsusi yaradıcılıq qabiliyyəti olan uşaqlar musiqi, şeir və mahnı nümunələri ifa ediblər.

Sonda fərqlənənlərə fəxri fərman və hədiyyələr təqdim olunub.

***Ə.DOSTƏLİ, "Xalq qəzeti"***

## Texnologiya yenilikləri




# "Google Analytics 4" xidməti yenilənib

**"Google Analytics" (GA) "Google" şirkəti tərəfindən təklif olunan veb-səhifələrin trafikini izləyən və onlar haqqında hesabat təqdim edən ödənişsiz veb-analitika xidmətidir. GA vasitəsilə sayt istifadəçilərinin sayı, burada keçirilən vaxtın müddəti və s. parametrlər üzrə məlumatlar əldə etmək mümkündür. Bu barədə İnformasiya Texnologiyaları İnstitutundan məlumat verilib.**

Xəbərdə qeyd edilir ki, GA4 məlumatları əvvəlkindən daha fərqli şəkildə toplayır, saxlayır və təqdim edir. Bununla yanaşı, istifadəçi davranışını daha yaxşı başa düşmək, vacib məlumatları daha sürətli toplamaq, eləcə də istifadəçi məxfiliyinə diqqət yetirmək üçün daha yaxşı texnologiyalardan istifadə edir.

GA4-də ən böyük yeniliklərdən biri isə ənənəvi veb-sayt izləmə ilə yanaşı, mobil proqram məlumatlarının da toplamasının asan olmasıdır.

***"Xalq qəzeti"***

# Təyyarələr elektrik mühərriki ilə uçacaq

**Amerikalı mühəndislər aviasiya sənayesi üçün güclü elektrik mühərriki yaradıblar. Bu barədə Massaçusets Texnologiya İnstitutu (MİT) məlumat yayıb.**



Xəbərdə deyilir ki, MIT mütəxəssisləri təyyarəyə yerləşdirmək üçün uyğun olan 1 meqavatlıq yeni elektrik mühərriki yaradıblar. Müqayisə üçün deyək ki, tipik elektrik təyyarəsi mühərrikinin gücü yüzlərlə kilovatla ölçülür. Təyyarə nə qədər böyükdürsə, bir o qədər güclü mühərrik lazımdır və zəif mühərriklər dəstinin yerləşdirilməsi təyyarənin çəkisini artırır və dizaynını çətinləşdirir. Əsas çətinlik həcmi və çəkisini minimuma endirərkən mühərrikin gücünü artırmaq idi.

***S.RZAYEVA, "Xalq qəzeti"***

## Sosial şəbəkələrdən seçmələr

# Həyat, sən nə şirinsən?!



**Son vaxtlar sosial şəbəkələrdə insanları nikbin olmağa, ən kiçik çətinlik və uğursuzluqlar qarşısında ruhdan düşməməyə səsləyən paylaşımların sayı artıb. Fikrimcə, bu, təqdirolunmalı haldır.**

Belə fikir, mülahizə və tövsiyələrin əsas məğzi budur ki, bizim hər birimiz Ulu Yaradanın bizə bəxş etdiyi həyatın hər bir anının, gününün, ilinin, bir sözlə, ömür dediyimiz əvəzsiz dəyərin qədrini bilməliyik.

Yeri gəlmişkən, dünən "Facebook"-dakı dostlarımdan biri böyük şairimiz Bəxtiyar Vahabzadənin məşhur "Həyat sən nə şirinsən?" şeirini paylaşmışdı. Düşünürəm ki, bu gözəl misralar yüzlərlə insana yenidən ruh və mənəvi qida bəxş edəcək.

Şair necə də gözəl deyib:

***"Həyat, sən nə şirinsən?!***
***Kim səndən doydu getdi?!***
***Gedənlər öz qəlbini***
***dünyada qoydu getdi.***
***Səndən doymaq olarmı?!***
***Çoxun, azın da şirin.***
***Həyat qışın da şirin,***
***həyat yazın da şirin".***

***Təqdim etdi:***
***M.HACIXANLI, "Xalq qəzeti"***



# İşıqsaçan köpəkbalığı

**2021-ci ildə Yeni Zelandiyanın şərq sahillərində kəşf edilən, kimyəvi enerjini işıq enerjisinə çevirərək işıqyayma qabiliyyəti olan "bioluminesans" adlanan kütbərunlu köpək balığı növü ovçuluqla məşğul olan Savaş Dursunun qarmağına düşüb.**

Balıq zümrüd kimi parlaq gözləri və mişara bənzəyən dişləri ilə balıqçını təəccübləndirib. S.Dursun 28 il balıq tutduğunu və belə balıqla ilk dəfə qarşılaşdığını bildirib: "Balığı 400 metr dərinlikdə, sahildən 1 mil uzaqlıqda tutdum. İlk dəfə belə bir balığa rast gəlirdim. Bir az ehtiyatla yaxınlaşdım. Dişləri dəhşətli idi, sözün düzü, qorxdum. Mən həmişə tanımadığım balıq növlərini dənizə buraxıram. Sonradan onun dünyanın ən parlaq onurğası və ən yağlı qaraciyəri olduğunu öyrəndim. Mənim üçün sürpriz oldu".

Mütəxəssislər bu balığın Türkiyə sahilində ovlanmasını iqlim dəyişikliyi ilə əlaqələndirirlər.

***"Xalq qəzeti"***

# İlğımlaşan tarix

**1960-cı ilin noyabrında Doroti Stronq bir ingilis taksinin pəncərəsindən xəyali ordu görüb. Həmin yerdə isə 1388-ci ildə ingilis və şotland orduları arasında qanlı döyüş olub. Bu döyüşün "yazısı"nın 635 il harada və necə "mühafizə" edildiyi maraq doğurub.**



Bu fenomen xronoilğım adlanır. Görünür, minlərlə insanın iştirak etdiyi və ya həlak olduğu döyüşdə güclü enerji toplanıb. Bu enerji isə müəyyən şəraitdə gərginliyini itirərək baş vermiş hadisələri özündə əks etdirir.

Alimlər bu hadisənin bir növünü "drossoledes" adlandırıb. Bu sözü yunan dilindən tərcümə etdikdə "şeh damcısı" mənasını verir. Aşkar olunmuşdur ki, xronoilğımlar çox vaxt səhər tezdən duman damcıları havada kondensləşəndə peyda olur.

Oxşar hadisələr başqa yerlərdə də baş verib.

***P.ŞÖVKƏTOĞLU***
***"Xalq qəzeti"***

# Kassa çekləri təhlükəsiz deyil

**Kassa çeklərinin çap olunduğu termal kağızda təhlükəli Bisfenol A maddəsi var. Dəriyə nüfuz etmək üçün çeki əldə beş saniyə saxlamaq kifayətdir. Əllər və ya kağızın özü islanırsa, çirklənmə dozası on dəfə artır.**



Bu maddə qadın cinsi hormonu estrogenlə struktur oxşarlığına malikdir və reproduktiv sistemə mənfi təsir göstərir. Həmçinin onkoloji xəstəliklərə –prostat xərçəngi, testislər, süd vəziləri və s. yaranmasına səbəb olur.

Bisfenol A-nın beyin inkişafının ləngiməsinə, autizmə, diabet, piylənmə və ürək-damar xəstəliklərinin inkişafına səbəb olduğunu sübut edən tədqiqatlar var.

Hətta, bəzi ölkələrdə təhlükəli kimyəvi maddələr siyahısına daxil edilib.

Məhz Bisfenol A səbəbindən pul qəbzləri təkrar emala qəbul edilmir. Çünki termal kağızda sellülozun az olması tullantıların qalan hissəsini çirkləndirə bilər. Ona görə də çekləri kağız tullantılarına təhvil vermək zərərlidir.

***Z.BAYRAM, "Xalq qəzeti"***

## Proqnoz



# Rayonlara leysan yağacaq, dolu düşəcək

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 14-də Bakıda və Abşeron yarımadasında əsasən yağmursuz keçəcək.

Lakin axşam havanın arabir tutulacağı, yarımadanın bəzi yerlərində yağış yağacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək, axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 19-24°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən səhər saatlarından başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimal var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 30-35°, dağlarda gecə 9-14°, gündüz 15-20° isti olacaq.

***Q. QASIMOV, "Xalq qəzeti"***

**✓ 2009-cu il noyabrın 6-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 100109A2-10 nömrəli şəhadətnamə ilə qeydiyyatdan keçmiş Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbəsindəki "Cümə" məscidinin dini icmasına məxsus nizamnamə itdiyi üçün etibarsız sayılır.**

**✓ 2022-ci il mayın 22-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Futbolun İnkişaf Fonduna verilmiş 1116-Q56-3423 nömrəli şəhadətnamə və reyestrdən çıxarış itdiyi üçün etibarsız sayılır. VÖEN-2004143391.**

# ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Turizm və Menecment Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlaq İttifaqı Təşkilatı universitetin beynəlxalq münasibətlər kafedrasının dosenti Elşən Bayramzadəyə atası

**ƏSGƏR BAYRAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5166
SİFARİŞ 1501
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00